# Ermənipərəstlikdə “Holland sindromu” effekti



**Ermənipərəstlik mərəzinə yoluxmuş Avropa ölkələrindən biri də Niderland Krallığıdır. İndiyədək də bu ölkənin anti-Azərbaycan motivli hərəkət və davranışlarını görmüşük. Bu mənada Niderland Parlamentinin Nümayəndələr Palatasının iki qətnaməsinin üzərindən keçmək, bəlkə də, olardı. Amma nəzərə alaq ki, sözügedən qətnamələr yalnız Niderlandın tutduğu qərəzli mövqenin göstəricisi deyil. Məsələ, bütövlükdə, “köhnə qitə”nin və Qərbin ermənipərəstlik təəssübü ilə bağlıdır. Böyük ehtimal ki, qarşıdakı müddətdə belə qərəz nümunələrinin sayı artacaq. Çünki ermənipərəstlər özlərini Bakıda keçiriləcək COP29-a, daha doğrusu, Azərbaycanın bu nüfuzlu tədbirə evsahibliyini gözdən salmağa kökləyiblər.**

*(ardı 6-cı səhifədə)*




Xalqın qəzeti!

# Xalq qəzeti

№ 226 (30630) 15 oktyabr 2024-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Qarabağ amalı, müzəfferlik qüruru və dövlətçilik təminatı

## *İlham Əliyevin Liderliyi və Zəfərimizi doğuran amillər*



**Cənab İlham Əliyevin Azərbaycan Prezidenti kimi fəaliyyətə başlamasından 21 il keçir. Ötən müddəti xarakterizə etmək üçün çeşidli arqumentlər gətirmək, paralellər aparmaq mümkündür. İndiyədək də Prezident İlham Əliyevin dövlət başçısı kimi gördüyü işlərlə bağlı ən müxtəlif konseptual fikirlər bölüşülüb. Heç şübhəsiz, əlahəzrət zaman keçdikcə, daha bir çox məqamlar üzə çıxacaq və bu məqamlar şanlı tariximizin tərkib hissəsi olaraq özünə vətəndaşlıq hüququ qazanacaq. Hələlik isə qətiyyətlə bunu demək olar – 21 ilin özü bir tarixdir. Qarabağ hədəfinə aparan və Qarabağa qovuşduran tarix. Ərazi bütövlüyümüzün və suverenliyimizin təntənə tarixi.**

### Varislik

Prezident İlham Əliyevin ulu öndər Heydər Əliyevin ideyalarına sadiqliyini əsaslandıran faktlar da yetərincədir. Ancaq Qarabağ amalına sadiqlikdə bir başqa anlam var. Əminliklə demək mümkündür ki, Heydər Əliyev azərbaycanlı kimliyinin torpaq itkisi ilə barışmamaq əzminin obrazıdırsa, İlham Əliyev fəaliyyəti ilə bu obrazın sistematikliyini, dönməzliyini və ardıcıllığını göstərdi. Xalqımız, millətimiz üçün son dərəcə ağır sayılacaq sindromu aradan qaldırdı.

Atalar yaxşı deyib ki, torpaqdan pay olmaz. Torpaqdan payın olmadığı ata vəsiyyətinin də qayəsidir. Ona görə də Prezident İlham Əliyev 2020-ci il mayın 8-də Şuşanın düşmən tapdağından azad olunması ilə bağlı Azərbaycan xalqına müraciətində belə demişdi: “Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”

### Beynəlxalq siyasətin hədəfi

Ulu öndər Heydər Əliyev özünün prezidentliyi zamanında elə bir mötəbər tribuna qalmamışdı ki, orada Qarabağ həqiqətlərini diqqətə çatdırmasın. Birmənalı şəkildə demək olar ki, bu dahi şəxsiyyət beynəlxalq ictimaiyyətin şüuruna Qarabağın Azərbaycan torpağı olduğunu yeritməyi bacardı. İlham Əliyev böyüklüyü onda idi ki, o, şüurlara yeridilmiş ideyaya güc və qüvvət qazandırdı. Elə bir güc və qüvvət ki, Qarabağın Azərbaycan olmasına qarşı çıxan riyakarlıqlara sipər oldu, maskaları yırtdı, ermənipərəstliyi, belə demək mümkünsə, tərk-silah etdi.

*(ardı 5-ci səhifədə)*

## Son 20 ildə ölkəmizdə istiləşmə əvvəlki 85 ildəkindən yüksək olub



Səhifə ⇨ 9



## Mingəçevir: Nur şəhərinin gur yüksəlişi

Səhifə ⇨ 13

## “Odlar yurdu” “təmiz ətraf mühit və yaşıl artım” hədəflərini uğurla gerçəkləşdirir




Səhifə ⇨ 10

## Norveç iqlim dəyişikliyi ilə mübarizədən yayınır



Səhifə ⇨ 7

## BRICS ölkələri ilə ticarət genişlənir




Səhifə ⇨ 8

## Azərbaycan televiziya məkanının fəxri olan “Vətənim”




Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Belçika Krallığı səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edib.**



Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərimizin inkişaf edəcəyinə ümidvar olduğunu bildirərək səfirə fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda səfir kimi fəaliyyət göstərməsindən şərəf hissi duyduğunu deyən Julyen de Frepon fəaliyyəti dövründə ikitərəfli münasibətlərin müxtəlif, o cümlədən, iqtisadi və siyasi sahələrdə inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini dedi.

Azərbaycanda COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıran səfir bu tədbiri iqlim dəyişmələri ilə bağlı qlobal çağırış kimi dəyərləndirdi.

O, eyni zamanda, Belçikanın bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi. Səfir COP29-un enerji keçidi və iqlim dəyişmələri ilə bağlı fəaliyyət göstərən Belçika şirkətlərinin öz imkanlarını və yaşıl enerji sahəsində əldə etdiyi nailiyyətləri nümayiş etdirmək üçün də bir fürsət olacağını vurğuladı.

Regional sabitliyin Belçika üçün də böyük önəm daşıdığını deyən diplomat Azərbaycanın Ukraynaya göstərdiyi humanitar yardımın ölkəsi tərəfindən yüksək qiymətləndirildiyini bildirdi. O, Ermənistan-Azərbaycan münasibətləri ilə də bağlı regional sabitlikdə Belçikanın maraqlı olduğunu dedi. Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması üzrə son dövrlərdəki irəliləyişi qeyd edən səfir bu istiqamətdə atılan addımları Belçikanın təşviq etdiyini söylədi. O, eyni zamanda, Azərbaycanın üzləşdiyi mina çağırışları məsələsində də Belçikanın ölkəmizə, həmçinin ANAMA-nın fəaliyyətinə göstərdiyi dəstəyini bundan sonra da davam etdirəcəyini vurğuladı.

Belçikanın Avropa İttifaqının əsasını qoyan üzv dövlətlərdən biri olduğunu deyən Julyen de Frepon ölkəsinin Azərbaycan ilə Avropa İttifaqı arasında enerji keçidi, iqlim dəyişmələri, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlıqda maraqlı olduğunu bildirdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı potensialın mövcudluğunu qeyd edərək, iki ölkənin xarici işlər nazirləri arasında keçirilən görüşlərin əməkdaşlığın gündəliyi məsələsinin müzakirəsi üçün faydalı olduğunu dedi.

Prezident İlham Əliyev COP29-a hazırlıq işlərinin yekun mərhələdə olduğunu bildirdi. Hazırlıq işlərinə bir ildən az vaxt olduğunu deyən dövlətimizin başçısı COP öncəsi tədbirinin bu işlərin uğurla həyata keçirilməsini nümayiş etdirdiyini vurğuladı. Prezident İlham Əliyev növbəti ildə Azərbaycanın COP-a sədrliyi dövründə də dünyanın müxtəlif bölgələri arasında körpü rolu oynamaq əzmində olduğunu dedi. Dövlətimizin başçısı, eyni zamanda, yaşıl enerjiyə keçidin də bizim geniş gündəliyimizdə duran mühüm məsələ olduğunu bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, planlaşdırdığımız layihələrin artıq bir hissəsinin həyata keçirildiyini nəzərə alsaq, qarşıdakı illərdə enerji sektorumuzda bərpaolunan enerjinin payı əhəmiyyətli dərəcədə artacaq və biz bu sahədə Belçika şirkətləri ilə əməkdaşlıq etməyə hazırıq.

Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunan Prezident İlham Əliyev qeyd etdi ki, Brüssel Ermənistanla Azərbaycan arasında Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin dəstəyi ilə danışıqların uğurla keçirildiyi bir məkan olmuşdur və həqiqətən orada mühüm irəliləyişə nail olunmuşdur. Lakin əfsuslar olsun ki, Ermənistan tərəfi Brüssel prosesi adlanan bu prosesi davam etdirməmək qərarına gəldi. Ancaq hər bir halda bu, çox yaxşı nəticə və təcrübə verən müsbət proses idi.

Prezident İlham Əliyev qeyd etdi ki, hazırkı şəraitdə daha çox diqqət ikitərəfli müstəviyə cəmlənib. Dövlətimizin başçısı vurğuladı ki, sülh müqaviləsinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Prezident İlham Əliyev bu baxımdan Ermənistan hökumətinin "bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın" qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini bildirdi və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğuladı.

Dövlətimizin başçısı qeyd etdi ki, torpaqlarımızın işğalı dövründə dırnaqarası "Madrid prosesi prinsipləri" mövcud idi və bunun qarşılıqlı razılaşdırılmış əsas müddəalarından biri də o idi ki, bütün məsələlər razılaşdırılmadan heç nə razılaşdırıla bilməz. Bu, ozamankı ATƏT-in Minsk qrupu həmsədrlərinin, Ermənistanın və Azərbaycanın mövqeyi idi və biz bu mövqedə qalırıq. Əfsuslar olsun ki, keçmiş Minsk qrupunun bəzi üzvləri bununla bağlı öz mövqelərini dəyişdirdilər və Ermənistanın indiki qeyri-real təklifini dəstəkləyirlər. Prezident İlham Əliyev bildirdi ki, bir çox hallarda Ermənistan tərəfi bu təklifləri irəli sürməklə guya sülh istəyində olduqlarını nümayiş etdirirlər. Lakin onlar əvvəlcədən bilirlər ki, bu təkliflər qəbul oluna bilməz. Bütün bunlara baxmayaraq, proses davam edir. Azərbaycan Prezidenti vurğuladı ki, bizim torpaqlar işğal altında olanda – 1992-ci ildən 2020-ci ilədək 28 il vaxt keçirdik və nəticə sıfra bərabər oldu. İndi isə danışıqlara iki ildir ki, başlanılıb. Ona görə səbirli, realist və son nəticədə Cənubi Qafqazda sülhə nail olunmasına sadiq olmaq lazımdır.

Dövlətimizin başçısı belə bir məqama da toxundu ki, Avropa İttifaqı əvvəllər olduğu kimi, Ermənistan–Azərbaycan sülh məsələsində neytrallıq saxlamalıdır. Belə ki, Avropa İttifaqı torpaqlarımızın işğalı dövründə bu məsələdə heç vaxt fəal olmamışdır. Bizim bununla bağlı o dövrdə Avropa İttifaqına və Avropa institutlarına xeyli sayda müraciətlərimiz belə cavablandırılırdı ki, bu məsələ ilə Minsk qrupu məşğul olur, Avropa İttifaqının bu məsələyə aidiyyəti yoxdur. Hazırda isə Avropa İttifaqının bu məsələyə fəal cəlb olunduğu görünür. Lakin əfsuslar olsun ki, Brüsseldə, Avropa İttifaqının mənzil-qərargahında bəziləri tərəfkeşlik edirlər. Bu, qeyri-məhsuldar bir mövqedir, yalnız etimadsızlıq yaradır və Avropa İttifaqını normallaşma prosesindən təcrid edir. Dövlətimizin başçısı vurğuladı ki, əgər mümkündürsə, mən belə bir tövsiyə edərdim ki, Avropa İttifaqı və Azərbaycan əməkdaşlığının davam etdirilməsi naminə Fransanın yolu ilə gedilməsin, özlərini Fransanın təsirinə salmasınlar. Çünki Fransanın Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması ilə bağlı siyasəti destruktiv siyasət olub və tamamilə bu cür də qalmaqdadır.

Prezident İlham Əliyev onu da vurğuladı ki, Azərbaycan–Avropa İttifaqı münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə dırnaqarası "Avropa müşahidəçilər missiyasının" müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, "binokl diplomatiyası" heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirdi ki, biz Avropa İttifaqı ilə təmaslarda bu məsələni qaldıracağıq.

Belçika səfiri bu məlumatlara görə təşəkkürünü bildirdi, öz tərəfindən əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini dedi, ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün böyük imkanların olduğunu vurğuladı.

Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan–Avropa İttifaqı əməkdaşlığı geniş gündəliyə malikdir və enerji, nəqliyyat, yaşıl enerji, ticarət sahələrini əhatə edir. Avropa İttifaqı Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Beləliklə, Ermənistan-Azərbaycan münasibətləri ilə bağlı Azərbaycan-Aİ əməkdaşlığında geriləmə olarsa, bu, təəssüf hissi doğurar. Dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında ikitərəfli münasibətlər Ermənistan-Azərbaycan gündəliyindən asılı olmayaraq inkişaf edəcək.

## Qətər Dövlətinin səfiri etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Qətər Dövlətinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Hacirinin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə edərək ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlıq aparıldığını, BMT, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarda Azərbaycan ilə Qətərin bir-birini daim dəstəkləməsini vurğuladı və qeyd etdi ki, bu qarşılıqlı dəstək özünü ikitərəfli gündəliyin işində də aydın göstərir.

Növbəti illərdə artıq iqtisadi-ticari münasibətlərin inkişaf etdirilməsi məsələlərinə diqqətin artırılmasının zəruriliyini bildirən Prezident İlham Əliyev investisiya qoyuluşu sahəsində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu dedi.

Azərbaycan Prezidenti ölkələrimizin beynəlxalq nəqliyyat yollarının yaradılması sahəsində də fəal iş apardıqlarını məmnunluqla vurğulayaraq, eyni zamanda, beynəlxalq səviyyədə sülhün və təhlükəsizliyin təmin edilməsi işində Azərbaycanın və Qətərin səmərəli əməkdaşlıq həyata keçirdiklərini qeyd etdi.

Vətəndaşlarımızın ölkələrimizə qarşılıqlı səfərlərinə toxunan dövlətimizin başçısı vurğuladı ki, azərbaycanlılar Qətərdə, qətərlilər isə Azərbaycanda özlərini evlərindəki kimi hiss edirlər.

Azərbaycan Prezidenti səfirə fəaliyyətində uğurlar arzuladı, əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən səfir Qətər Dövlətinin Əmiri Şeyx Təmim bin Həməd Al Taninin salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qətərin Əmirinə çatdırmağı xahiş etdi.

Səfir vurğuladı ki, Azərbaycan Prezidentinin ikitərəfli münasibətlərimizin gündəliyi ilə bağlı dediyi dəyərli fikirlər istiqamətində əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcək. O, iqtisadi-ticari əlaqələrin önəminə toxunaraq, investisiya sahəsində əməkdaşlığın inkişafının əhəmiyyətini qeyd etdi.

Məhəmməd Həməd Səad Əl-Fuheyd Əl-Haciri COP29-un keçirilməsi münasibətilə təbriklərini çatdıraraq, Qətərin bu tədbirdə yüksək səviyyədə təmsil olunacağını bildirdi.

Dövlətimizin başçısı COP29-la bağlı hazırlıq işlərinin yekun mərhələdə olduğunu qeyd etdi.

Görüşdə qarşılıqlı sərmayələr, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlıq məsələlərinə toxunuldu, ölkələrimiz arasında hava nəqliyyatının mövcudluğundan və sərnişinlərin mütəmadi artım dinamikasının müşahidə olunmasından məmnunluq ifadə edildi.

## Benin Respublikası səfirinin etimadnaməsinin qəbuledilmə mərasimi



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Benin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Akambi Andre Okunlola-Biaunun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli gündəliyimizin genişləndirilməsinin zəruriliyini qeyd edərək Azərbaycanın Afrika qitəsində fəal iş apardığını, Afrika İttifaqında səfirliyimizin fəaliyyət göstərdiyini, bu təşkilatla əlaqələrimizi hərtərəfli şəkildə genişləndirməkdə maraqlı olduğumuzu dedi. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına 4 illik sədrliyi dövründə də Beninlə əməkdaşlığı məmnunluqla xatırladı, Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinə göstərdiyi dəstəyə görə Beninin üzv dövlət kimi rolunu qeyd etdi. Bu Hərəkata sədrliyimizin Afrika ölkələri ilə də sıx təmaslar qurmaq üçün yaxşı imkan yaratdığını deyən dövlətimizin başçısı COP29-un da bu ölkələrlə əməkdaşlıq baxımından önəminə toxundu. Prezident İlham Əliyev vurğuladı ki, Azərbaycan Afrika ölkələrinin iqlim məsələləri ilə bağlı maraqlarına önəm verir.

Dövlətimizin başçısı ölkələrimiz arasında iqtisadi-ticari, kənd təsərrüfatı, təhsil və digər sahələrdə əməkdaşlığın perspektivlərinə toxundu.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Benin Respublikasının Prezidenti Patris Talonun salamlarını Azərbaycan Prezidentinə çatdırdı və dedi ki, Benin Prezidenti dövlətimizin başçısına dost münasibət bəsləyir.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Benin Prezidentinə çatdırmağı xahiş etdi və məmnuniyyətlə COP29-da Benin dövlətinin başçısını gözlədiyini bildirdi.

COP29 və ölkəmizdə bu tədbirlə bağlı uğurlu hazırlıq işlərinin aparılması münasibətilə təbriklərini çatdıran səfir Azərbaycanın noyabrda dünyanın mərkəzinə çevriləcəyini qeyd etdi və COP29-da Beninin yüksək səviyyədə təmsil olunmaq niyyətində olduğunu vurğuladı.

Akambi Andre Okunlola-Biau Azərbaycanın Qoşulmama Hərəkatında uğurlu sədrliyi münasibətilə təbriklərini çatdıraraq, ölkəmizin sədrliyi dövründə Afrika qitəsinə xüsusi diqqət göstərilməsini məmnunluqla qeyd etdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar, xüsusən də BMT, Qoşulmama Hərəkatı və digər təsisatlar çərçivəsində Azərbaycanla Benin arasında yaxından əməkdaşlığın aparıldığı vurğulandı, ölkələrimizin BMT-də və onun strukturlarında daim bir-birinin namizədliklərini dəstəklədikləri qeyd olundu.

Azərbaycanın Afrika ölkələri üçün ayırdığı təhsil təqaüdü proqramı çərçivəsində ötən il Benindən də beş tələbənin respublikamızda təhsil aldığını məmnunluqla qeyd edən səfir buna görə təşəkkürünü bildirdi.

Görüşdə Benindən müxtəlif kadrların Azərbaycanda hazırlanması, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

# Prezident İlham Əliyev Estoniya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Estoniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Vayno Reynartın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli münasibətlərin gündəliyinin genişləndirilməsi, ticarət, iqtisadiyyat, investisiya sahələrində və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı yeni imkanların müəyyənləşdirilməsinin önəmini qeyd etdi, bunun üçün yaxşı imkanların olduğunu dedi.

Azərbaycana səfir təyin olunmasından şərəf duyduğunu bildirən Vayno Reynart Bakıya budəfəki gəlişi zamanı paytaxtda gedən inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. O qeyd etdi ki, həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində Estoniya ölkəmizlə əlaqələrə önəm verir.

Səfir vurğuladı ki, Estoniya Azərbaycanın Ermənistanla sülh müqaviləsinə nail olunması istiqamətində səylərini məmnunluqla izləyir və bununla bağlı beynəlxalq səviyyədə göstərilən səyləri də dəstəkləyir.

İkitərəfli əlaqələrə toxunan Vayno Reynart əməkdaşlığımızın dərinləşdirilməsi baxımından böyük imkanların olduğunu dedi, xüsusilə iqtisadi sahədə əlaqələrin inkişaf edəcəyinə ümidvarlığını bildirdi.

Qarşılıqlı səfərlərin əhəmiyyətinə toxunan dövlətimizin başçısı özünün Estoniyaya, Estoniya Prezidentinin isə Azərbaycana səfərinin əlaqələrimizin inkişafında rolunu vurğuladı.

Siyasi sahədə münasibətləri qeyd edən dövlətimizin başçısı həm ikitərəfli, həm də Avropa İttifaqı və digər beynəlxalq institutlar çərçivəsində əlaqələrimizin inkişafı ilə bağlı məsələlərin müzakirə edilməsinin vacibliyini vurğuladı. Azərbaycan-Ermənistan sülh prosesinə toxunan dövlətimizin başçısı qeyd etdi ki, ölkəmiz bu prosesin təşəbbüskarı olub və sülh müqaviləsinin baza prinsiplərini irəli sürüb. Bu istiqamətdə fəal işin getdiyini bildirən Azərbaycan Prezidenti sülh müqaviləsinin bütün müddəaları üzrə razılaşmaların əldə olunmasının vacibliyini bildirdi, regional sabitliyə xidmət etməsi baxımından bu müqavilənin hər bir müddəasının önəminə toxundu.

Söhbət zamanı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığı və COP29-la bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Danimarka səfiri etimadnaməsini Azərbaycan Prezidentinə təqdim edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 14-də Danimarka Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ole Toftun etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı indiyədək əməkdaşlığımızla bağlı bir o qədər də işlər görülmədiyini deyərək, potensial sahələrdə, o cümlədən ticarət sahəsində əlaqələrin inkişafı üçün yaxşı imkanların olduğunu vurğuladı.

Siyasi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın Avropa İttifaqının bir sıra dövlətləri ilə tərəfdaşlığının fəal fazada olduğunu qeyd etdi. Dövlətimizin başçısı regionumuz üçün əhəmiyyətli olan bu tarixi məqamda regional siyasətə dair müzakirələrin önəminə toxundu.

Ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə, o cümlədən ticarət istiqamətində inkişaf etdirilməsi üçün səylərini əsirgəməyəcəyini deyən səfir vurğuladı ki, Danimarka siyasətçiləri arasında Azərbaycanın Avropa ilə Mərkəzi Asiyanı birləşdirən mühüm ölkə olması barədə anlayış artmaqdadır. O, ölkəmizin ticarət, enerji, infrastruktur sahələrində haba çevrilmək istiqamətində inkişaf etdiyini vurğulayaraq, Danimarka şirkətlərinin bu işlərdə rol oynaya biləcəyini qeyd etdi.

Dövlətimizin başçısı neft-qaz və yaşıl enerji sahələrinə investisiyaların cəlb olunması ilə bağlı Azərbaycanda böyük işlərin həyata keçirildiyini deyərək, eyni zamanda, ölkəmizin yaşıl enerji və nəqliyyat sahələrində beynəlxalq haba çevrilməsi istiqamətində də fəal fazada işlərin aparıldığını bildirdi.

Prezident İlham Əliyev vurğuladı ki, açıq dənizlərə çıxışımızın olmamasına baxmayaraq, ölkəmiz Şimal–Cənub, Şərq–Qərb dəhlizlərinin kəsişməsində yerləşir və biz ən böyük beynəlxalq yükdaşıma donanmalarından biri daxil olmaqla, ən müasir nəqliyyat infrastrukturu, dəmir yolu və avtomobil yolu, dəniz limanları və hava yolları şirkətlərini yaratmağa müvəffəq olmuşuq. Azərbaycan Prezidenti vurğuladı ki, bütün bunlar beynəlxalq əməkdaşlıq üçün möhkəm platforma yaradır və bu dəhliz Azərbaycan vasitəsilə Şərqlə Qərb arasında daşımalar üçün ən yaxşı marşrutdur.

Dövlətimizin başçısı Azərbaycanda yükdaşımaların həcminin daim artdığını qeyd edərək, hazırda nəqliyyat infrastrukturu, o cümlədən gömrük sahəsində rəqəmsallaşmanın fəal surətdə aparıldığını bildirdi və vurğuladı ki, bu da daşımaların həcminin artırılması və rahat surətdə həyata keçirilməsi işinə xidmət edəcək.

Danimarka səfiri Azərbaycanın uğurlu inkişaf strategiyasının olduğunu və bu xüsusda, ölkəmizin regionun nəqliyyat-logistika mərkəzinə çevrilmək niyyətini təqdir etdiklərini diqqətə çatdırdı.

Danimarkanın öz regionunda nəqliyyat sahəsində böyük təcrübəyə malik olmasına və bu sahədə Danimarka şirkətlərinin fəallığına toxunularaq, ölkələrimiz arasında nəqliyyat-logistika sahələrində əməkdaşlıq məsələləri müzakirə edildi və bu istiqamətdə böyük perspektivlərin olduğu vurğulandı.

Səfir COP29-la əlaqədar təbriklərini çatdırdı və bunun dünyamiqyaslı bir tədbir olduğunu vurğuladı. COP29 çərçivəsində Danimarka ilə Azərbaycanın iqlim üzrə nümayəndə heyətlərinin yaxşı əlaqələrə malik olduğu və konstruktiv şəkildə əməkdaşlıq etdikləri bildirildi, bu sahədə ölkələrimiz arasında birgə təşəbbüslərə dair fikir mübadiləsi aparıldı.

Söhbət zamanı müxtəlif sahələrdə əməkdaşlığın perspektivləri, biznes dairələrinin birbaşa təmaslar qurması, yaşıl enerji və yaşıl texnologiyalar sahələrində əməkdaşlıq məsələləri müzakirə olundu.

Dövlətimizin başçısı yaşıl enerji məsələsinə toxunaraq, Xəzər dənizini və Qara dənizi birləşdirən yaşıl enerji dəhlizinin yaradılması prosesində ölkəmizin fəallığını qeyd etdi və bu xüsusda, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında Qara dənizin dibi ilə çəkiləcək kabel xəttini, həmçinin Mərkəzi Asiya ölkələri – Qazaxıstan və Özbəkistanın Xəzər dənizi vasitəsilə Azərbaycana birləşdirən bərpaolunan enerji layihələrini vurğuladı.

Görüşdə Avropa İttifaqının enerji tələbatının artacağı vurğulandı və yaşıl enerjiyə əsaslanan alternativ enerji mənbəyi kimi formalaşmaqda olan bu dəhlizin əhəmiyyəti qeyd edildi.

Söhbət zamanı Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# “Elektron su təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Elektron su təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 131 (Cild I); 2024, № 3, maddə 252, № 6 (I kitab), maddə 654) aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2-ci hissə üzrə:

1.1. birinci abzasda “Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi” sözləri “Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin;

1.2. 2.1-ci bənddən “Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə birlikdə” sözləri çıxarılsın və həmin bənddə “təşkili” sözü “təkmilləşdirilməsi” sözü ilə əvəz edilsin.

**2.** 4-cü hissədə “Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti, “Azərsu” Açıq Səhmdar Cəmiyyəti” sözləri “Dövlət Su Ehtiyatları Agentliyi” sözləri ilə əvəz edilsin.

**3.** Həmin Fərmanla təsdiq edilmiş “Elektron su təsərrüfatı” informasiya sistemi haqqında Əsasnamə” üzrə:

3.1. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

“1.6. ESTİS-in sahibi və operatoru Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyidir.”;

3.2. 2.1.3-cü və 2.1.4-cü yarımbəndlər ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 oktyabr 2024-cü il**

# Apellyasiya instansiyası məhkəmələri sədrlərinin müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin, birinci instansiya məhkəmələri hakimlərinin və sədrlərinin təyin edilməsi ilə bağlı bəzi məsələlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Məhkəmə-Hüquq Şurasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 94-cü maddəsinə və 97-ci maddəsinin ikinci hissəsinə uyğun olaraq,

**apellyasiya instansiyası məhkəmələri üzrə:**

1.1. Rafiq Musa oğlu Cəfərov Gəncə Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.2. Zaur İkram oğlu Məmmədov Sumqayıt Apellyasiya Məhkəməsinin Kommersiya Kollegiyasının sədri vəzifəsindən azad edilərək həmin məhkəmənin sədrinin müavini təyin edilsin;

1.3. İlqar Məhərrəm oğlu Mirzəyev Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Cinayət Kollegiyasının sədri təyin edilsin;

1.4. Günay İsmayıl qızı Cavadova Gəncə Apellyasiya Məhkəməsinin Mülki Kollegiyasının sədri təyin edilsin;

1.5. Samir Firdusi oğlu Həsənov Şirvan Apellyasiya Məhkəməsinin İnzibati Kollegiyasının sədri təyin edilsin;

**rayon (şəhər) məhkəmələri üzrə:**

1.6. Bəxtiyar Şahfirudin oğlu Məmmədov Bakı şəhəri Xətai Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Astara Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.7. Zamiq Akif oğlu Rəsulov Ağstafa Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Gədəbəy Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.8. İlqar Yadulla oğlu Əliyev Xocavənd Rayon Məhkəməsinin sədri təyin edilsin;

1.9. Mirheydər Seyidəmir oğlu Zeynalov Bakı şəhəri Sabunçu Rayon Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Qax Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.10. Samir İlham oğlu Mayılov Qobustan Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.11. Rövşən Elbrus oğlu Xəlilov Sumqayıt Şəhər Məhkəməsinin hakimi vəzifəsindən azad edilərək Lerik Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin;

1.12. Azər İbrahim oğlu İsmayılov Sabirabad Rayon Məhkəməsinin hakimi və sədri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 oktyabr 2024-cü il**

# Sahibə Qafarova Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında




**Milli Məclisin sədri, Parlamentlərarası İttifaqda Azərbaycan nümayəndə heyətinin rəhbəri Sahibə Qafarova İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlamentlərarası İttifaqın 149-cu Assambleyasında “Daha sülhsevər və dayanıqlı gələcək üçün elm, texnologiya və innovasiyadan (ETİ) istifadə” mövzusunda çıxış edib.**

Sahibə Qafarova deyib ki, elm, texnologiya və innovasiya hər zaman cəmiyyətin inkişaf meyillərinin mərkəzində yer alıb. Bu gün Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində onların vacib rolu hamılıqla qəbul edilib. O təəssüflə bildirib ki, 2030-cu ilin Davamlı İnkişaf Gündəliyində nəzərdə tutulmuş vaxtın bitməsinə 5 il qaldığı bir dövrdə həmin gündəliyin və 17 davamlı inkişaf məqsədinin yalnız 17 faizi vaxtında həyata keçirilməkdədir. Bu da kifayət qədər narahatedici məqamdır.

Parlamentin spikeri vurğulayıb ki, bəzi ölkələrin vaksin ehtiyaclarını qarşılamaq məqsədilə öz peyvənd tələblərini prioritetləşdirmək üçün texnoloji üstünlüklərindən istifadə etdikləri COVID-19 pandemiyasının dərsləri unudulmamalıdır. Qlobal çağırışlar fonunda ölkələrin bir-birinin inkişaf arzularını dəstəkləmək kimi mənəvi öhdəliyi var. 2020-ci ildən bəri Azərbaycan 140-dan çox ölkəyə 330 milyon ABŞ dolları dəyərində humanitar, iqtisadi və texniki yardım göstərib.

Bakıda keçiriləcək COP29 tədbiri barədə məlumat verən spiker deyib ki, tədbirə hazırlıq intensiv şəkildə həyata keçirilir. Azərbaycan Sədrliyi artıq 14 təşəbbüs irəli sürüb, bunlardan biri də "Yaşıl Rəqəmsal Fəaliyyət" təşəbbüsüdür.

Milli Məclisin sədri bildirib ki, parlament müzakirələrində iqlim dəyişikliyi məsələsinin əhəmiyyətini nəzərə alaraq, Parlamentlərarası İttifaq Azərbaycan Milli Məclisi ilə birlikdə COP29 çərçivəsində parlament görüşü təşkil edəcək. Sahibə Qafarova tədbir iştirakçılarını parlament iclasına dəvət edib, onları görüşdə fəal iştirak etməyə çağırıb.

***

Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Cenevrədə Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş və İran İslam Şurası Məclisinin sədri Məhəmmədbaqer Qalibaf ilə görüşüb.

**XQ**




# Siyasi varislikdən – siyasi liderliyə

## Yeni tarixi dövr: Milli ideya və tam suverenlik

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

### IV HİSSƏ

XXI əsrin dünya liderləri arasında xüsusi yeri və mövqeyi olan, öz xalqına tarixi zəfərlər qazandırmış cənab İlham Əliyevin 2024-cü il fevralın 7-də yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə müstəqil dövlətimiz həm də Zəfərdən Zəfərlərə doğru yeni və etibarlı təminat almışdır. Bu mənada xalqımız və ölkəmiz 7 fevral 2024-cü ilin növbədənkənar Prezident seçkiləri ilə müstəqillik tariximizin indiyə qədərki möhtəşəm tarixi inkişaf yoluna yekun vurmuş və daha böyük inkişafın geniş üfüqlərini nümayiş etdirən yeni tarixi dövrə qədəm qoymuşdur.

Azərbaycan Respublikasına uğurla rəhbərlik edən, ölkəmizi və xalqımızı yeni tarixi inkişaf mərhələsinə çatdırmış, 7 fevral seçkilərində qazandığı möhtəşəm qələbə ilə tariximizə silinməz izlər salmış 20 illik inkişafın möhtəşəm hesabatını təqdim edən İlham Əliyev həm də daha böyük gələcəyə təminat verə bilən yeni tipli lider olduğunu da təsdiqləmişdir.

Azərbaycan tarixində xüsusi mərhələ olan 2003–2023-cü illər Prezident İlham Əliyevin siyasi hakimiyyətinin birinci dövrünün epopeyası, 7 fevral 2024-cü il seçkilərində qazanılmış tarixi qələbə isə Ali Baş Komandanın daha böyük gələcəyə çağırışlarını ifadə edən manifestidir. Bu, müstəqil dövlətçilik manifestinin ideya müəllifi uzaqgörən dövlət xadimi, ümummilli liderimiz Heydər Əliyev, baş qəhrəmanı və mahir sükançısı isə Azərbaycan Respublikasının Prezidenti müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Bütün bunlara görə 7 fevral 2024-cü il prezident seçkiləri müstəqillik tariximizin inkişafının möhtəşəm yekunu, yeni tarixi epoxanın böyük başlanğıcı və paroludur. Dünyanın gözü qarşısında 7 fevral 2024-cü il seçkilərində Azərbaycan xalqı böyük qürur hissi ilə İlham Əliyevə səs verməklə özünün yeni tarixi dövrü üçün də möhtəşəm zəfərlər vəd edən daha parlaq gələcəyinə mandat almışdır.

Daşıdığı dərin mənaya və zərurətə görə 7 fevral 2024-cü il prezident seçkilərini Azərbaycan tarixində yalnız ulu öndər Heydər Əliyevin ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 3 oktyabr 1993-cü il seçkiləri ilə müqayisə etmək olar. Azərbaycanda dərin böhranların yaşandığı, müstəqilliyin itirilmək təhlükəsinin meydanda olduğu həmin məsuliyyətli sınaq dövründə xalqımız birmənalı şəkildə zəngin təcrübəyə malik olan, dünya şöhrətli görkəmli dövlət xadimi Heydər Əliyevin ölkəmizi xilas edəcəyinə böyük ümid və inam bəsləmişdir. Bu baxımdan 3 oktyabr 1993-cü il seçkilərində xalqımız Heydər Əliyevin simasında öz taleyinə, sabahına, xlaskarına səs vermişdi. Tarix Heydər Əliyevin xilaskarlıq missiyasının timsalında xalqımızın nə qədər müdrik olduğunu sübut etmişdir. Heydər Əliyev dövlət müstəqilliyimizi itirilmək təhlükəsindən xilas etmək və inkişafın növbəti mərhələsinin möhkəm təməllərini yaratmaqla tarixin gedişatını dəyişdirmək bacarığını ortaya qoymuşdur.

Məlum olduğu kimi, hazırkı 7 fevral 2024-cü il seçkiləri müstəqil dövlətimizin böyük sürətlə inkişaf etdiyi, ölkəmizin Qarabağ müharibəsində tarixi Zəfər qazandığı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam təsdiq olunduğu bir şəraitdə keçirilmişdir. Xalqımız 3 oktyabr 1993-cü il seçkilərində dövlət müstəqilliyimizi itirməmək və möhkəmləndirmək üçün Heydər Əliyevlə müqayisə oluna bilən digər bir lider görmədiyi kimi, 7 fevral 2024-cü il seçkilərində də ölkəmizi gəlib çatdığı zirvədə qoruyub saxlamaq və yeni tarixi mərhələyə doğru aparmaq məharətində də İlham Əliyevə alternativ namizəd haqqında fikirləşməli olmamışdır. Bu mənada Azərbaycan xalqı 3 oktyabr 1993-cü ildə hansı böyük inamla prezident seçkilərinə getmişdisə, bu seçkilərdə də həmin qətiyyət və eyni qürur hissi ilə öz sözünü demişdir. Ona görə də xalqımız 7 fevral 2024-cü il seçkilərində cənab İlham Əliyevə mandat verməklə müstəqil dövlətimizin yeni zəfərlərə doğru inkişaf edəcəyinə böyük inamının real təntənəsini yaşamışdır. Bu cəhətdən dövlətçilik baxımından Heydər Əliyevin dəmir iradəsi ilə İlham Əliyevin "dəmir yumruğ"u bir-birini tamamlayır və daha da gücləndirir, inkişaf etdirir. Bütün bunlar isə Heydər Əliyev – İlham Əliyev epoxasının Azərbaycan çoxəsrlik tarixində yeni bir tarixi dövr olduğunu əyani şəkildə nümayiş etdirir.

Azərbaycan Prezidenti İlham Əliyev XXI əsrin dünya liderlərindən biridir. Müstəqillik dövründə yaranmış yeni dövlətlərdən heç biri Prezidenti İlham Əliyev qədər öz xalqına böyük tarixi zəfərlər qazandıra bilməmişdir. Belə ki, bəzi ölkələrdə iqtisadiyyat, digərlərində turizm və nəqliyyat, başqa birində aqrar sahə, yüngül sənaye sahələrindən bir neçəsi üstünlük qazandığı halda, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında cəmiyyət həyatının bütün sahələrinin yüksək templərlə inkişafı davam edir. Qədim neft ölkəsi olan Azərbaycanda bu gün dövlət büdcəsinin formalaşmasında qeyri-neft sahələri: aqrar sektor, nəqliyyat-logistika, turizm, xidmət sahələri xüsusi çəkiyə malikdir. Həm də ölkəmizdə bütün sahələr dəqiq proqnozlaşdırılmış dövlət proqramları və özəl sektorun birgə iştirakı ilə məqsədyönlü şəkildə inkişaf etdirilir.

Prezident İlham Əliyev uzaqgörən rəhbər kimi bu günün reallıqlarını obyektiv şəkildə qiymətləndirdiyi kimi, sabahın üfüqlərini də doğru-düzgün proqnozlaşdıran liderdir. Ona görə də Azərbaycan Respublikasında bütün sahələr üzrə davamlı və etibarlı inkişaf təmin olunmuşdur. Müstəqil Azərbaycan dövlətinin irəliyə doğru inkişafının əsasında Prezident İlham Əliyevin yüksək idarəetmə bacarığı dayanır. Çoxillik uğurlu dövlətçilik təcrübəsi ilə, o, sözün əsl mənasında, böyük siyasətdə olduğu kimi, böyük idarəetmə sahəsində də məharətli bir qrossmeyster olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev müstəqil siyasət həyata keçirən müstəqil dövlətin qüdrətli lideridir. "Sözümüz imzamızdır" – deyən İlham Əliyevin bu tezis sözü ilə özünün, ideyası ilə iradəsinin möhkəm bir vəhdət təşkil etməsinin təsdiqidir. Dövlət başçısının möhkəm daxili-mənəvi zənginliyi onun siyasi müstəqilliyinin möhkəm bünövrəsidir. Bu mənada Prezident İlham Əliyevin müstəqil siyasət həyata keçirməsi Azərbaycan Respublikasının suverenliyinin əsas təminatıdır. Müstəqil Azərbaycan dünyanın heç bir blokundan və ya dövlətindən asılı deyildir. Prezident İlham Əliyevin hesabat verdiyi yalnız bir ünvan vardır ki, o da dərin sədaqətlə və böyük bacarıqla xidmət etdiyi Azərbaycan xalqıdır. Xalqın dönməz dəstəyini qazanmaq İlham Əliyevin müstəqil dövlətçilik siyasətinin əsasını təşkil edir.

Ölkədaxili siyasətlə xarici siyasəti üzvü surətdə əlaqələndirmək baxımından da İlham Əliyev mahir dövlət xadimidir. Çünki Prezident İlham Əliyevin xarici siyasətdə də, daxili siyasi gedişatda da müqəddəs hesab etdiyi yalnız bir istəyi vardır ki, o da Azərbaycan xalqının milli maraqlarından və müstəqil ölkəmizin dövlətçilik mənafeyindən ibarətdir. Ölkəmizin daxili və xarici siyasəti bir yerdə, bütövlükdə, Azərbaycan idealına həsr olunmuşdur. Prezident İlham Əliyev Azərbaycan idealının şərəfini Birləşmiş Millətlər Təşkilatının mötəbər xitabət kür-süsü, Qoşulmama Hərəkatı platforması, beynəlxalq təşkilatların tribunaları, dünya dövlətləri liderlərinin danışıqlar masası səviyyəsinə qaldırmışdır. İlham Əliyevin daxili və xarici siyasətinin əsas strategiyası Azərbaycan idealından yoğrulmuşdur.

Prezident İlham Əliyev xalqımızın gözündə ən uca məqam olan müzəffər Ali Baş Komandandır. Məlum olduğu kimi, müzəffər Ali Baş Komandan statusunu, o, 44 günlük Vətən müharibəsindəki, sözün əsl mənasında, təkrarsız qəhrəmanlığı ilə qazanmışdır. Sərkərdəsi olduğu Azərbaycan Ordusunu hərbi cəhətdən düzgün istiqamətləndirən Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində təkbaşına apardığı "müharibə"nin də yenilməz qəhrəmanıdır. Bu mənada "dəmir yumruq" Ali Baş Komandanın həm müharibə cəbhəsindəki və həm də informasiya müharibəsindəki dəmir iradəsinin simvoludur. İlham Əliyev hər iki cəbhənin – real döyüş cəbhəsinin və həm də informasiya müharibəsinin qalibidir. Prezident İlham Əliyev beynəlxalq münasibətlərdə də, ölkədaxili siyasətdə də qalibdir. Bu vaxta qədər ki, çoxcəhətli fəaliyyətinin bütün istiqamətlərində olduğu kimi, 7 fevral 2024-cü il seçkilərində də İlham Əliyev, sözün əsl mənasında, qalibiyyət nümunəsi göstərmişdir. Bu isə artıq Azərbaycan Respublikasının bütün ərazisində dalğalanmaqda olan Zəfər bayraqlarının əbədiyyət qazanmasının təntənəsidir.

Dünya şöhrətli görkəmli qırğız yazıçısı Çingiz Aytmatov hələ XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevdə yüksək liderlik xüsusiyyətlərinin olduğunu aşağıdakı kimi ifadə etmişdir: "İlham Əliyev XXI əsrin lider etalonudur".

Doğrudan da, İlham Əliyev özünün çoxcəhətli uğurlu fəaliyyəti, ölkəsinə və xalqına qazandırdığı böyük qələbələri, xarakterindəki müstəqil mövqeyə malik olmaq xüsusiyyəti, möhkəm siyasi iradəsi etibarilə yeni tarixi epoxanın liderlik missiyasına nümunədir. Bu cəhətdən 7 fevral 2024-cü ildə Azərbaycan xalqının dünyaya nümayiş etdirdiyi birlik və mütəşəkkillik qalib liderə bəslənilən möhkəm inamın canlı təntənəsidir. Bütün bunlara görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı çox əsrlik tariximizə "dəmir yumruq"lu və Zəfər bayraqlı Azərbaycan lideri olaraq həkk olunmuşdur.

Artıq Azərbaycan Respublikası yeni tarixi dövrə qədəm qoymuşdur. Müstəqil Azərbaycan Respublikasının yeni tarixi mərhələsinin ümummilli ideyası "Hərtərəfli inkişaf etmiş daha güclü Azərbaycan uğrunda!" devizi ilə ifadə edilə bilən siyasi-ideoloji və iqtisadi-mədəni strategiyadan ibarətdir. Müstəqil Azərbaycan dövlətinin inkişaf etməkdə olan ölkələrin sırasından inkişaf etmiş dövlətlərin səviyyəsinə çatdırılması 7 fevral 2024-cü il seçkilərindən sonrakı dövr üçün "Daha güclü Azərbaycanın" əsas hədəfidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar Azərbaycan Respublikasının həmin hədəflərə doğru inamla irəlilədiyinin əyani şəkildə nümayiş etdirir. Dövlət rəhbərinin elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili"nin daha aktual şəkildə meydana qoyduğu yaşıl iqtisadiyyat, yaşıl enerji, yaşıl texnologiyalar, yaşıl artım kimi inkişaf iqtiqamətləri Azərbaycan Respublikasında yeni bir inkişaf dalğası yaratmışdır. Artıq ölkə üzrə yaşıl iqtisadi zonaların yaradılması, alternativ enerji mənbələri əsasında dövlət proqramlarının həyata keçirilməsi yaşıl artımın ilkin nəticələrini meydana çıxarmışdır.

"Yaşıl dünya naminə həmrəylik ili" XX əsrin yetmiş-səksəninci illərində görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi birinci tarixi mərhələdə təbiəti mühafizənin gücləndirilməsi, yaşıllaşdırma hərəkatı, şoranlaşmaya qarşı mübarizə, Xəzər dənizinin biosferası ilə əlaqədar həyata keçirilmiş genişmiqyaslı tədbirlərin yeni dünyanın müasir reallıqlarına uyğun olaraq yeni inkişaf səviyyəsinə qaldırılmasına imkan yaratmışdır. Prezident İlham Əliyev müasir dövrün meydana çıxardığı çağırışların işığında yaşıl enerji, yaşıl iqtisadiyyat, yaşıl transformasiyalar, yaşıl artım, yaşıl layihələr, yaşıl bacarıqlar kimi yeni anlayışların gətirdiyi fərqli reallıqları və inkişaf ritmlərini cəmiyyət həyatına daxil etmişdir. Dövlət səviyyəsində Naxçıvan Muxtar Respublikası, Qarabağ və Şərqi Zəngəzurun Yaşıl İqtisadi Zona elan olunması və inkişaf etdirilməsi bu hərəkata Azərbaycanın töhfəsidir. Azərbaycan elmində meydana çıxmış yaşıl energetika, ekolinqvistika, iqlim leksikası, arxeoloji turizm, ekoturizm, landşaftşünaslıq, yaşıl iqtisadiyyat və sair kimi yeni istiqamətlər müasir dünyanın və Azərbaycan reallıqlarının tədqiq edilməsinə bu ilin açdığı imkanlardır.

Ölkəmizdə son illərdə alternativ yaşıl enerji mənbələrdən istifadə, yaşıl iqtisadi zonaların inkişaf etdirilməsi, ekoloji və arxeoloji turizmin formalaşdırılması və sair istiqamətlərdə aparılan genişmiqyaslı tədbirlər Beynəlxalq COP29 Konfransının çağırışlarının həyata keçirilməsində Azərbaycan Respublikasının dünyanın nümunəvi ölkələri sırasında olduğunu və bu mötəbər tədbirin ölkəmizdə uğurla keçiriləcəyini əyani şəkildə nümayiş etdirir.

Birləşmiş Millətlər Təşkilatının qlobal iqlim dəyişikliklərinə həsr edilən COP29 Beynəlxalq Konfransının Azərbaycanda keçirilməsinə dair qəbul edilmiş qərar və bu istiqamətdə respublikamızda gerçəkləşdirilməkdə davam edən genişmiqyaslı tədbirlər ölkəmizin siyasi-ictimai və iqtisadi mühitində, elmi fikrində fərqli bir mənzərənin yaranmasına səbəb olmuşdur. Yaşıl dünya naminə həmrəylik hərəkatı 7 fevral 2024-cü il seçkilərindən sonrakı yeni tarixi dövrün reallığıdır. COP29 Beynəlxalq Konfransının ölkəmizdə keçirilməsi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq miqyasda söz sahibi olan dünya liderlərindən biri səviyyəsində qazandığı yüksək nüfuzun əyani göstəricisidir. Azərbaycan COP29 Konfransının keçirildiyi günlərdə müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə ölkəmizin paytaxtında və regionlarda, xüsusən Qarabağda və Şərqi Zəngəzurda uğurla genişləndirilməkdə olan Böyük Qayıdış hərəkatının möhtəşəm nailiyyətlərini dünya ictimaiyyətinə təqdim edəcəkdir.

Prezident seçkilərindən sonra Azərbaycan beynəlxalq miqyasda da böyük uğurlara imza atmaqla dünya birliyindəki mövqelərini daha da möhkəmləndirir. Bu cəhətdən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 iyun 2024-cü il tarixdə Qazaxıstanın paytaxtı Astana şəhərində keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısında iştirak və çıxış etməsi, dünya liderləri ilə görüşlər keçirməsi və danışıqlar aparması beynəlxalq əhəmiyyətə malik olan mühüm hadisədir. Prezident İlham Əliyevin Çin Xalq Respublikasının lideri Si Cinpinlə görüşü zamanı müzakirə edilən məsələlər və əldə olunan razılaşmalar Azərbaycan Respublikasının daha sürətli və hərtərəfli şəkildə inkişaf etdirilməsinə təminat verir. Xüsusən, 3 iyul 2024-cü il tarixdə "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"nin hər iki dövlətin liderləri tərəfindən imzalanması müstəqil dövlətimizi yeni inkişaf mərhələsinə çatdırmağa təminat verən əhəmiyyətli siyasi gedişdir. Bu, ulu öndər Heydər Əliyev tərəfindən möhkəm təməlləri yaradılmış Azərbaycan – Çin əlaqələrinin və əməkdaşlığının yeni inkişaf mərhələsinə çatdırılmasına təminat verən, taleyüklü əsas istiqamətlərdə birgə fəaliyyət göstərməyə meydan açan dövlət əhəmiyyətli strateji inkişaf proqramıdır.

Ümumiyyətlə, 7 fevral 2024-cü il Prezident seçkiləri Azərbaycanın ərazi bütövlüyünün və dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi və inkişaf etdirilməsi baxımından mühüm tarixi hadisə olmuşdur. Prezident İlham Əliyevin 14 fevral 2024-cü il tarixindəki andiçmə nitqində dediyi aşağıdakı sözlər növbədənkənar seçkinin xalqımızın və müstəqil dövlətimizin növbəti uğuru olduğunu nümayiş etdirir: "Bununla da Azərbaycan ərazisində seperatizmin kökü kəsilmişdir. Bununla Azərbaycan həm öz ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir. Bu prezident seçkilərinin əsas əlaməti, xüsusiyyəti və önəmi ondadır ki, müstəqillik dövründə ilk dəfə idi ki, seçkilər ölkəmizin bütün ərazisində keçirilmişdir. Mən, bildiyiniz kimi, səsvermə prosesində Xankəndidə iştirak etmişdim... Orada verdiyim səs, o qutuya saldığım bulleten, sadəcə olaraq, bulleten deyildi. Bu, erməni seperatçılarının tabutuna vurulan son mismar idi."

Artıq Azərbaycan Respublikasının həyatında yeni tarixi dövr başlamışdır. "Daha Güclü Azərbaycan uğrunda!" hərəkat ölkəmizə və xalqımıza böyük ümidlər vəd edir. Xalqımız möhkəm surətdə inanır ki, Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi dövr ölkəmizin inkişafında daha böyük inkişaf və yüksəliş mərhələsi olacaqdır. Azərbaycan xalqının özünün qüdrətli lideri İlham Əliyevə bəslədiyi böyük ümid və inam ölkəmizi daha xoşbəxt gələcəyə çatdıracaqdır. Prezident İlham Əliyevin andiçmə zamanı dediyi sözlər xalqımızın işıqlı və uğurlu sabahlara doğru addımlamaqda olmasının yalnız nikbin anonsu deyildir, yeni tarixi dövrün dövlət başçısı səviyyəsində bəyan edilmiş gerçəkliyidir: "İndi isə yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq, mən buna şübhə etmirəm. Çünki son illərin tarixi onu göstərir ki, qarşıya qoyduğumuz bütün vəzifələr icra edildi. Əlbəttə ki, bütöv Azərbaycan bu dövrə qədəm qoymuş, bütövləşmiş birlik nümayiş etdirmiş, o cümlədən bu seçkilərdə böyük birlik nümayiş etdirmiş xalq böyük uğurlara imza atacaqdır. Mənim buna şübhəm yoxdur. Azərbaycan cəmiyyətində hökm surən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub. Əgər güclü Azərbaycan qurmasaydıq, əgər kimdənsə istər siyasi istər iqtisadi sahədə asılı olmuş olsaydıq, heç vaxt ərazi bütövlüyümüzü bərpa edə bilməzdik. Mən hər dəfə deyirdim ki, Azərbaycan bayrağı ərazimizin hər bir yerində dalğalanacaqdır."

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bəyan etdiyi yeni tarixi dövr çoxtərəfli və çoxcəhətli olub, özündə ən mühüm strateji hədəfləri birləşdirir. Daha güclü Azərbaycan, Türk dünyasının birliyi, rəqəmsal inkişaf və strateji tərəfdaşlıq uğrunda mübarizə hərəkatı yeni tarixi dövrün ana xətlərini, əsas istiqamətlərini müəyyən edə bilər. Dünya birliyində çoxtərəfli strateji əməkdaşlıq prinsipinə əsaslanmağa üstünlük verən Prezident İlham Əliyevin rəhbərliyi ilə hərbi-siyasi, iqtisadi-mədəni, elmi-texniki sahələrdə yeni nailiyyətlər qazanmaqla, milli-mənəvi dəyərləri inkişaf etdirib möhkəmləndirməklə daha güclü Azərbaycanı qurmağa doğru qətiyyətlə addımlamaqdadır. IV Sənaye inqilabının çağırışlarının Azərbaycan cəmiyyətində gedən inkişaf prosesləri ilə uzlaşdırılması, süni intellektin və rəqəmsal transformasiyaların geniş tətbiq edilməsinə nail olunması da daha müasir və daha güclü Azərbaycanın qurulmasına xidmət edir.

Prezident İlham Əliyevin "Dövlət Suverenliyi Günü"nün təsis edilməsi haqqındakı 20 sentyabr 2024-cü il tarixli sərəncamı Azərbaycanın dövlətçilik tarixinin nadir səhifəsidir. Bu, Azərbaycanın dövlətçilik tarixində 28 may 1918-ci ildə imzalanmış "İstiqlal Bəyannaməsi", 18 oktyabr 1991-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" kimi ölkəmizin tarixi müqəddəratını müəyyən edən, mühüm siyasi əhəmiyyətə malik olan sənədlərin meydana qoyduğu, lakin tam həyata keçirilməmiş ümummilli və dövlətçilik ideallarının başa çatdırıldığını, yerinə yetirildiyini təsdiq edən dövlət doktrinasıdır.

Heydər Əliyevin adı və xidmətləri ilə bağlı olan "Milli Qurtuluş Günü" müstəqil dövlətimizin lideri İlham Əliyevin imzaladığı "Dövlət Suverenliyi Günü"nün möhkəm təməli və strateji əsasıdır. "Dövlət Suverenliyi Günü" mahiyyəti və əhəmiyyəti etibarilə "Milli Qurtuluş Günü"nün təntənəsidir. Dövlət Suverenliyi Günü Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ölkəmiz və xalqımız qarşısındakı böyük tarixi xidməti, dünyanın gözü qarşısında nümayiş etdirilən liderlik missiyasını təsdiqidir. Bu, Prezident İlham Əliyevin siyasi varislikdən liderliyədək keçdiyi şərəfli yolun, apardığı qətiyyətli və ədalətli mübarizənin rəmzidir.

"Dövlət Suverenliyi Günü"nün İlham Əliyevin iştirakı ilə yeni yaradılmış Qarabağ Universitetində qeyd olunması Azərbaycanın müstəqil dövlətçilik ideallarının yeni nəsillər tərəfindən qorunub yaşadılacağına və uğurla davam etdiriləcəyinə dövlət səviyyəsində nəzərə çatdırılan mesajdır. Qarabağ Universitetinin Xankəndi şəhərində açılması Azərbaycanın bugünkü və sabahkı nəsilləri Qarabağ torpaqlarının əsl sahibidir mənasını ifadə edir. Prezident İlham Əliyev Xankəndidə Qarabağ Universitetini təsis etməklə, fəaliyyətini uğurla davam etdirməsinə dövlət səviyyəsində böyük dəstək verməklə regionda genişmiqyaslı məskunlaşmaya və müasir inkişafa yaşıl işıq yandırmışdır.

Hazırda müstəqil Azərbaycan Respublikası Prezident İlham Əliyevin, xalqının və dövlətinin qüdrətli liderinin qətiyyətli və uzaqgörən müdrik siyasətinin işığında böyük addımlarla yeni tarixi dövrün vəzifələrini uğurla həyata keçirərək, daha parlaq gələcəyə doğru inamla yol getməkdə davam edir.

# 21 illik liderlik fəaliyyətinin fəlsəfəsi



**Lider açıq oynayır. Lider arxasınca aparır.**
**Teodor RUZVELT**

## Ulu öndərin seçimi

2003-cü ilin oktyabr ayında bəlkə də çoxlarının müstəqil və güclü dövlət barədə aydın təsəvvürü yox idi. Lakin o vaxt ulu öndər Heydər Əliyev Azərbaycan xalqına müraciətində müstəqilliyin və güclü dövlətçiliyin konseptual manifestini, ümumi istiqamətlərini, bu ideyanı reallaşdıracaq lideri təqdim etmişdi.

1993-cü ilin iyununda xalqın dəvəti ilə yenidən Azərbaycanda siyasi hakimiyyətə gələndə "güclü dövlət quruculuğu" strategiyasını seçməklə milyonları və hətta yüksək səviyyəli analitikləri və politoloqları necə heyrətləndirmişdisə, 2003-cü il 1 oktyabr müraciətində də eyni reaksiyanı yeni lideri təqdim etməklə yaratdı. Bu, sadə seçim deyildi. Çünki XXI əsrdə müstəqilliyin və güclü dövlətçiliyin taleyini hər kəsdən və hər şeydən öncə düzgün lider seçimi həll edir.

Əminəm ki, çoxlarının onda inanmaq istəmədiyi bir şəraitdə Heydər Əliyev tarixi qərar vermişdi: Azərbaycanı uğurla inkişaf etdirmək üçün lider kimi İlham Əliyevə böyük ehtiyac vardı. Son 21 ilin dövlət quruculuğu təcrübəsi bu dahiyanə qərarın tamamilə doğru olduğunu təsdiqlədi.

İndi keçilən yolun müxtəlif aspektlərdə təhlili aparılır. Maraqlı fəlsəfi və politoloji tezislər irəli sürülür. Şübhə yoxdur ki, bu proses uzun illər davam edəcək. Çünki Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti dərin fəlsəfi, geosiyasi və liderlik mənalarına malikdir. Bununla yanaşı, İlham Əliyev Avrasiya məkanında yeganə liderdir ki, Lider–Ali Baş Komandan keyfiyyətlərini ən yüksək formada özündə birləşdirmiş və tarixi uğurlar əldə etmişdir!

## Milli və regional maraqların uyğunlaşdırılması

XXI əsrin başlanğıcında postsovet məkanında hər bir müstəqil dövlət üçün bu məsələ olduqca aktuallaşmışdı. Regional və qlobal miqyaslarda cərəyan edən ziddiyyətli geosiyasi proseslər dövlətlərin milli maraqlarına, müstəqil və suveren siyasət yeritməsinə ciddi təsirlər edirdi. Belə bir vəziyyətdə düzgün və uğurlu çıxış yolu nədən ibarət ola bilərdi?

Həmin illərdə Frensis Fukuyamanın bir ktabı dərc olundu. Dəqiq olaraq, 2003-cü ildə. O kitabda məşhur Amerika filosofu yazırdı ki, müasir dövrdə güclü dövlətlər zəruridir. Çünki zəif dövlətlər dünya miqyasında qeyri-müəyyənliyin, risklərin, hüquq pozuntularının qaynağına çevrilirlər. Çoxları F.Fukuyamanı anlamadı. Çünki həmişə demokratiya və liberalizmdən ("son insan" və "tarixin sonu" terminlərini xatırlayaq) bəhs edən alim qəfil "güclü dövlət" anlayışına keçmişdi.

Ancaq Heydər Əliyevin hələ XX əsrin 90-cı illərində ifadə etdiyi fikirlərdən fərqli bir şey deməyən F.Fukuyama (söhbət fikirlərin siyasi və praktiki tutumundan və orada ifadə edilən başlıca məqamdan gedir) güclü dövlət məsələsini fəlsəfi miqyasda siyasi təfəkkürün fokusuna gətirmişdi. F.Fukuyama fəlsəfi-nəzəri səviyyədə Heydər Əliyevin "güclü dövlət" anlamının səmərəliliyini və strateji faydasını təsdiq edirdi.

Bununla yanaşı, aydın idi ki, konsepsiya kimi güclü dövlət quruculuğunu realpolitika çərçivəsində həyata keçirən lider lazımdır. Bu artıq konkret zaman kəsimində praktiki məsələdir və toplumun seçimi ilə birbaşa bağlıdır! Müdrik Azərbaycan xalqı Ulu öndərin tövsiyəsinə tam əməl edərək 2003-cü ilin oktyabrında İlham Əliyevi dövlət başçısı seçdi.

Eyni zamanda, qarşıda milli və regional maraqları uyğunlaşdırmaq kimi mürəkkəb və çətin vəzifənin öhdəsindən gəlmək lazım idi. Burada "milli" anlayışının hansı məqamları ifadə etdiyinə aydınlıq gətirmək gərəkdir.

Müasir tarixi mərhələdə "milli" dedikdə toplumun mövcudluğu, davamlı inkişafı və təhlükəsizliyini təmin edən faktorların sistemi nəzərdə tutulur. Həmin faktorlar cəmiyyətin tarixi və sosial-mədəni təcrübəsi ilə idarəetmədə liderlik ənənəsinin dövlətçilik kontekstində vəhdətində formalaşır. Eyni zamanda, hər bir tarixi mərhələdə sosial-mədəni şərtlər və idarəetmə təcrübəsi fonunda liderliyin yeni nümunəsinin yaradılması ön plana çıxır. Çünki hər bir tarixi yeniləşmədə şərtlər elə dəyişir ki, bir an öncə faydalı olan liderlik nümunəsi uğur qazanmaq üçün yetərli olmur. Deməli, XXI əsrin uğurlu lideri daim yenilikçi, yaradıcı və məhz milli kontekstdə nəticəverici olmalıdır. İlham Əliyevin milli liderliyi Avrasiya məkanında bunun bariz nümunəsidir.

Aydın görünür ki, siyasi liderin milliliyi hər şeydən öncə həm də milli maraqları təmin etməsi ilə əlaqəlidir. "Milli maraqlar" ifadəsi özlüyündə göstərir ki, bu məhfum bütövlükdə toplumun və dövlətin inkişafına xidmət edən və kollektiv şüurda mövcud olan dəyərlər sistemini ifadə edir. Həmin maraqlar ona görə "milli" adlanır ki, cəmiyyətin, xalqın, dövlətin mövcudluğu və inkişafına uyğundur. Bunlara görə, siyasi liderin milliliyi geniş məzmun kəsb edən fenomendir və hər bir tarixi mərhələdə xüsusi məzmun alır.

Burada liderin milli maraqlarla regional maraqları konkret praktiki müstəvidə uyğunlaşdıra bilmə qabiliyyətinin əhəmiyyəti önə çıxır. Çünki nəzəri yanaşma nə qədər səmərəli olsa da, liderin fəaliyyəti praktiki nəticə verməlidir.

## Daxili birlik və layihələrin reallaşması

2003-cü ildən başlayaraq Azərbbaycanda daxili birliyin təmini ilə enerji layihələrinin reallaşması arasında bur ahəngdarlıq özünü göstərmişdir. Multikultural dəyərlərə əsaslanan inteqrasiya modeli vüsət almışdı və bunun fonunda cəmiyyət liderin enerji siyasətini tam dəstəkləyirdi. Qısa müddətdə İlham Əliyev enerji siyasətini ən mürəkkəb şəraitdə belə yeni səmərəlilik səviyyəsinə yüksəltdi. Bu, xüsusilə Gürcüstan və Ukrayna istiqamətində özünü qabarıq göstərdi. Azərbaycan Prezidenti enerji layihələrinin reallaşmasında Gürcüstanın iştirakını tam təmin etdi. Ukrayna ilə Rusiya arasında 2013–2014-cü illərdə enerji məsələsində yaranmış böhranda da praqmatik və sülhpərvər mövqe tutdu.

Bunlar artıq İlham Əliyevin liderlik nümunəsinin vacib aspektlərindən xəbər verirdi. Konkret olaraq, İlham Əliyev milli maraqları regional maraqlarla uyğunlaşdırmaq səviyyəsindən regionlararası miqyasda səmərəli əməkdaşlıq müstəvisinə keçid edirdi. Bu keyfiyyət fəlsəfi baxımdan əhəmiyyətli bir özəlliyi ifadə edirdi.

## Dövlətin regional və qlobal statusunun yeniləşməsi

Prezident İlham Əliyevin həyata keçirdiyi layihələr və atdığı siyasi-diplomatik addımalr sosial-iqtisadi və mədəni inkişafla yanaşı, Azərbaycanın müstəqil dövlət kimi regional və qlobal miqyaslarda statusuna ciddi təsirlər etdi. Bunun əlamətləri Azərbaycanın Avropa İttifaqı (Aİ) ilə münasibətləri digər postsovet dövlətlərindən fərqli müstəvidə qurması və BMT TŞ-də müvəqqəti sədrliyə seçilməsində özünü göstərirdi. Bunlardan başqa, Azərbaycan regional və beynəlxalq təşkilatlarda maraqlarını intensiv şəkildə təmin edirdi və dünyanın daha çox dövləti Azərbaycan həqiqətlərini görməyə başlamışdılar.

Bütün bunlar tədricən və davamlı olaraq Azərbaycan Respublikasının həm regional, həm də qlobal miqyaslarda statusunu yüksəltməyə xidmət etdi.

## Şuşa Bəyannaməsi: yeni mərhələnin təməlləri

Hər iki hadisə Azərbaycanın müstəqil dövlətçilik tarixinin möhtəşəmliyini ifadə edir. Onların uğurlu olmasının memarı isə Prezident İlham Əliyevdir. Vətən müharibəsində qələbə Azərbaycan Prezidentinin çoxillik dövlət və ordu quruculuğunun birbaşa məntiqi nəticəsi və bəhrəsidir. Şuşa Bəyannaməsi isə Azərbaycanın Türk Dünyasının inteqrasiyasında aparıcı rol oynaması şərti ilə təhlükəsizliyinin qarantıdır. Şuşa Bəyannaməsi faktiki olaraq Azərbaycanı Türk Dövlətləri Təşkilatının (TDT) çərçivəsində regional miqyasda liderlikdən regionlararası miqyasda aparıcılığa yüksəlməsinin hüquqi şərtlərini müəyyən etdi. Bu prosesə Prezident İlham Əliyevin siyasi-diplomatik məharəti konkret yön və məzmun verdi.

Vətən savaşında Qələbənin də regional miqyasda mənzərəni yeniləşdirməsi Cənubi Qafqazın hüdudlarını aşan tarixi hadisədir. Azərbaycan bununla geosiyasi aspektdə regionlararası miqyasda təsir gücünə malik dövlət olduğunu isbatladı. Postsovet məkanının digər dövlətlərinin indiki geosiyai vəziyyətinə baxsaq, İlham Əliyevin bu uğurunun miqyasını daha yaxşı görə bilərik!

## Qarabağ Bəyannaməsi: Daha yüksək status

Qarabağ Bəyannaməsi Şuşa Bəyannaməsindən cəmi 3 il sonra imzalandı. Həmin 3 il müddətində Azərbaycan o dərəcədə səmərəli siyasi-diplomatik kurs həyata keçirmişdir ki, 2024-cü il Qarabağ Bəyannaməsində artıq yazılırdı: "2. Strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsi, TDT-nin kollektiv strategiyasının formalaşdırılması üçün siyasi, iqtisadi, nəqliyyat, müdafiə sənayesi, humanitar, təhsil və mədəniyyət sahələrində türk dövlətlərinin tam potensialından və imkanlarından istifadə edilməsinin vacibliyini bir daha vurğulayırlar" və "3. Türk dövlətlərinin qlobal miqyasda potensialı nəzərə alınmaqla daha iddialı məqsədlərin qarşıya qoyulmasının, birgə səylərin artırılması və strateji əhəmiyyətli regional layihələrin həyata keçirilməsi yolu ilə dayanıqlı gələcəyin qurulması baxımından TDT-nin vəzifə və məqsədlərinin səmərəli həyata keçirilməsi üçün müvafiq mexanizm və qaydaların tətbiqinin zəruriliyini qeyd edirlər".

Bu o deməkdir ki, Türk Dövlətləri Təşkilatının regionlararası miqyasda real fəaliyyət göstərməsi yolu Azərbaycandan başlayır. Bu, həm də, daha yüksək səviyyədə birləşdirici, qurucu, əməkdaşlığı və təhlükəsizliyi təminedici dövlət səviyyəsinə yüksəlmək deməkdir. Bu prosesdə çox mühüm bir məqam da Azərbaycanın müstəqil dövlət kimi özəlliyini ifadə edir.

Məsələ onunla bağlıdır ki, TDT daxilində Azərbaycanın bu cür sürətli yüksəlişi onu qətiyyən etnik məhdud çərçivədə fəaliyyət göstərən dövlət halına salmamışdır. Əksinə, Azərbaycan Prezidenti indi regionlararası miqyasda təşkilatlar arasında səmərəli əməkdaşlıq yaradan lider kimi qəbul edilir. Belə ki, MDB dövlətlərinin Laçını bu təşkilatın 2025-ci ildə mədəniyyət paytaxtı elan etməsi mühüm tarixi hadisədir. Azərbaycan həm də son Moskva sammitində MDB-nin inkişafının əsas fəlsəfi, geosiyasi və siyasi prinsiplərini lakonik ifadə etməsi olduqca əlamətdardır. İndi Azərbaycan yalnız TDT-nin deyil, həm də MDB-nin əsas təşəbbüskar dövlətidir! Bu, tarixi və geosiyasi baxımdan çox maraqlı harmoniyadır və ayrıca araşdırılmalıdır! Çünki Azərbaycan geniş bir geosiyasi məkanda hər iki təşkilatın yeniləşməsi və inkişafına yön verir. Bu uğurun memarı isə, əlbəttə, Prezident İlham Əliyevdir!

Bir qəzet məqaləsində Prezident İlham Əliyevin əldə etdiyi nailiyyətləri vurğulamaq imkansızdır. Ancaq həmin uğurlar deməyə əsas verir ki, son 21 ildə Azərbaycan XXI əsrdə heç bir müstəqil dövlətin nail ola bilmədiyi uğurlara imza atmışdır! Buna görə də bütün Azərbaycan öz liderinin bundan sonra da fəal, yaradıcı və uğurlu olacağına tam inanır!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Qarabağ amalı, müzəffərlik qüruru və dövlətçilik təminatı

**(əvvəli 1-ci səhifədə)**

İlham Əliyev Azərbaycanın beynəlxalq siyasətinin Qarabağ hədəfinə immunitet qazandırmaqla, 2020-ci ilin sentyabrı üçün münbit zəmin formalaşdırdı. Bu zəmin Qarabağ Zəfərini beynəlxalq müstəviyə güclü və qüdrətli Azərbaycanın səsi kimi daşıdı. Dünya səsimizdən, obrazlı desək, lərzəyə düşdü. Bu səs ədalətsizliyə qarşı mübarizə səsimizə çevrilməklə uğurlarımızı gözü götürməyənlərə gözdağına çevrildi.

## Sosial rifah

Prezident İlham Əliyev fəaliyyətində "Təminatlı vətəndaş güclü insan" modelinə üstünlük verdi. Bu model bütün pafosları kənar tutur, real işə əsaslanırdı və əsaslanmaqdadır. Aydındır ki, insan sosial cəhətdən özünü təmin etməyib sıxıntıda olanda, onun müqəddəs amallar naminə köklənişində problemlər yaranır. Deməli, cənab İlham Əliyev Qarabağ davasını təminatlı vətəndaşın davasına çevirməli idi və bunu bacardı. Uğurun formulu da bundan ibarət idi. Bu, eyni zamanda, müqəddəs amalın gerçəkləşməsi naminə daxili risklərin aradan qaldırılması idi.

## Milli mənlik şüuru – barışmaz mövqe

Hesab edirik ki, bu xətti ayrıca vurğulamağa ehtiyac var və şübhəsiz, yenə varislik ənənəsinin üzərində dayanacağıq. Nəzərə alaq ki, ulu öndər Heydər Əliyev respublikamızda birinci rəhbərliyə başlayarkən də ermənilərin Qarabağı özününküləşdirmək istiqamətli hərəkət və davranışlarına, təxribatlarına münasibətdə barışmaz mövqe ortaya qoymuşdu. Bu zaman dahi şəxsiyyətin fəaliyyət qayəsi üçün milli mənlik şüurunun inkişafı paradiqması aktual idi.

Mənlik şüuru isə cəmiyyətin bütün sferalarına təsirini göstərmişdi. Ona görə də erməni millətçilərinin Ulu öndərin keçmiş SSRİ-dəki hakimiyyət olimpindən uzaqlaşdırılmasından sonra başladıqları Qarabağ avantürası insanlarımızın müqaviməti ilə üzləşdi. Əlbəttə, dahi şəxsiyyətin siyasi proseslərdən kənar düşməsi müqaviməti kortəbii etdi. Bu səbəbdən nəinki Qarabağı itirdik, eyni zamanda, sanki müqavimətimizə cəza olaraq daha yeddi rayonumuz işğala məruz qaldı. İlham Əliyev varisliyinin milli mənlik şüuruna qazandırdığı obraza isə Qarabağı bütün işğal olunmuş torpaqlarımızın rəmzinə çevirmək motivi hakim kəsilmişdi.

## Dövlətçilik və Qarabağ

Məlumdur ki, Ermənistan adlanan dövlətin mahiyyətində işğal və qəsbkarlıq dayanır. Bir toplumun ki, Müstəqillik bəyannaməsində qonşulara qarşı ərazi iddiası yer alır, deməli, təcavüz onun üçün həyat normasıdır. Əlahəzrət tarixin müxtəlif mərhələlərində yaşananlar da deyimin təsdiqidir.

Erməni avantürizmi "dənizdən dənizə böyük Ermənistan" xülyasına əsaslanmış reallıqdır, xəstəlikdir. Elə bir xəstəlik ki, bütün mütərəqqiliklərə meydan oxumaq potensialına malikdir. Özgə torpaqlarına sahiblənməyə köklənmiş erməni avantürizmi üçün əldə edilmişlərlə kifayətlənmək deyilən bir şey yoxdur. 44 günlük müharibəni doğuran səbəblər də deyimin təsdiqidir.

Bəli, bilavasitə Qərbin timsalında özünə yeni hami tapmış Ermənistanın savaşdan əvvəl daha böyük işğallar naminə həvəsləndiyi göz önündə idi. Belə bir durumda erməni avantürizminə qarşı mübarizə dövlətçiliyimizin gələcək mövcudiyyəti kimi çıxış etməyə bilməzdi. Prezident İlham Əliyev dövlət başçısı kimi fəaliyyəti müddətində bunu nəzərə aldı. Nəzərə aldı ki, "dənizdən dənizə böyük Ermənistan" xülyası erməni toplumunu yenidən hərəkətə gətirəcək. 44 günlük müharibə sözügedən xülyanı puça çıxardı, erməni avantürizminə sarsıdıcı zərbə vurdu.

## Müzəfərlik qüruru

Əvvəldə də vurğuladıq ki, cənab İlham Əliyevin hakimiyyətinin ötən 21 ilini tərənnüm etdirəcək faktlar yetərincədir. Biz ümumiləşdirmə apararaq, dövlət başçısının fəaliyyətinin Qarabağ amalı üzərində dayandıq. O amalın üzərində ki, Azərbaycana suverenlik və ərazi bütövlüyü xoşbəxtliyini yaşatdı. Bu amal uğrunda mübarizə xalqımızın qürur və fəxarət salnaməsidir. Tam qətiyyətlə deyə bilərik ki, Prezident İlham Əliyev bu salnamənin müzəffər sərkərdəsi kimi bizə bu sevinci yaşadıb.

*XQ-nin analitik qrupu*



# Ermənipərəstlikdə “Holland sindromu” effekti

## *Niderland parlamentinin aşağı palatasının qərəzli yanaşmasına sözardı*

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Milli Məclisinin açıqladığı münasibətdə bildirildiyi kimi, Niderland Krallığı Parlamentinin Nümayəndələr Palatasının 2024-cü il oktyabrın 10-da qəbul etdiyi iki qətnamə ölkəmizi əsassız olaraq hədəf alan və Cənubi Qafqaz regionunda real vəziyyəti təhrif edən qərəzli siyasi aktlardır: “Yalan və saxta məlumatlar üzərində qurulan bu qətnamələr heç də sülhə, sabitliyə və konstruktiv dialoqa kömək göstərmir, əksinə, yaxın tarixə və bu günümüzə aid faktları, beynəlxalq hüquq normalarını və prinsiplərini, regionda qalmaqda olan çağırışları gözardı edən qeyri-obyektiv və birtərəfli yanaşmanı ortaya qoyur”.

Bəli, tam aydındır ki, COP29-a hesablanmış anti-Azərbaycan gedişlər Ermənistanın sülhdən yayınmasının, dövlət miqyasında revanşist mövqe tutmasının nəticəsidir. Ona dəstək verən xarici qüvvələr var ki, həmin qüvvələrin Niderlandda da lövbər saldıqlarını söyləmək mümkündür. Nəzərə alaq ki, bu ölkənin parlament palatası bütövlükdə ermənipərəst ritorikanın zay təbliğat formaları üzərində dayanır. O formaların ki, onları son zamanlar rəsmi İrəvanın təmsilçiləri də qabardırlar. Daha dəqiq desək, həmin məqamları Azərbaycana sülh məsələsində təzyiq predmeti kimi götürürlər. Söhbət “erməni hərbi əsirlər”lə bağlı məsələdən gedir. Milli Məclisin açıqlamasında bildirilir: “Azərbaycan ərazisində ağır cinayətlər törətməkdə, o cümlədən terrorizm, separatizm, qəsdən adam öldürmə əməllərində və beynəlxalq humanitar hüququn digər ağır pozuntularında təqsirləndirilən şəxslərin “erməni hərbi əsirləri” kimi qələmə verilərək azadlığa buraxılmasının tələb edilməsi qanunun aliliyi prinsipinə açıq hörmətsizlikdən başqa bir şey deyildir və terrorizmin kökünün kəsilməsi, sülh və insanlıq əleyhinə cinayətlər törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi səylərini sarsıdır”.

Erməni mədəni irsinin, guya, talan edilməsi barədə saxta ittihamların irəli sürülməsi də ənənəvi erməniprəst ritorikadan, həyasızlıqdan qaynaqlanır. Çox təəssüf ki, belə həyasızlığa züy tutanlar beynəlxalq hüquq anlayışını heçə sayacaq qədər zombiləşiblər. Əminliklə deyə bilərik ki, Niderland Parlamenti də əsl zombilər yığınıdır. Onlar üçün bəşəri dəyər və prinsiplər heç nədir. Ona görə də otuz il müddətində işğalçı Ermənistanın dinc azərbaycanlılara qarşı törətdiyi vandalizm aktlarını görməzdən gəlib. Bu səbəbdən Azərbaycan Milli Məclisi açıqlamasında Niderland Parlamentinin Nümayəndələr Palatasının qətnamələrini xalqımızın mədəni, dini və tarixi sərvətlərinin dağıdılmasına və mənimsənilməsinə göz yumulması və bunların ört-basdır edilməsi kampaniyasının tərkib hissəsi və davamı sayıb və diqqətə çatdırıb: “Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalı dövründə Azərbaycan mədəni irsinin sistemli şəkildə məhv edilməsinə səssiz qalan Niderland Parlamentinin Nümayəndələr Palatasının Azərbaycana qarşı həyata keçirdiyi növbəti ədalətsiz siyasi aksiya dərin təəssüf doğurur”.



Əlbəttə, təəssüf sözü çox yumşaq ifadədir. Həm də ona görə ki, Niderlandın xarici işlər naziri Kaspar Veldkamp haqqında bəhs etdiyimiz qətnamələri rəğbətlə qarşılayıb. Deməli, ölkənin parlamenti kimi, Niderland dövlətinin özü də aşkar erməniprəst yol tutur ki, əslində, bu, o qədər təəccüblü deyil. Çünki əvvəllər də rəsmi Amsterdamın belə davranışları olub: “Azərbaycan Respublikasının Milli Məclisi bunu da bildirməyi zəruri sayır ki, sözügedən qərəzli qətnamələrin Niderlandın xarici işlər naziri Kaspar Veldkamp tərəfindən rəğbətlə qaşılanması və müdafiə edilməsi Niderland hökumətinin Cənubi Qafqaz dövlətləri barəsində siyasətində ikili standarta əsaslandığını nümayiş etdirir, doğma yurdları işğal edilmiş, etnik təmizləməyə, insanlıq əleyhinə cinayətlərə, o cümlədən soyqırımı aktlarına məruz qoyulmuş azərbaycanlıların əzablarını etiraf etmək əvəzinə, Ermənistan Respublikasının Azərbaycana qarşı ərazi iddialarına etinasızlıq göstərilməsindən və bu iddiaların üstüörtlü şəkildə dəstəklənməsindən ibarət olan dövlət siyasəti yeritdiyini bir daha aşkara çıxarır”.

Heç şübhəsiz, yalnız insani dəyərlərdən uzaq dəst-xətt seçmiş bir ölkə və onun ali qanunverici orqanı eyni yanaşmasını Azərbaycan üzərinə gətirməkdə israrlı ola bilər. Axı Niderlandın tarixi elə müstəmləkəçilik tarixinin özüdür. Əslində, bu məmləkətin də keçmişi Fransa kimi, bəşəriyyət üçün utanc səhnələri ilə “zəngindir”. Bu baxımdan Azərbaycan Milli Məclisinin açıqlamasındakı “Niderland həmişə mənfəəti insan hüquqlarından üstün tutmuşdur. Niderlandın inkişafında müstəmləkə əsarətində olan ölkələrin milli sərvətlərinin talan edilməsinin böyük payı olmuşdur” kimi ifadələri reallıqdan xəbər verir.

Asiya, Afrika və Amerikanın çoxsaylı xalqlarının əsarət altına alınması və istismarı, onlara qarşı törədilən cinayət faktları ilə ad çıxarmış Niderland həmişə mənfəəti insan hüquqlarından üstün tutub. Ona görə: “Bu gün də dünyanın müxtəlif xalqlarını asılı vəziyyətdə saxlayan Niderlandın öz müstəmləkəçilik tarixinin ağır nəticələrinin aradan qaldırılmasına səy göstərdiyini bəyan etməsi riyakarlıq kimi qiymətləndirilməlidir”.

Bəli, əvvəldə də vurğuladığımız kimi, Niderlandın, ümumilikdə ABŞ və Fransa başda olmaqla, kollektiv Qərbin bəzi dairələrinin, müxtəlif şəxslərin nümayiş etdirdirdikləri erməniprəst yanaşma Cənubi Qafqazda sülh və sabitliyin yaradılması səylərinə maneçilik törədir. Bu, mövqe erməni avantürizmini körükləyir, Ermənistanın illüziya bataqlığındakı yerini daha da möhkəmləndirir. Belə bir səbəbdən Azərbaycan Milli Məclisi çağırış səsləndirir: “Biz Niderland Krallığı da daxil olmaqla, bütün dövlətlərlə konstruktiv dialoqu və əməkdaşlığı dəstəkləyirik, lakin bu cür dialoq və əməkdaşlıq qarşılıqlı hörmətə və faktların vicdanlı etirafına əsaslanmalıdır”.

Məlumdur ki, Niderlandın başqa bir adı da Hollandiyadır. O da məlumdur ki, “Holland sindromu” deyilən bir ifadə var və bu termin iqtisadiyyatda xüsusi bir sektorda baş verən artım ilə digər sektorlarda baş verən azalma arasındakı əlaqəni göstərmək üçün istifadə edilir. Müasir iqtisadi elmdə “Holland sindromu” dedikdə xammal ixracının artması ilə ölkə iqtisadiyyatının səmərəliliyinin azalması nəzərdə tutulur. Belə görünür, erməni təəssübü Niderlanda o qədər böyük təsir göstərir ki, ölkənin ədalətli yanaşma tərzində nəinki azalma, ümumən iflas yaşanır. Ən acınacaqlısı isə budur ki, oxşar iflas məntiqi, bütövlükdə, Qərb aləmi üçün xarakterikdir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Monteneqro Qərbi niyə hiddətləndirib?

**Avropa İttifaqı üzvlüyünə namizəd olan Monteneqro “Xarici agentlər haqqında” qanun layihəsini qəbul etməyi planlaşdırır. ABŞ artıq qanunun mümkün qəbulu ilə bağlı narahatlığını bildirib və regional ekspertlər proqnoz verirlər ki, qanun layihəsi qəbul edilərsə, NATO üzvü olan Monteneqronun Aİ-ə daxil olmasının qarşısı alınacaq.**

Ötən həftə Monteneqroda parlamentin “Xarici agentlər haqqında” qanun layihəsini qəbul etmək planı barədə məlumatın açıqlanması Balkan yarımadasında bomba effekti yaradıb. Qanun layihəsi parlamentin spikeri, “Demokratik Cəbhə”nin liderlərindən biri, respublikada hakim koalisiyada əsas fiqur olan Andrija Mandiç tərəfindən irəli sürülüb. Onun sözlərinə görə, qanun layihəsinin qəbul edilməsi “QHT adı altında daxili və xarici siyasətə təsir göstərməyə çalışan xarici agentlərin fəaliyyətini” nizamlamaq məqsədini daşıyır: “Biz, hakimiyyət olaraq, Monteneqro siyasətini xarici müştərilərin maraqlarına uyğun yalan kampaniyalar həyata keçirən agentlərin çirkli fəaliyyətindən ayırmağa çalışmalıyıq”.

Andrija Mandiçin bu təşəbbüsü QHT icması və müxalifət tərəfindən sərt tənqid olundu və onlar xarici agentlər haqqında qanun layihəsini “demokratiya üçün ciddi təhlükə və Monteneqronun Avropaya inteqrasiyası üçün təhdid” adlandırdılar. Hətta hakim koalisiyanın bəzi üzvləri spikerin planından məmnun olmadıqlarını bildirdilər, Avropa işləri naziri Maida Qorceviç isə vurğuladı ki, hökumət qanunu dəstəkləməyəcək.

Bununla belə, bir çox Monteneqro ekspertləri əmindirlər ki, “Demokratik Cəbhə”nin liderləri elan edilmiş qanun layihəsini parlamentdən keçirəcəklər. Monteneqro Monitorinq və Tədqiqat Mərkəzinin rəhbəri Zlatko Vujoviç düşünür ki, Monteneqroda bu prosesə artıq start verilib. Monteneqronun “M Portal” nəşrinin rəhbəri Danica Nikoliç isə deyir ki, əvvəllər də hakimiyyətdə olan “Demokratik Cəbhə”nin tərəfdaşları partiyanın bəzi təşəbbüslərinə qarşı çıxıblar, lakin sonradan fikirlərini dəyişiblər.

Ekspertlərin proqnozlarını o da təsdiqləyir ki, Andrija Mandiç hazırda respublikada hakim koalisiyada əsas fiqur hesab olunur. Buna görə də, spikerin təşəbbüsü iqtidar tərəfindən dəstəklənməzsə, o zaman hazırkı hökumət ən güclü tərəfdaşını itirəcək. Bu da hökumətin istefası ilə nəticələnəcək. Koalisiya tərəfdaşlarının mənfi reaksiyasına təəccüblənən spiker bildirib ki, yeni qanunun hazırlamasında nümunə kimi Amerika Xarici Agentliklərin Qeydiyyatı Aktı (FARA) götürüləcək. “Demokratik Cəbhə”dən verilən digər açıqlamada isə vurğulanıb ki, Qərb dünyasının əsas demokratik nailiyyətlərindən nümunə götürərək, Monteneqro cəmiyyətində şəffaflığın artırılmasına etiraz edilməsi aydın deyil.



Bununla belə, Birləşmiş Ştatlar artıq “təklif edilən qanunvericiliyin demokratiya, insan hüquqları və əsas azadlıqlar üçün mümkün nəticələri ilə bağlı dərin narahatlığını” ifadə edib. “NATO üzrə müttəfiqimiz və Avropa İttifaqına namizəd olan Monteneqroda belə bir qanun vətəndaş azadlıqlarının əhatə dairəsini məhdudlaşdıracaq”, – ABŞ Dövlət Departamenti xəbərdarlıq edib.

Mütəxəssislər daha qəti fikirlər səsləndirirlər. Məsələn, Zlatko Vujoviçin sözlərinə görə, Monteneqroda Aİ ilə danışıqların bloklanması ilə nəticələnən proses güc qazanır. Ekspert iddia edir ki, “Demokratik Cəbhə”nin təşəbbüsü ilə irəli sürülmüş qanunun əsas vəzifəsi “Monteneqronun Aİ-yə vaxtından əvvəl qoşulmasının qarşısını almaqdır”. Bu iddianın doğru olub-olmadığını Milojko Spajic hökumətinin qəbul edəcəyi qərarlar təsdiqləyəcək.

***S.ELAY***
***XQ***

*Günün açıqlaması*

# Qərbin “hüquq müdafiə təşkilatları”nın qərəzi

**Avropa və ABŞ-da “mənzillənən”, özünü beynəlxalq statuslu “hüquq müdafiəçisi” elan edən təşkilatların Azərbaycan əleyhinə çıxışları intensivləşib. “Human Rights Watch”, “Amnesty international”, “Freedon House” və digərləri ABŞ Dövlət Departamentindən, Avropa İttifaqı Şurasından verilən siyasi direktivlərə uyğun olaraq, hər gün bir bəyanat verir, Azərbaycanda təşkil ediləcək COP29 konfransını pozmağa çalışırlar.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Onlar zamana və şəraitə uyğun olaraq, kampaniya tezislərini dəyişirlər. COP29 ərəfəsində də “yeni ideyalar”la gündəmə gəliblər. Azərbaycanı indi də “siyasi məhbus” amilinə görə qınayırlar. Tezisləri budur ki, guya, Azərbaycanda “siyasi məhbusların” sayı çoxdur, “demokratik mühit yoxdur”, “belə ölkədə COP29-un keçirilməsi yolverilməzdir”.

Oktyabrın 4-də Avropa Şurasının Parlament Assambleyasının payız sessiyası çərçivəsində “Azərbaycanda insan haqları üzrə “dinləmələr keçirildi. Bu kontekstdə fəaliyyət, sərbəst toplaşmaq hüququnu pozduğuna görə” hədəfə gətirib, ictimai qınaq obyektinə çevirirlər. ABŞ-nin, Avropa İttifaqı Şurasının bu dövlətlərə qarşı sanksiyalar tətbiq etmələri üçün zəmin hazırlayırlar.

Digər bir nüans odur ki, bu təşkilatlar “siyasi məhbus” məfhumunu qondarma arqumentlərlə gündəmə gətirirlər. Hansısa əməlinə görə həbsə düşmüş şəxslərin ailələrinə müraciət edirlər, adlarını “siyasi məhbus” siyahısına yazdırmaq üçün təkliflər göndərirlər. Məqsədi anlayanlar onlara rədd cavabı verirlər. Anlamayanlar isə tora düşür, adlarını “siyasi məhbus” siyahısına yazdırıb, işi qəlizləşdirirlər. Məsələn, sabiq deputat Nazim Bəydəmirlinin özünün məhkəmə prosesində səsləndirdiyi bəyanat bu mövzuda yaxşı nümunədir. O, 2024-cü il aprelin 29-da Bakı Ağır Cinayətlər Məhkəməsində keçirilən proses zamanı açıq tekstlə dedi ki, “hansısa mərkəzlər” onun razılığı olmadan, adını “siyasi məhbus” siyahısına yazıblar. Bəydəmirli özünü siyasi məhbus hesab etmədiyini qeyd etdi. “Siyasi məhbus” siyahısı hazırlayan mərkəzlərə də mesaj göndərdi ki, maxinasiyanı dayandırsınlar: “Mən siyasi məhbus deyiləm, siyasi fəaliyyətimə görə həbs edilməmişəm. Adımdan istifadə olunmasını istəmirəm”.




“siyasi məhbus” problemi xüsusi qabardıldı. Oktyabrın 3-də isə 58 nəfər qanunverici ABŞ-nin Dövlət katibi Antoni Blinkenə məktub yazaraq, COP29 sammiti ərəfəsində Azərbaycana “insan hüquqları ilə bağlı” təzyiq göstərməyə çağırdılar. AŞPA və ABŞ Konqresində hazırlanan müraciətlərdə “Human Rights Watch”, “Amnesty international”, “Freedom House” kimi təşkilatların hesabatlarında yer tutmuş detallar görünür. “300 siyasi məhbus” mövzusu beynəlxalq platformalara məhz bu təşkilatlar vasitəsilə çıxarılıb. Nümunə üçün deyək ki, “Human Rights Watch” təşkilatı cəmi bir ay ərzində– sentyabrın 9-dan oktyabrın 9-na qədər olan müddətdə öz saytında Azərbaycanın adını 15 dəfə neqativ tonda çəkib. Sentyabrın 25-də isə Avropa Şurasına müraciət edərək, “Azərbaycanda insan haqları, siyasi məhbus məsələlərini müzakirəyə çıxarmağa” çağırıb.

Belə çıxır ki, AŞPA-da bu müraciəti gözləyirlərmiş. Sentyabrın 25-də HRW və digər 10 partnyor təşkilat müraciət ünvanlayıb, AŞPA da operativ şəkildə reaksiya verib, oktyabr 4-də məsələni müzakirəyə çıxarıb. Amma təcrübə göstərir ki, proses əksinə baş verib. Kampaniyanın sifarişi ABŞ Dövlət Departamenti və Avropa İttifaqı Şurasından gəlib. Onlar təzyiq göstərib Azərbaycanı öz maraqlarına tabe etdirmək üçün qondarma “hüquq müdafiə təşkilatları” adından müraciət hazırlayıb və ona istinadən hərəkətə keçiblər. Yəni, beynəlxalq ictimai rəyə “hüquq müdafiəçiləri” kimi sırınan bu təşkilatlardan siyasi məqsədlər üçün istifadə edirlər.

“Human Rights Watch”, “Amnesty international”, “Freedom House” kimi təşkilatlar ABŞ Dövlət Departamenti və Avropa İttifaqı Şurasından verilən siyasi tapşırıqları icra etdiklərini gizlətmək üçün fəaliyyətlərini “insan haqlarının müdafiəsi” kontekstində qələmə verirlər. Reallıqda isə ABŞ-nin siyasi ambisiyalarına boyun əyməyən dövlətləri “söz və ifadə azadlığını məhdudlaşdırdığına”, “siyasi

Beynəlxalq “hüquq müdafiə təşkilatları” indiki kampaniyanın təsirini artırmaq üçün qeyri-ənənəvi metodlara əl atıblar. Bu dəfə həm də Azərbaycanda siyasi separatizmi körükləməyə çalışıblar. Onlar hazırladıqları siyahıda bəzi şəxslərin adlarını etnik mənsubiyyətinə görə təsnifatlaşdırıblar. Şübhə yoxdur ki, bu tezis “erməni şəbəkəsindən” gəlir. Onlar insanların Azərbaycanda etnik mənsubiyyətinə görə təqib edildiyini gündəmə gətirməklə, Bakıda həbsdə saxlanılan “Qarabağ separatçıları” mövzusunu aktuallaşdırırlar. Zatən “erməni məsələsi” AŞPA və ABŞ Konqresi adından yayılan müraciətlərdə qırmızı xətt kimi keçir.

Məlumat üçün qeyd edək ki, “erməni şəbəkəsi” üzvlərinin beynəlxalq “hüquq müdafiə təşkilatları”nın sıralarına daxil olaraq, orada öz siyasətlərini yeritmələri barədə faktlar çoxdan yayılıb. Bu, təkcə Azərbaycanda deyil, bütün dünyada bilinən faktdır. Məsələn, 2020-ci il yanvarın 14-də "The Wall Street Journal" nəşrində yayımlanan məqalədə “Human Rights Watch" təşkilatının “erməni məsələsinə” yanaşmada yol verdiyi maxinasiyalardan da bəhs edilir. Məqalənin müəllifi, Qüdsdəki "Kohelet Policy Forum" mərkəzinin araşdırmaçısı Yevgeni Kontoroviç yazır ki, “Human Rights Watch" təşkilatının Yaxın Şərq və Şimali Afrika sektorunun direktoru Sara Li Uitson Azərbaycana məxsus olan Dağlıq Qarabağ torpaqlarında Ermənistan tərəfindən aparılan işğalçılıq və məskunlaşma prosesini qətiyyətlə dəstəkləyir”. Yevgeni Kontoroviç öz məqaləsində Uitsonun belə qanunsuz davranışlarını onun erməni mənşəli ailədə anadan olması, 2018-ci ildə Amerika Erməni Milli Komitəsi tərəfindən ələ alınması ilə izah edir.

“Human Rights Watch" qismində təşkilatların idarəçiliyində Saraya bənzər şəxslər az deyil. Bu baxımdan onların erməniprəst tezisləri canla-başla tirajlamalarının səbəbləri aydındır.

# Norveç iqlim dəyişikliyi ilə mübarizədən yayınır

**Fransa hakimiyyəti Azərbaycana qarşı xəbis niyyətlərindən əl çəkmir. Rəsmi Paris əlinin çatdığı, ününün yetdiyi hər yerdə ölkəmizə zərbə vurmağa çalışır. Noyabrın 11-dən 22-dək Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) Fransa üçün fürsətə çevrilib.**

Sirr deyil ki, Azərbaycanı sevməyən müəyyən dairələr COP29-un iflasa uğramasını istəyir və bu məqsədləri həyata keçirmək üçün ciddi şəkildə çalışırlar. Onlar COP29-da mühüm, tarixi qərarların qəbul edilməsini istəmirlər.

Bugünlərdə media orqanlarında prezident Emmanuel Makronun bəzi ölkələrə təzyiq göstərərək, onları Bakıda keçiriləcək beynəlxalq sammitdə iştirakdan imtina etməyə çağırdığına dair məlumat yayıldı. Qeyd edildi ki, xüsusilə, belə bir tələb Nigeriyaya göndərilib. Lakin Nigeriya Prezidenti Bola Tinubu Makronun hədələrinə məhəl qoymayaraq, tədbirə qatılacağını bildirib. Güman etmək olar ki, Makron təsir edə bildiyi digər ölkələrin rəhbərlərinə də oxşar məzmunda təkliflər çatdırıb.

Fransa paytaxtının meri Ann İdalqo da COP29-u gözdən salmağa çalışanların önündə gedənlərdəndir. Bu həmin İdalqodur ki, ötən ilin avqustunda "120 min Artsax sakini blokadadadır" deyərək dünyaya car çəkirdi. Hətta, Paris böyüklükdə şəhərin meri işini-gücünü ataraq Qarabağ ermənilərinə "yardıma yetişməyə" tələsmişdi. Onun başçılığı ilə Fransanın 20-yə yaxın regionu Qarabağa "humanitar yardım" aparan TIR-ları hazırlamış, karvan İrəvandan yola çıxmış, amma Azərbaycan tərəfi qətiyyət nümayiş etdirərək nə apardıqları bilinməyən karvanı şərti sərhəddə saxlamış, bu şounun baş tutmasına imkan verməmişdi.




Ann İdalqo başının dəstəsi ilə birgə Gorus rayonunun sərhədyanı Kornidzor hissəsində keçmiş Laçın dəhlizini müşahidə etmiş, iradəmizin sarsılmazlığını görərək kor-peşman geri qayıtmışdı. İndi isə xanım İdalqo sanki həmin günlərin heyfini almaq məqsədilə COP29-a qatılmayacağını bəyan edib. Səbəb kimi 2023-cü ilin sentyabrında baş verən lokal xarakterli antiterror tədbirlərini göstərib. Paris meri, onun təbirincə desək, "etnik təmizləməyə etiraz əlaməti olaraq" iqlim konfransında iştirak etməyəcək.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, məhz A.İdalqo kimilərinin üzündən Qarabağ erməniləri bölgəni tərk etməli oldular. Onlar bu yolla ölkəmizə qarşı sanksiyalar qəbul etdirmək, sonra isə ermənilərin beynəlxalq mandat altında Qarabağa qaytarılmasını təşkil etmək istəyirdilər. Amma, necə deyərlər, sən saydığını say, görək fələk nə sayır. Azərbaycan özünün ərazi bütövlüyünü, suverenliyini öz gücü hesabına bərpa etdi. Bizə qarşı sanksiya tətbiqini tələb edənlərin çağırışları isə havadan asılı qaldı.

Buna baxmayaraq, Norveçin baş naziri Yonas Qar Störenin COP29-da iştirakdan imtina etməsinə dair məlumatı anti-Azərbaycançı cəbhənin səylərinin nəticəsi saymaq olar. Rəsmi Oslonun bu qərarı həmin qüvvələrin təsiri altında verdiyi şübhə doğurmur. Çünki Avropa Siyasi Birliyinin 2024-cü il iyulun 18-də Böyük Britaniyanın paytaxtı London yaxınlığında – Oksforddakı "Blenheym" sarayında keçirilən IV Sammiti zamanı jurnalistlərlə söhbətində Norveçin baş naziri Yonas Qar Störe COP29-un Azərbaycanda keçirilməsini "ekoloji gündəliyin çox mühüm davamı" kimi təqdim etmişdi. "Biz hamımız texnologiya və enerji resursları üzrə həyata keçirdiyimiz fəaliyyətdə öhdəliklərimizə sadiq olmalı və bunun yekunlarını təqdim etməliyik. Norveç bu işdə çox fəal iştirak edəcək", – deyə baş nazir bildirmişdi.

Bir müddət öncə ciddi media resursu olan "Businessnorway.com" saytı "Norveç biznes nümayəndə heyəti BMT-nin iqlim dəyişikliyi konfransı COP29-da" sərlövhəli məlumat yaymışdı. Məlumatda "Innovation Norway" şirkətinin COP29-a qatılacaq işgüzar nümayəndə heyətini formalaşdırdığı elan edilmişdi. Daha sonra bildirilmişdi ki, maraqlı şəxslər və strukturlar Norveç biznes nümayəndə heyətinin sırasına qoşulmaq istəyirlərsə, tələblərlə tanış ola bilərlər. Üstəlik, seçim ciddi səviyyədə olmalı, işgüzar nümayəndə heyətinin tərkibinə daxil ediləcək namizədlərin elan edilən istiqamətdə konkret fəaliyyət prizmasından iştirakını əsaslandırması məcburi idi.

Cəmi bir həftə əvvəl – oktyabrın 9-da isə həmin saytda Cənubi Afrika Respublikası və Norveç hökumət üzvləri arasında COP29-dan əvvəl və konfrans ərzində qeyri-rəsmi məsləhətləşmələr çərçivəsində iqlim dəyişikliyinin təsirlərinin yumşaldılmasına dair danışıqların aparılması haqqında məlumat var idi. Qeyd edilirdi ki, Cənubi Afrikanın meşə, balıqçılıq və ətraf mühit naziri Dion Corc və Norveçin iqlim və ətraf mühit naziri Tore Onsxus Sandvik xüsusi aspektlər üzrə qeyri-rəsmi məsləhətləşmələr aparmaq üçün tərəflər və bütün danışıqlar qrupları ilə məşğul olacaqlar.

Bu mənada Norveç hökumətinin mövqeyini necə deyərlər, 180 dərəcə dəyişərək belə bir qərar verməsi Fransanın təsirinin nəticəsi kimi qiymətləndirilə bilər. Görünür, bir sıra ölkələri Bakıda keçiriləcək COP29 sammitində iştirakdan çəkindirməyə çalışan Makronun toruna, deyəsən, Norveç də düşüb. Oslonun bu demarşı isə iqlim dəyişikliyi ilə bağlı mübarizədə onun yaxasını kənara çəkməsi anlamına gəlir.

Digər tərəfdən Qərbi Avropa ölkələri arasında Norveç ən böyük təbii qaz və neft ehtiyatlarına malikdir. Ekspertlərin bildirdikləri kimi, neft-qaz sənayesinin ölkənin ümimi daxili məhsulunda payı 20 faizdən çox, ixracda isə təxminən 50 faizə bərabərdir. Ona görə də Norveçin bugünkü və sabahkı rifahı enerji resurslarının mövcudluğuna əsaslanır. Yeri gəlmişkən, bir neçə il əvvəl Norveç Barents dənizində qazma işləri üçün 125 yeni sahənin açılmasını təklif etmişdi. Bakıya gəlməkdən imtina edən həmin baş nazir Störe 2023-cü ildə Oslonun "yaşıl iqtisadiyyat" və mineral ehtiyatların inkişafı arasındakı tarazlığa uyğunluğundan bəhs edərkən, ekoloqların etirazlarından asılı olmayaraq, Norveç sularında "qara qızıl" çıxarılmasını inamla davam etdirəcəyini faktiki olaraq etiraf etmişdi.

Oslo, həmçinin ətraf mühit şirkətlərinin etirazlarına məhəl qoymayaraq, enerji şirkətlərini Arktikada neft və qaz kəşfiyyatını gücləndirməyə çağırmışdı. Lakin Norveçin Arktika yaxınlığında yerləşdiyini nəzərə alsaq, məhz bu ölkə heç bir halda ətraf mühitin təmizliyi uğrunda mübarizədən kənarda qalmamalıdır. Krallıq dəniz səviyyəsinin qalxmasına səbəb olan buzlaqların əriməsi, Arktika sularının neft tərkibli məhsullarla çirklənməsi və s. kimi problemlərin həlli kontekstində səylər göstərilməlidir. Biz isə bu gün bunun əksini müşahidə etməkdəyik.

**Qərbi Kaspi Universitetinin professoru, politoloq–diplomat Fikrət Sadıxov** XQ-yə açıqlamasında bildirdi ki, Azərbay-



can, əslində, bir sıra ölkələrin, yəni Fransanın, Niderlandın, Norveçin ideoloji təxribatlarına bir zərbə vurdu. Onun sözlərinə görə, zərbə də Bakıya 80 min nəfər konfrans iştirakçısının gəlişinin gözlənilməsidir. Onların sırasında 50-yə yaxın dövlət və hökumət başçısı, nazirlər, tanınmış ekspertlər var. Bu, onları təbii ki, qıcıqlandırır: "Yəni, onlar bizə qarşı uzunmüddətli fəaliyyət göstərərək, konfransı faktiki olaraq, şübhə altına almaq istəyirdilər. Qarşıya qoyulan əsas məqsədlərdən biri digər dövlətlərin tədbirdə iştirak etməməsi idi. Bu məqsəd puça çıxdı. Deməli, nə etmək lazımdır?! Bura gəlməmək, konfransda iştirak etməmək, bizi ittiham etmək lazımdır. Əslində, onları ən çox narahat edən Azərbaycanın lokal xarakterli antiterror tədbirlərindən sonra daha da güclənməsidir. Hesab edirlər ki, Cənubi Qafqazda belə bir gücün olması onların maraqlarına ziddir".

F.Sadıxovun sözlərinə görə, bəzi Qərb dövlətlərinin bizi tamamilə əsassız məsələlərdə ittiham etdiklərini də görürük. Guya, biz separatçı başçılarla qeyri-insani şəkildə rəftar edirik. Halbuki, bunu heç kim etmir. Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycan nümayəndəliyinin əməkdaşları vaxtaşırı onlara baş çəkirlər. Ailələri ilə telefon əlaqəsi saxlamalarına imkan yaradılır: "Onların əksəriyyəti heç hərbçi deyil, mülki şəxslərdir və bu səbəbdən "hərbi əsir" adlandırıla da bilməzlər. Onlar bir sıra cinayətlərdə ittiham olunan keçmiş rejimin rəhbərləridir. Azərbaycan ərazisində separatçı rejim yaratmaqda, terrorçuluğun maliyyələşdirilməsi və sair əməllərdə ittiham edilirlər. Onlar Azərbaycan vətəndaşlarına qarşı bir sıra cinayətlərə imza atıblar. Əsirlikdə saxlanılan soydaşlarımıza işgəncələr veriblər, mülki insanları qətlə yetiriblər, Gəncəni, Bərdəni, Tərtəri bombalayıblar. Bu əməllərə görə kim cavab verməlidir? Təbii ki, bu əməllərin törədilməsinə göstəriş verən şəxslər!"

Müsahibimiz qeyd etdi ki, əslində, hansısa qərəzli ölkənin konfransa qatılıb-qatılmaması heç nəyi dəyişməyəcək. COP29 bütün hallarda keçiriləcək. Onun işində kifayət qədər insan – dövlət xadimləri, ekspertlər iştirak edəcəklər. Onların bu qərəzli mövqeyi bizim gücümüzü azaltmayacaq, ölkəmizin yüksək nüfuzuna heç bir zərbə vurmayacaq.

**Politoloq Ramiyə Məmmədova** isə bildirdi ki, Azərbaycanın nüfuzunun art-



ması Qərb dövlətləri, ümumiyyətlə, dünya gücləri tərəfindən birmənalı qarşılanmır. Dövlət müstəqilliyini cəmi 33 il əvvəl bərpa etmiş ölkənin belə bir səviyyəyə gəlib çıxması onlarda çaşqınlıq və həsəd yaradır. Onlar görürlər ki, Azərbaycan heç bir Qərb ölkəsinin dəstəyi olmadan yüksək nəticələr əldə edib: "Özlərinə sual verirlər ki, bu necə ola bilər?! Digər tərəfdən Azərbaycan müstəqil siyasət yürüdür və dünyada gedən proseslərdə fəal rol oynayır. Qərb dövlətlərinin dəstəyi olmadan buna nail olmaq hər ölkənin işi deyil. Azərbaycan COP29-un keçirilməsində də müstəqil siyasət yürüdür. Özünün gündəliyini təqdim edib".

R.Məmmədova qeyd etdi ki, Fransanın prezident Makronun simasında Azərbaycana qarşı düşmənçilik siyasəti özünü hər addımda göstərir: "Makron COP29-da iştirak etməməklə bağlı çağırış etsə də, Afrika ölkələrindən heç biri onun səsinə səs vermədi. Çünki Parisin siyasətinin gerçək mahiyyətini anlayırlar. Onların müstəqil mövqeyi var və Bakıya gəlməklə bağlı qərar veriblər".

Oslonun atdığı addıma gəldikdə isə R.Məmmədova qeyd etdi ki, Norveç neft-qaz ölkəsi olaraq təbiətə daha çox karbon emissiyaları atır. Bu baxımdan Norveç iqlim dəyişikliyi ilə mübarizədə "pioner" dövlətlərdən biri olmalıdır. Planetin çirkləndirilməsində Norveçin rolu böyükdür: "Məlumdur ki, Norveç dünyanın ən böyük neft və qaz hasil edən ölkələrindən biridir. Enerji ixracı bu şimal ölkəsinin iqtisadiyyatının mühüm elementidir. Norveç özünü ətraf mühitin əsas müdafiəçilərindən biri kimi göstərir, lakin onun imicinə zidd addım atır. Norveç baş nazirinin COP29-da iştirakdan imtina etməsi, ilk növbədə, Skandinaviya ölkəsinin özünün imicinə xələl gətirəcək. Əgər rəsmi Oslo bu addımın Azərbaycanın beynəlxalq imicinə xələl gətirəcəyinə inanırsa, deməli, dərindən yanılır. Azərbaycan neft-qaz ölkəsi olmasına baxmayaraq, ekoloji problemlərin həllinə, ətraf mühitin mühafizəsinə xüsusi diqqət yetirir".

*Səxavət HƏMİD*
*XQ*

**Zəfər marafonunun 18 və 19-cu günləri**

# Vətən müharibəsinin xronikası: 14–15 oktyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**



## 4k tþ r

• Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərini işğaldan azad edib. Prezident İlham Əliyev bununla bağlı rəsmi tvitter səhifəsində paylaşım edib.

• Prezident İlham Əliyev Fransanın "France 24" televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı jurnalistin – "Humanitar atəşkəs kimi nəzərdə tutulan atəşkəs barədə razılıq imzalandıqdan bəri zorakılıq və müharibə davam edib. Bu gün Sizdən soruşuram, bu atəşkəs rəsmən artıq etibarsız, bitmiş və ləğv edilmiş hesab olunur?" – sualına cavabında bildirib: "Bu, Ermənistanın davranışından asılıdır, çünki biz həmişə öhdəliyimizə sadiq qalırıq. Bildiyiniz kimi, humanitar zəmində atəşkəsin elan olunması qərarı Rusiyadan gəlmişdir və biz bunu dəstəklədik. Çünki düşünürəm ki, ölmüş əsgərlərin cəsədlərini və girovları mübadilə etmək, fəaliyyəti danışıqlar masasında davam etdirmək üçün bu, doğru qərar idi. Çünki Moskvada elan olunmuş bəyannamədə faktiki olaraq danışıqların əsas prinsiplər çərçivəsində aparılacağı təmin edilmişdir".

Prezident İlham Əliyev sözlərinə əlavə edərək vurğulayıb ki, hər zaman Azərbaycanın mövqeyi olub. Ermənistan tərəfi isə həmişə prosesi pozmağa və danışıqlar masasına yeni yanaşmaları tətbiq etməyə çalışıb. İşğalçının mövqeyi Azərbaycan və Minsk qrupunun həmsədrləri tərəfindən rədd edilib.



Dövlətimizin başçısı daha sonra deyib: "Biz atəşkəs rejiminə əməl edirdik. Lakin bildiyiniz kimi, Ermənistan atəşkəsi kobud şəkildə pozdu və bu, təkcə Gəncədə baş verməyib. Gəncədə mülki vətəndaşlara hücum onların təcavüzkar siyasətini əks etdirir. Həmçinin onlar atəşkəsi hər gün pozurlar. Bu gün mənə məlumat verilmişdir ki, bu səhər saat 7-dən 9-a qədər onlar Tərtər və Ağdam şəhərlərini 150 dəfədən çox artilleriya atəşinə tutublar. Əfsuslar olsun ki, bu gün Tərtərdə mülki şəxslər arasında bir nəfər həlak olub".

• Azərbaycan Ordusu gecə və səhər saatlarında Ermənistan silahlı qüvvələrinin ümumilikdə 3 ədəd "Elbrus" raket qurğusunu raketlərlə birlikdə məhv edib.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin bölmələrimiz tərəfindən məhv edilən əməliyyat-taktiki raket komplekslərinin mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutmaq məqsədilə start mövqeyinə çıxarılmasının videogörüntülərini paylaşıb.

• Cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən vurulub.

• Müdafiə Nazirliyi işğaldan azad olunan Cəbrayıl şəhərinin videogörüntüsünü paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 14-ü saat 12:00-dək 43 mülki şəxs həlak olub, 214 nəfər isə xəsarət alıb, 1505 ev, 66 çoxmənzilli yaşayış binası və 277 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

## 5k tþ r

• Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Arış, Cəbrayıl rayonunun Doşulu, Xocavənd rayonunun Edişə, Düdükçü, Edilli, Çiraquz kəndlərini işğaldan azad edib. Prezident İlham Əliyev bununla bağlı rəsmi tviter səhifəsində paylaşım edib.

• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin NTV televiziyasına və Rusiyanın "Ria Novosti" agentliyi üçün "Rossiya Seqodnya Beynəlxalq İnformasiya Agentliyi" media qrupunun baş direktoru Dmitri Kiselyova müsahibə verib.

Azərbaycan lideri Türkiyənin NTV televiziyasına televiziyasına müsahibəsində qardaş ölkə barədə bəhs edərək deyib: "Biz bir daha gördük ki, atamın məşhur kəlamı "Bir millət, iki dövlət", sadəcə olaraq, kəlam deyil, bu, gerçəkdir. Bu reallığı biz yaratdıq... Mən bütün qardaşlarıma, Türkiyədə yaşayan bütün insanlara Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Biz gördük ki, biz tək deyilik. Qardaşım Tayyib bəyin dediyi kimi, Azərbaycan hər zaman bilməlidir və bilir ki, Türkiyə onun yanındadır və bu, bizə güc verir".

• Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" hesabında düşmən ordusunun Tərtər qəbiristanlığını dəfn mərasimi zamanı qəsdən atəşə tutması ilə bağlı paylaşım edərək dünya ictimaiyyətini Ermənistanın müharibə cinayətlərini qınamağa çağırıb, həlak olanların ailələrinə və doğmalarına başsağlığı verib.

• Müdafiə Nazirliyinin məlumatına görə, Azərbaycan Ordusu cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsini, 2 ədəd T-72 tankını, 1 ədəd "Tor-M2KM" zenit raket kompleksini, 4 ədəd BM-21 "Qrad" YARS qurğusunu, 1 ədəd D-20, 1 ədəd D-30 və 2 ədəd "D-1" haubitsa topunu, bir neçə PUA-sını və avtomobil texnikasını məhv edib. Ermənistan silahlı qüvvələrinin müvəqqəti işğal etdiyi ərazilərdəki qüvvə və ehtiyatlarına ağır zərbə vurulub.

• Ermənistan silahlı qüvvələri Tərtər şəhər qəbiristanlığını dəfn mərasimi zamanı qəsdən ağır artilleriyadan intensiv atəşə tutub. Bu xain hücum zamanı 3 nəfər həlak olub, beş nəfər xəsarət alıb. Beləliklə, düşmənin mülki əhalini atəşə tutması nəticəsində həlak olanların sayı 46-ya, xəsarət alanların sayı 223-ə çatıb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

Ermənistanın silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyalarının əsas norma və prinsiplərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini törətməkdə davam edir. Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

*XQ*

# BRICS ölkələri ilə ticarət genişlənir

## *Bu göstərici keçən il 9,8 milyard manata çatıb*

**Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsinin məlumatları əsasında apardığı araşdırmaya əsasən, 2020-ci ildən 2023-cü ilədək Azərbaycanın BRICS ölkələri ilə xarici ticarət dövriyyəsi sürətlə çoxalıb. Azalma yalnız COVID-19 pandemiyası ilə əlaqədar 2020-ci ildə qeydə alınıb.**




BRICS ölkələri ilə xarici ticarət dövriyyəsi keçən il 9,78 milyard dollar, yəni 2022-ci illə müqayisədə 13,5 faiz və ya 1,16 milyard dollar çox olub. Cari ilin birinci yarısında isə həmin göstərici 4,96 milyard dollara yüksəlib. Bu rəqəmin ilin sonunadək 6 milyard dollara yaxınlaşacağı proqnozlaşdırılıb.

Azərbaycanın BRICS ölkələri ilə xarici ticarət əlaqələrinə diqqət etsək, bu ölkələr ilə ticarət tərəfdaşlığının daha çox idxal məhsulları üzrə olduğunu görərik. Başqa sözlə, 2023-cü ildə respublikamıza BRICS ölkələrindən 7,17 milyard dollar dəyərində məhsul idxal olunub ki, bu da 2022-ci illə müqayisədə 24,1 faiz və ya 1,4 milyard manat çoxdur. İdxal həcmində azalma yalnız 2020-ci ildə qeydə alınıb ki, həmin ilin göstəricisi 560 milyon dollara bərabər olub. 2024-cü ilin birinci yarısında isə BRICS ölkələrindən idxal məhsullarının həcmi 3,78 milyard dollar təşkil edib.

Onu da xatırladaq ki, 2021-ci və 2022-ci illərdə Azərbaycanın BRICS ölkələrinə ixrac məhsullarının həcmində artım qeydə alınıb. Cari ilin birinci yarısında isə ixracın həcmi 1,18 milyard dollara yüksəlib. Ümumilikdə, son 5 il 6 ayda ölkəmizin xarici ticarət dövriyyəsinin həcmi 217,3 milyard dollar olub və bunun da 19,49 faizi və ya 42,3 milyard dolları BRICS ölkələri ilə xarici ticarətin payına düşüb. Digər ölkələr ilə xarici ticarət dövriyyəsi isə 175 milyard dollara çatıb.

Son 5 ildə BRICS ölkələri arasında respublikamızın əsas ticarət tərəfdaşı Rusiya olub. 2019-cu ildən cari ilin iyul ayınadək bu ölkə ilə xarici ticarət dövriyyəsi 18,9 milyard təşkil edib ki, bu da BRICS ölkələri ilə ümumi xarici ticarət dövriyyəsinin 44,7 faizinə bərabərdir. Həmin göstərici üzrə 2-ci sırada 12,7 milyard dollar ilə Çin dayanır. Bu ölkə ilə xarici ticarət dövriyyəsi BRICS üzvləri ilə ticarət dövriyyəsinin 30 faizini təşkil edir. 15,14 faiz göstərici ilə 3-cü sırada Hindistan yer alır.

Bu dövrdə Hindistan ilə xarici ticarət dövriyyəsi 6,4 milyard dollar təşkil edib. Cənub qonşumuz İran isə 2,56 milyard dollar (6 faiz) xarici ticarət dövriyyəsi ilə 4-cü sırada qərarlaşıb. Qalan 4,1 faizlik hissə, yəni 1,73 milyard dollar isə digər BRICS ölkələrinin payına düşüb.

Yeri gəlmişkən, Azərbaycanın BRICS ölkələri sırasında yer alan Hindistan və Misirlə ticarət dövriyyəsində ixrac həcmi üstünlük təşkil edir. Başqa sözlə, respublikamızın Hindistanla ticarət dövriyyəsinin 85,39 faizi, Misirlə isə 52,02 faizi ixrac əməliyyatlarının payına düşür. Digər ölkələrlə olan ticarət əlaqələrində isə idxal həcmi ixracı üstələyir. Qeyd edək ki, BRICS üzvləri arasında əsas xarici ticarət tərəfdaşımız olan Rusiya ilə ticarət dövriyyəsinin 73,1 faizini idxal, 26,9 faizini isə ixrac əməliyyatları təşkil edir.

Xatırladaq ki, BRICS təşkilatı 2009-cu ildə Rusiyanın təşəbbüsü ilə Braziliya, Hindistan və Çinin birgə yaratdığı hökumətlərarası qurumdur. 2010-cu ildə bu təşkilata Cənubi Afrika Respublikası da qoşulub. 2023-cü ildə isə Argentina, Misir, Efiopiya, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri quruma qoşulmaq üçün müraciət edib və Argentinadan başqa bütün namizədlər 2024-cü il yanvarın 1-dən BRICS üzvü qəbul ediliblər. Argentinanın təşkilata üzv olmamasının səbəbi isə 2023-cü ilin sonunda bu ölkədə hakimiyyət dəyişikliyi və yeni hakimiyyətin BRICS liderlərinə məktub ünvanlayaraq üzvlükdən imtina etməsi olub.

Azərbaycanın da qoşulmaq istədiyi bu təşkilata daha 27 ölkə üzv olmaq istəyir ki, bunlar Belarus, Türkiyə, Əlcəzair, Banqladeş, Bəhreyn, Boliviya, Venesuela, Vyetnam, Honduras, Pakistan, Seneqal, Zimbabve, İndoneziya, Qazaxıstan, Kuba, Çad, Şri-Lanka, Küveyt, Mərakeş, Nigeriya, Nikaraqua, Suriya, Tailand, Uqanda, Ekvatorial Qvineya və Cənubi Sudandır.

# Sənayedə artım davam edir

**Bu ilin yanvar-sentyabr aylarında ölkədə 47,8 milyard manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz çox sənaye məhsulu istehsal edilib. Dövlət Statistika Komitəsinin məlumatında daha sonra bildirilir ki, son 1 ildə məhsul istehsalı neft-qaz sektorunda 0,6 faiz, qeyri neft-qaz sektorunda isə 8,7 faizartıb. Sənaye məhsulunun 64 faizi mədənçıxarma, 30,2 faizi emal, 4,8 faizi elektrik enerjisi, 1 faizi isə su təchizatı sektorlarında istehsal olunub.**



Azərbaycanda qeyri-neft sənaye sahələrinin yaradılmasına investisiya cəlbi üçün əlverişli biznes mühiti, coğrafi yerləşmə, müasir infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var. Müasir sənaye zonaları və aqroparkların təşəkkülü də belə demək mümkünsə, bu cür əlverişli mühitin məhsuludur. Bu istehsal sahələrində iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur, sahibkarlara təşkilati köməklik yanaşı, vergi və gömrük güzəştləri, eləcə də hazır infrastruktura təminat təklif edilir.

Qeyri-neft sənaye sahələrində, məsələn, sənaye parklarında rezidentlər üçün dövlət vəsaiti hesabına müasir və geniş infrastruktur təchizatı "birbaşa qoşulma" ("Plug&Play") prinsipi əsasında gerçəkləşdirilir. Dövlət vəsaiti hesabına yaradılan müasir infrastruktur iş adamlarına öz vəsaitlərini birbaşa layihəyə investisiya olaraq yönəltmələrinə imkan yaradır. Bütün bunlarla yanaşı, sənaye parklarında iş adamlarına müasir infrastrukturla təmin edilən torpaq sahələri, həmçinin hazır tikililər isə uzunmüddətli icarəyə verilir.

# 9 ayda Avropaya 9,4 milyard kubmetr qaz ixrac olunub

**Energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsindəki hesabında bu ilin yanvar–sentyabr aylarında Azərbaycandan Avropaya 9,4 milyard kubmetr qaz ixrac olunduğu barədə paylaşım edib. Məlumata görə, hesabat dövrü ərzində Türkiyəyə 7,3 milyard kubmetr, Gürcüstana isə 1,7 milyard kubmetr qaz ixrac olunub. Nazirin sözlərinə görə, bu dövrdə Trans–Anadolu Qaz Boru Kəməri (TANAP) ilə Türkiyəyə 4,2 milyard kubmetr qaz nəql edilib.**

Xatırladaq ki, Azərbaycan qazının Avropaya ixracı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan Trans–Adriatik Boru Kəməri (TAP) vasitəsilə 2020-ci ilin sonunda başlayıb. Hazırda kəmərin ötürücülük qabiliyyəti ildə 12 milyard kubmetr qaz təşkil edir və 2027-ci ilin sonunadək 20 milyard kubmetrə çatdırılması nəzərdə tutulub.

TAP-ın ümumi uzunluğu 878 kilometrdir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Bolqarıstana "mavi yanacağ"ın nəqli TAP-a birləşdirilən Yunanıstan–Bolqarıstan İnterkonnektoru (IGB) ilə həyata keçirilir. "Bulgargaz EAD" dövlət şirkəti "Şahdəniz-2" yatağından 1 milyard kubmetr qazın ixracı üçün "Şahdəniz" konsorsiumu ilə müqavilə imzalayıb. Ümumi uzunluğu 182 kilometr olan boru kəmərinin 150 kilometrlik hissəsi Bolqarıstan ərazisindən keçir. Boru kəmərinin illik ötürücülük qabiliyyətinin 3–5 milyard kubmetr olacağı gözlənilir.




# Milli iqtisadiyyat ilin əvvəlindən 5 faiz böyüyüb



**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin 9 ayında ölkədə 92 milyard 829,5 milyon manatlıq və yaxud ötən ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Son 1 ildə iqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,9 faiz, qeyri neft-qaz sektorunda isə 7,1 faiz yüksəlib.**

ÜDM istehsalının 37,1 faizi sənaye, 9,6 faizi ticarət, 7 faizi nəqliyyat, 6,4 faizi kənd təsərrüfatı, 6,3 faizi tikinti, 2,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,8 faizi informasiya və rabitə sahələrinin, 19,2 faizi isə digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 10,2 faizini təşkil edib. Hesabat dövründə əhalinin hər nəfərinə düşən ÜDM-in dəyəri 9103 manat olub.

# Bu il istehsala 12 milyard manat investisiya qoyulub

**Dövlət Statistika Komitəsindən bildirilib ki, 2024-cü ilin yanvar–sentyabr aylarında Azərbaycanda əsas kapitala 12 milyard manat məbləğində investisiya yönəldilib.**



Qeyd edilib ki, istifadə olunmuş investisiyanın 6 milyon 302 min manatı və ya 49,6 faizi məhsul istehsalı sahələrinə, 4 milyon 744 milyon manatı (37,3 faizi) xidmət sahələrinə, 1 milyon 665 milyon manatı (13,1 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 10 milyard 579 milyon manatını və ya 83,2 faizini daxili investisiyalar təşkil edib. Əsas kapitala yönəldilmiş investisiyaların 9 milyard 193 milyon manatı və ya 72,3 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

# 9 ayda 5 milyon ton neft emal edilib



**Energetika Nazirliyindən aldığımız məlumata əsasən, cari ilin yanvar–sentyabr aylarında Azərbaycanda 5 milyon tona yaxın neft emal edilib ki, bu da illik müqayisədə 2,04 faiz çoxdur.**

Qeyd edək ki, Azərbaycanda neft təməli 1953-cü ildə qoyulmuş Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda emal edilir. Müəssisə respublikanın neft məhsullarına olan tələbatını tam ödəyir. Hazırda zavodda yenidənqurma və modernləşdirmə işləri aparılır.

# 10 KOB-a "Startap" hüququ verilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) aldığımız məlumata görə, 10 kiçik və orta biznes subyektinə (KOB) "Startap" şəhadətnaməsi verilib. Bununla da Ekspertlər Şurasının rəyinə əsasən, bu cür sənəd alan KOB subyektlərinin sayı 174-ə yüksəlib.**



Qeyd edək ki, KOB subyektləri "Startap" şəhadətnaməsi aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edilirlər.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




## “Yaşıl dünya” naminə həmrəylik



# Qlobal istiləşmə sərhəd tanımır

## *Ölkəmiz də bu prosesin dağıdıcı təsirlərindən kənarda deyil*

**Müasir iqlimşünaslığın önəmli mövzularından biri olan iqlim dəyişikliyinin yaratdığı problemlər mürəkkəb və müxtəlif olub, kompleks təsirə malikdir. Onlardan biri atmosferdə istixana qazlarının konsentrasiyasının artmasıdır. Lakin regional iqlim dəyişmələrinin bir hissəsi böyük şəhərlərdəki urbanizasiya prosesi və meqapolisin inkişafı ilə əlaqədardır. Təbii səbəblərin rolu isə problemi bir qədər də ağırlaşdırır. Məsələn, qlobal istiləşməyə gətirib çıxaran əsas amillərdən biri son onilliklərdə isti hava dalğalarının intensivliyinin və təkrarlanmasının çoxalmasıdır. Coğrafiya üzrə fəlsəfə doktoru, dosent Həsən Nəbiyev bu məsələ ilə bağlı XQ-yə açıqlamasında bildirdi:**



– Bu problem Azərbaycan ərazisində təbii–dağıdıcı hadisələrin (sel, daşqın, dolu və s.) təkrarlanmasının çoxalması, sirkulyasiya şəraitinin, hakim kuləklərin gücünün və istiqamətinin dəyişməsi, meridional proseslərin güclənməsi, cənub siklonunun respublika ərazisinə müdaxiləsinin artması ilə müşaiyət olunur. Nəticədə istər düzənlik, istərsə də dağlıq ərazilərdə havanın temperaturu artır, yağıntı miqdarı azalır, su problemi yaranır.

**– Baş verən bu dəyişikliklər nə ilə bağlıdır?**

– Azərbaycanda Günəş fəallığının güclənməsiı ilə sıx bağlı olan iqlim dəyişikliyi hazırda daha da intensivləşib və meridional proseslərin artmasına səbəb olub. Bunun nəticəsində baş verən təbii – dağıdıcı hadisələrin sayı dəfələrlə artıb. Bu, Azərbaycan iqlimində özünü daha kəskin formada büruzə verir, başqa sözlə desək, orta illik temperatur tərəddüdünün amplituda qiymətləri regional qiymətləri bir neçə dəfə üstələyir. Məsələn, XIX əsrin sonlarından müasir dövrə qədər Yer kürəsi üçün amplituda qiymətləri və ya orta illik temperaturların anomaliyalarının intervalı (maksimum və minimumlar arasındakı fərq) 1 dərəcə, Azərbaycan ərazisində isə bu, Bakıda 1,6, Lənkəranda 2,4, Qubada 3,4, Şamaxıda 1,2, Şəkidə 2, Zaqatalada 2,1, Ağstafada 2,3, Gəncədə 3,4, Gədəbəydə 2 dərəcə selsi təşkil edib. Bakıda orta illik temperatur 2001–2010-cu illərdə 1991–2000-ci illərə nisbətən 0,6 dərəcə, 2011–2020-ci illərdə isə əvvəlki onilliyə nisbətən 0,5 dərəcə artıb.

Demək olar ki, Azərbaycan ərazisinin hər yerində orta çoxillik temperaturun dəyişmə sürəti 140 il ərzində 1-2 dərəcə intervalında tərəddüd edib. Lakin ölkənin qərb ərazilərində dəyişmə sürəti daha intensiv olmaqla diqqət çəkib. Belə vəziyyət Böyük Qafqazın şimal-şərq hissəsində də müşahidə olunub.

İrimiqyaslı atmosfer proseslərinin səbəb olduğu belə dəyişikliklər və onların bir-birindən kəskin fərqlənməsi respublika ərazisinin hər yerində nəzərə çarpıb. Adətən bu cür hallar nəinki Azərbaycanın, eləcə də daha böyük ərazilərin iqliminə təsir göstərə bilir. Ona görə də respublikanın müxtəlif fiziki–coğrafi rayonlarını xarakterizə edən seçilmiş məntəqələrdə iqlim tərəddüdləri bütün müşahidə dövrü ərzində sinxron səciyyə daşımalıdır.

**– Hazırda müşahidə olunan iqlim dəyişikliyini qlobal istiləşmənin davamı kimi səciyyələndirmək olarmı?**

– Yer səthində qlobal temperaturun artımı okean səviyyəsinin qalxması, quruda qar və buz örtüyünün azalması, dağ buzlaqlarının isə azalması ilə müşayiət olunur. Orta sutkalıq temperatur keçidinin yazda tezləşməsi, payızda gecikməsi, bu keçid tarixləri arasındakı dövrün davamiyyətinin, aqroiqlim ehtiyatlarının əsas göstəricisinin artması və s. kimi əlamətlər iqlim dəyişmələrini təsdiqləyir.

Qeyd edim ki, məntəqələrin hamısında bütün fəsillərdə temperatur artması müşahidə olunur. Tədqiqatlara əsasən, 1975–1980-ci illərdən etibarən temperaturun artması meridional sirkulyasyanın güclənməsi, zonal proseslərin zəifləməsi ilə uyğunluq təşkil edir. Yay aylarında daha çox müşahidə olunan meridional sirkulyasiya tipləri zamanı şimal yarımkürəsinin qütbətrafı rayonlarında yaranan antisiklonlar cənuba doğru hərəkət edir, subtropik antisiklonla birləşir və yaranan yüksək təzyiq Atlantik okeanı tərəfdən gələn qərb hava axınlarının qarşısını kəsir.

Şərqi Avropa və Sibir üzərində yaranan antisiklonların qolları isə Cənubi Qafqaza, o cümlədən Azərbaycana doğru yönəlir, burada dayanıqlı hava şəraiti yaranir və havanın temperaturunun artmasına səbəb olur. Digər siklon isə Qərbi Sibir üzərində yerləşir və geniş bir ərazini əhatə edir. Mərkəzi və Şərqi Avropa üzərində isə subtropik antisiklonun şimala doğru yönələn yüksək təzyiqi nəzərə çarpır. Troposferin orta təbəqələrində barik sistemlərin bu cür yerləşməsi onun aşağı təbəqələrində Avropanın cənubunda, Şimali Qafqazda Azor antisiklonu nüvəsinin inkişaf etməsinə, bəzən Azərbaycan ərazisinə qədər yayılmasına, Qafqaz üzərində zonal sirkulyasiyanın pozulmasına, meridionallığın artmasına gətirib çıxarır.

Bütün bunlar tədqiq olunan ərazilərdə havanın transformasiyasının yaranmasını şərtləndirir, nisbi və mütləq rütubətliyi azaldır, quraqlıq, yüksək temperatur üçün şərait yaradır. Bununla yanaşı, kiçik qradiyentli barik sahələrin mövcud olması hava kütlələrinin uzun müddət yer səthinin qızmasına və temperaturun artmasına gətirib çıxarır.

***Müsahibəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Son 20 ildə ölkəmizdə istiləşmə əvvəlki 85 ildəkindən yüksək olub

## *İqlim dəyişməsi Azərbaycanda da su qıtlığı riskini artırır*

**Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunan “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da bir sıra məsələlərlə bərabər, ölkədə su ehtiyatlarının azalması, habelə qlobal iqlim dəyişikliyinin davam etməsi nəticəsində yaranan ekzogen təsirlər də vurğulanıb.**

Sənəddə, eyni zamanda, iqlim dəyişikliyinə qarşı mübarizənin uzunmüddətli dövrdə qlobal miqyasda əsas çağırışlardan biri kimi qəbul edildiyi, Davos İqtisadi Forumunun “Qlobal risklər – 2024” hesabatında uzunmüddətli dövrdə ekstremal hava hadisələri, biomüxtəlifliyin itirilməsi və ekosistemin dağılması əsas risklər qismində diqqətə çatdırılıb, Ümumdünya Meteorologiya Təşkilatının məlumatına əsaslanılaraq, növbəti 5 ildə temperatur səviyyəsinin sənayeləşmədən əvvəlki göstəricidən 1,5 C artma ehtimalının çox yüksək olduğu da diqqətə çatdırılıb.

Milli Strategiyada qeyd edilir ki, qarşıdakı illərdə ölkənin su ehtiyatlarında azalmanın davam edəcəyi gözlənilir. Bildirilib ki, Dünya Resursları İnstitutunun son tədqiqatına görə, Azərbaycan 2050-ci ilə qədər su ehtiyatlarının azalması ilə üzləşəcək 164 ölkə arasından 59-cu yerdə qərarlaşıb və orta-yüksək (20−40 faiz su stresi) risk kateqoriyalı ölkə kimi təsnif edilib.

“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”da Dövlət Statistika Komitəsinin məlumatına əsaslanılaraq bildirilir ki, Azərbaycanda illik orta temperatur xüsusən 1980-ci ildən etibarən artmağa başlayıb və 2023-cü ildə 14,7°C-yə yüksəlib. 1915−2000-ci illərdə temperatur artımı isə illik orta hesabla 0,6°C qeydə alındığı halda, 2000−2020-ci illərdə bu artım 0,8°C-yə bərabər olub. Son 30 ildə illik isti (maksimum temperaturun 35°C-dən yuxarı olduğu) günlərin sayı 10-dan 15-ə artıb.



Temperatur artımı və buxarlanma Xəzər dənizinə axan suyun həcminin azalmasına səbəb olub. Belə ki, 2006-cı ildən etibarən Xəzərdə suyun səviyyəsinin ildə orta hesabla 11 santimetr azalması qeydə alınıb. Eyni zamanda, ölkə ərazisində yağıntıların uzunmüddətli dinamikası ümumilikdə sabit olsa da, son onillikdə cüzi azalma müşahidə edilib. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə yağıntıların orta illik miqdarı 2002−2011-ci illərdəki 512,4 millimetrdən 2012−2023-cü illərdə 438,6 millimetrədək azalıb.

Azərbaycanla yanaşı, Türkiyə, Ermənistan, Gürcüstan və İranda da atmosfer yağıntılarının azalması su ehtiyatının həm transsərhəd, həm də yerli miqyasda azalması ilə nəticələnib.

Növbəti onillikdə Azərbaycan Respublikasında yağıntıların proqnozlaşdırılan səviyyəsi ilə bağlı qeyri-müəyyənlik var. Mövcud qeyri-müəyyənliklər və temperaturun artması su ehtiyatlarının daha çox buxarlanmasına, çay axınlarının azalmasına, buzlaqların sürətlə əriməsinə və nəticədə şirin su ehtiyatlarının azalmasına gətirib çıxara bilər. İl ərzində ardıcıl quru günlərin maksimum sayında müşahidə edilən artım tendensiyası o qədər böyük olmasa da, quraqlıq və su qıtlığı ilə bağlı riskləri artırır.

2023-cü ildə Dünya Bankı tərəfindən dərc edilən “Ölkə iqlim və inkişaf hesabatı”nda seçilmiş ölkələrlə müqayisədə Azərbaycan üzrə aparılan təhlildə növbəti illərdə kəskin iqlim dəyişikliyi və temperaturun artmasının ölkəmizə nisbətən aşağı dərəcədə təsir edəcəyi qeyd olunub, hidroenerji istehsalının gücü əsas risk amili kimi önə çəkilib.

Milli Strategiyada qarşıdakı illərdə ölkədə su ehtiyatlarında azalmanın davam edəcəyi bildirilib. Dünya Resursları İnstitutunun son tədqiqatına əsasən, Azərbaycan 2050-ci ilə qədər su ehtiyatlarının azalması ilə üzləşəcək 164 ölkə arasından 59-cu yerdə qərarlaşıb və orta-yüksək (20−40 faiz su stresi) risk kateqoriyalı ölkə kimi təsnif edilib. Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasına təqdim etdiyi Milli Hesabatına əsasən, respublikamızın su ehtiyatlarının həcmi (transsərhəd su ehtiyatları ilə birlikdə) qlobal temperaturun artma səviyyəsindən asılı olaraq 2040-cı ilə 5−10 faiz və 2070-ci ilə 10−15 faiz, digər ssenari üzrə isə 2040-cı ilə 10−15 faiz və 2070-ci ildə 15−25 faiz azalacağı proqnozlaşdırılıb.

Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasına təqdim etdiyi Milli Hesabata əsasən, ölkəmizin su ehtiyatlarının həcmi (transsərhəd su ehtiyatları ilə birlikdə) qlobal temperaturun artma səviyyəsindən asılı olaraq 2040-cı ilə 5−10 faiz və 2070-ci ilə 10−15 faiz, digər ssenari üzrə isə 2040-cı ilə 10−15 faiz və 2070-ci ildə 15−25 faiz azalacağı proqnozlaşdırılıb.

Hazırda dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşib. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mənfi təsir göstərir.

**Naxçıvan Muxtar Respublikasının təbii iqlim və coğrafi imkanları bu ərazidə bərpaolunan enerji mənbələrindən istifadəyə əlverişli şərait yaradır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Qarabağ və Şərqi Zəngəzurla birgə Naxçıvanı da “yaşıl” enerji zonası elan edib. Muxtar respublikada bu istiqamətdə hansı işlər görülür və qədim diyarın “yaşıl” potensialından necə istifadə olunur? Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidmətinin rəhbəri Mətin Abbaslı XQ-nin bu sualına cavabında dedi:**

# Naxçıvanın “yaşıllaşma” potensialı böyükdür

## *Qədim diyarda enerji hasilatının 35 faizi alternativ mənbələrin payına düşür*



– Rəhbərlik etdiyim xidmətin strukturundakı stansiyaların ümumi gücü 244,8 meqavatdır. Su elektrik stansiyaları daxil olmaqla, bərpaolunan enerji mənbələri üzrə elektrik stansiyalarının generasiya gücü 107,8 meqavatdır ki, bu da ümumi gücün 44,04 faizini təşkil edir. Təkcə Günəş elektrik stansiyalarının ümumi gücü 39,4 meqavata çatır.

Hazırda Naxçıvan Muxtar Respublikasında 5 su, 3 günəş, 1 külək və 1 küləkgünəş hibrid elektrik stansiyaları fəaliyyət göstərir. Bu stansiyalarda istehsal olunan elektrik enerjisinin hesabına Naxçıvan Muxtar Respublikasında “yaşıl” enerjinin payı da aylar üzrə artır. Təkcə 2024-cü ilin sentyabr ayında istehsal olunan ümumi elektrik enerjisinin 35 faizi alternativ və bərpaolunan enerji mənbələrinin payına düşüb. Ötən ilin 9 ayı ilə müqayisədə isə alternativ və bərpaolunan enerji mənbələrində istehsal olunan elektrik enerjisinin payı 20 faizə yaxın artıb. Belə ki, 2023-cü ilin doqquz ayında “yaşıl” enerjinin istehsal payı 35,1 faiz olduğu halda, 2024-cü ilin müvafiq dövründə bu rəqəm 53 faizə yüksəlib. Hazırda ümumi elektrik enerjisinin 55 faizi “yaşıl” enerjinin hesabına təmin olunur.

Bir faktı da qeyd edim ki, bu il Naxçıvanın elektroenergetika sektorunda əlamətdar bir hadisə baş verib. Aprel ayının ortalarında muxtar respublikada İES-lərin köməyinə ehtiyac duyulmadan, yəni təbii qaz işlədilmədən su və Günəş enerjisi hesabına qədim diyarın elektrik enerjisinə tələbatı tam ödənildi. Bu göstərici may ayında, ümumilikdə, 92 faiz olub ki, bunun da 80 faizi SES-lərin payına düşüb. Cari il çaylarda suyun səviyyəsinin yüksək olması ilə əlaqədar elə ay olub ki, bir ay ərzində ümumi elektrik enerjisinin 100 faizi “yaşıl” enerjinin payına düşüb. Belə olan təqdirdə karbon emissiyaları da əhəmiyyətli dərəcədə azalıb.

Qarşıya qoyulan əsas vəzifələrdən biri də 2050-ci ilə qədər atmosferə buraxılan karbon emissiyalarını 40 faizə qədər azaltmaqdır. Təbii ki, “yaşıl” enerjidən nə qədər geniş istifadə olunursa, armosferə buraxılan karbon qazı da azalır. Hazırda muxtar respublikada enerji istehsalında “yaşıl” enerji payının 55 faizə çatması atmosferə buraxılan karbon qazının da ötən illərə nisbətən dəfələrlə azalması deməkdir.

***– Bəs, “yaşıl” enerji mənbələrinin artırılması yönündə hansı addımlar atılır?***

– “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”na əsasən, bu bölgədə 2023–2024-cü illər ərzində 7992 hektar əkinə yararsız torpaqlarda “yaşıl” enerji layihələrinin reallaşdırılması nəzərdə tutulub. Mövcud günəş elektrik stansiyalarının sahəsi üzərində Günəş enerjisi potensialının qiymətləndirmə nəticələrinə görə bir hektar ərazdə, təqribən, 0,6 meqavat gücündə stansiya qurulduğu və il ərzində 900 min kilovatdan artıq elektrik enerjisi istehsal edildiyi müəyyənləşdirilib. Bu isə onu deməyə əsas verir ki, muxtar respublikada “yaşıl” enerji potensialı nəzərdə tutulan 1500 meqavatdan da çoxdur.

Külək və günəş elektrik stansiyalarının qurulması istiqamətində də adıçəkilən dövlət proqramında prioritet istiqamətlər müəyyənləşdirilib. Bu məqsədlə ilkin mərhələdə layihələndirmə işlərinin aparılması üçün müvafiq məsləhətçi şirkətlərlə danışıqlar aparılıb. Yerli qurumlarla bərabər, Türkiyə, Çexiya, Birləşmiş Ərəb Əmirlikləri, Almaniya şirkətləri ilə də muxtar respublikada alternativ və bərpaolunan enerji mənbələrinin qurulmasına dair görüşlər keçirilib. Danimarka Krallığının müvafiq şirkəti külək elektrik stansiyalarının tikilməsi üçün layihələrini təqdim edib.

Onu da vurğulayım ki, Prezident İlham Əliyev Naxçıvanı “yaşıl” enerji zonası elan edib. Bu, həm də o deməkdir ki, biz illər sonra qədim diyarın “yaşıl” enerjisini onun yerli məhsulu kimi tanıyacağıq. Əslində, Naxçıvanın iqtisadi əhəmiyyətə malik yerli brend məhsulları çoxdur. Gələcəkdə “yaşıl” enerji onların sırasında ilk yerdə olacaq. Bu brendi isə biz qürurla Türkiyə üzərindən Avropaya daşıyacağıq. Bunun üçün növbəti 10 ildə “yaşıl” enerji ilə istehsal gücümüzü 1500 meqavata çatdırmağı planlaşdırırıq.

Hazırda Naxçıvanda 500 meqavat həcmində GES-in tikilməsi layihəsinin araşdırılması və yaxın perspektivdə icrasına başlanılması, dövlət başçısının bu təşəbbüsü II Şuşa Qlobal Media Forumunda yüksək dəyərləndirilməsi də qədim diyarda “yaşıl” enerji potensialının reallaşdırılmasına xüsusi önəm verildiyini göstərir.

Qeyd etmək istərdim ki, muxtar respublikadan Türkiyəyə elektrik enerjisinin ixracı ilə bağlı da bir neçə şirkətlə görüşlər keçirilib. Türkiye Elektrik İletim Anonim Şirketi ilə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti arasında enerji mübadiləsi haqqında Əməliyyat Müqaviləsinin bağlanılmasına dair sənədləşmə işlərinin qarşılıqlı müzakirəsi keçirilib. Müqavilənin yaxın zamanlarda imzalanması planlaşdırılıb.

Qarşıda duran əsas hədəf Naxçıvanda külək və günəş enerjisi üzrə 1500 meqavatlıq istehsal güclərinin xarici investisiya hesabına yaradılması və onun ən azı 1000 meqavatının Türkiyə və Avropa istiqamətində ixracıdır. Yaxın perspektivdə ilkin mərhələdə gücü 30 meqavat olan yeni GES-in təməli qoyulması da planlaşdırılır. Bu stansiyanı dövlət-özəl tərəfdaşlığı çərçivəsində “Nobel Energy Manegment” MMC-nin tikəcəyi nəzərdə tutulur. Artıq bunun üçün 688 hektar torpaq sahəsi də müəyyənləşdirilib.

***– Gələn ay ölkəmiz COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək. Muxtar respublikada bununla bağlı hansı hazırlıq işləri görülür?***

–Dövlət Energetika Xidməti iqlim konfransına hazırlıqla bağlı bir sıra tədbirlər həyata keçirir, maarifləndirmə işləri aparır, yerlərdə infossesiyalar təşkil edir. “Yaşıl enerji”yə, “yaşıl iqtisadiyyat”a keçidlə bağlı maarifləndirməni diqqət mərkəzində saxlayır. Eyni zamanda, “Greenfest” festivalının keçirilməsi nəzərdə tutulur.

***Müsahibəni apardı:***
***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# Qazaxıstan da COP29-da Azərbaycanın yanındadır

**Qazaxıstan Respublikası Prezidentinin müşaviri, beynəlxalq ekoloji əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Zülfiyyə Süleymenova ilə Azərbaycan ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev arasında görüş keçirilib.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə ölkəmizin noyabrda evsahibliyi edəcəyi COP29-a hazırlıqla bağlı fikir mübadiləsi aparılıb. Söhbət zamanı Z.Süleymenova Azərbaycanın COP29-a sədrliyi çərçivəsində iqlim fəaliyyətlərinin şəffaflığı məsələsinin müzakirəsinin diqqətdə saxlanılacağına əminliyini vurğulayıb.

Xüsusi nümayəndənin sözlərinə görə, Azərbaycan iqlim şəffaflığı sahəsində öz fəaliyyətini daha yaxşı nümayiş etdirməyə kömək edən vahid platforma yaratmağa nail olub. “Əminəm ki, bu şəffaflıq prosesi, həqiqətən, iqlim dəyişikliyi sahəsində fəaliyyətləri gücləndirməyə və bütün maraqlı tərəflər arasında etimadı möhkəmləndirməyə kömək edəcək”, – deyə Z.Süleymenova bildirib.

***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV***
***XQ***




**“Yaşıl dünya” naminə həmrəylik**



# “Odlar yurdu” “təmiz ətraf mühit və yaşıl artım” hədəflərini uğurla gerçəkləşdirir

## *Ötən həftə Bakıda keçirilən Pre–COP29 müzakirələri bunu bir daha təsdiqlədi*

**Ölkəmizdə son illərdə “yaşıl” iqtisadiyyata keçid istiqamətində mühüm addımlar atılıb, enerji mənbələrinin genişləndirilməsi, enerji səmərəliliyi və iqtisadiyyatın davamlı inkişafı sahələrində ciddi uğurlar qazanılıb. Azərbaycanın 2030-cu ilə qədər bir dövrünü əhatə edən milli prioritetlərində dayanıqlı inkişaf və ətraf mühitin qorunması əsas hədəflərdən biri kimi müəyyənləşdirilib. Başqa sözlə, respublikamızın milli prioritetlərində “yaşıl” iqtisadiyyata keçidinin sürətləndirilməsi, təbii sərvətlərin beynəlxalq prinsiplərə uyğun qorunması, karbon emissiyalarının azaldılması və iqlim dəyişikliyinə uyğunlaşma kimi konkret ekoloji məqsədlər yer alıb.**




Belə bir yanaşmanın diqqətdə saxlanılması isə yaşadığımız indiki dövrdə iqtisadi cəhətdən dayanıqlı, təmiz və sağlam gələcəyə keçidi şərtləndirir, eyni zamanda, ən aktual çağırışlardan biri olaraq mütərəqqi cəmiyyət quruculuğunda atılan məsuliyyətli addım kimi dəyərləndirilir. Ümumiyyətlə, dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün “yaşıl” iqtisadiyyata keçid mühüm önəm daşıyır.

Prezident İlham Əliyevin bir neçə gün bundan əvvəl başa çatan Pre-COP29 tədbirinin iştirakçılarına ünvanladığı məktubunda da bu barədə ətraflı bəhs edilib. Məktubda iqlim dəyişmələrinin bütün qitələrin ölkələrinə təsir etdiyini, lakin inkişaf etməkdə olan kiçik ada dövlətlərinin bu təsirlərə daha həssas olduğunu vurğulayan dövlət başçısı təbiət fəsadlarının bütün bəşəriyyətinin yaşayışına mənfi təsir göstərdiyini və Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq yolunda tərəqqini zəiflətdiyini bildirib. Ölkə rəhbəri bundan Azərbaycanın da ziyan çəkdiyini, hər il çaylarımızda suyun azaldığını, Xəzər dənizinin isə səviyyəsinin aşağı düşdüyünü, respublikamızın su qıtlığı problemi ilə üzləşdiyini xatırladıb.

Azərbaycan liderinin məktubunda daha sonra deyilir: “Ölkəmiz bu təhdidlərin öhdəsindən gəlmək üçün cəsarətli addımlar atır. Biz milli səviyyədə “təmiz ətraf mühit və yaşıl artım” üzrə sosial-iqtisadi prioritetimizi uğurla reallaşdırırıq. Azərbaycan 2024-cü ili “Yaşıl dünya naminə həmrəylik ili” elan edib. Zəngin külək və günəş enerjisi potensialımız bizə bərpaolunan enerji gündəliyini inkişaf etdirməyə imkan verir. “Yaşıl” enerji zonaları elan edilmiş işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur kifayət qədər bərpaolunan enerji mənbələrinə malikdir. Azərbaycan, həmçinin neft və qaz hasilatından əldə etdiyi gəlirləri “yaşıl” enerjiyə yatırır. Bu, açıq şəkildə göstərir ki, qazıntı enerji növləri ilə zəngin olmağımız “yaşıl” gündəliyi təşviq etmək istiqamətində addımlarımıza mane olmur”.

Bu məqamda onu da qeyd edək ki, 2015-ci ildə qəbul edilən Paris İqlim Sazişi iqlim dəyişikliyinə qarşı qlobal mübarizənin əsas hüquqi çərçivəsini təşkil edir. Sənədin əsas məqsədi qlobal istiləşmənin sənayedən əvvəlki səviyyədən 2°C-dən çox artmasının qarşısını almaq və həmin artımı 1,5°C ilə məhdudlaşdırmaqdır. Bunun üçün hər bir ölkə öz milli iqlim planlarını hazırlayır və həmin planlar çərçivəsində istixana qazı emissiyalarını azaltmaq, enerji səmərəliliyini artırmaq, bərpaolunan enerji mənbələrinə keçid etmək və meşəlik əraziləri qorumaq üzrə öhdəliklər götürür. Prezident İlham Əliyev Pre-COP29 tədbirinin iştirakçılarına ünvanladığı məktubunda da bu məsələyə münasibət bildirərək qlobal istixana qazı emissiyalarında payının cəmi 0,1 faiz təşkil etdiyi Azərbaycanın nümunəvi ölkə kimi daha kiçik emissiya payına sahib dövlətlərin iqlim dəyişmələri ilə mübarizəyə əhəmiyyətli töhfələr verə biləcəyini vurğulayıb.

Yeri gəlmişkən, Paris İqlim Sazişi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə xüsusi diqqət yetirir. Sənəd hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin gerçəkləşməsini tələb edir. Eyni zamanda, inkişaf etmiş hər bir ölkə maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyi üzərinə mühüm öhdəlik kimi götürür.

Azərbaycanın qlobal iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi əhəmiyyətli töhfələr barədə danışarkən, onu da qeyd edək ki, ölkəmizin bu problemin həllinə dəstək vermək əzmi dövlət başçısının sözügedən məktubunda vurğulandığı kimi, COP29 tədbirinə evsahibliyi etmək üçün namizədliyimizin irəli sürülməsinə gətirib çıxardı: “Mən Azərbaycana verilən yekdil dəstəyi beynəlxalq ictimaiyyətin ölkəmizə olan inamının təzahürü hesab edirəm. Biz fəxr edirik ki, Cənubi Qafqazda və daha geniş regionda ilk COP Azərbaycanda keçiriləcək.

İxtiyarımızda bir ildən az vaxtın olmasına baxmayaraq, biz tam məsuliyyəti öz üzərimizə götürərək nəzərəçarpan nailiyyətlər əldə etdik. Qadınların, parlament üzvlərinin və vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb olunduğu inklüziv COP29 Təşkilat Komitəsi Bakı COP-una hərtərəfli hazırlıq işlərinin görülməsini təmin edir”.

Bəli, bu gün COP29 Azərbaycan Sədrliyi “Yaşıl dünya naminə həmrəylik” şüarı ilə bütün maraqlı tərəflərlə konstruktiv ruhda və şəffaf şəkildə əməkdaşlıq edir, çoxsaylı səfərlər həyata keçirir və narahatlıqlarını nəzərə almaq məqsədilə hamını dinləyir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycan inkişaf etməkdə olan kiçik ada dövlətləri üçün iqlim dəyişmələrinin səbəb olduğu çağırışların həllini prioritetləşdirərək bu dövlətlərə köməyi özünə mənəvi borc bilir və onlara həm maddi, həm də siyasi, o cümlədən Millətlər Birliyi təşkilatı çərçivəsində dəstək göstərir.

Prezident İlham Əliyevin Pre-COP29 tədbirinin iştirakçılarına ünvanladığı məktubda iqlim konfransı ilə əlaqədar qarşıda duran vəzifələr haqqında da bəhs edilib: “Əsas vəzifə inkişaf etməkdə olan, ən az inkişaf etmiş və inkişaf etməkdə olan kiçik ada dövlətlərinin ehtiyaclarına cavab verən ədalətli və iddialı Yeni Kollektiv Kəmiyyət Hədəfinin razılaşdırılmasından ibarətdir. Yeni maliyyə məqsədi əhəmiyyətli artım tələb edir.

COP29-un sədri qismində nə Azərbaycan, nə də digər dövlət başqalarının adından qərar qəbul edə bilməz. Bizim rolumuz danışıqlara dəstək vermək üçün platforma təmin etməkdən ibarətdir və inanırıq ki, bu rolumuzu qərəzsiz şəkildə yerinə yetirməkdəyik. Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş innovativ “Şamaxı məsləhətləşmələri” iqlim üzrə danışıqların gələcək inkişafı üçün səmərəli qeyri-rəsmi format rolunu oynaya bilər”.

Məktubda dövlət başçısı bütün qeyd edilənlərlə bərabər, beynəlxalq ictimaiyyətə mesajlar da ünvanlayaraq “COP29-a hazırlığın son mərhələsinə qədəm qoyduğumuz bir vaxtda mən sizi bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırıram. Dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox zərər vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur” deyib.

Prezident İlham Əliyevin vurğuladığı kimi, COP29 multilateralizm üçün həlledici sınaq olacaq. Azərbaycanın sülh, maliyyə, insan kapitalı, su və bir sıra digər məsələləri ehtiva edən 14 təşəbbüsdən ibarət iddialı Fəaliyyət Gündəliyi uğurla həyata keçiriləcək. Mövcud geosiyasi gərginlik fonunda “COP atəşkəsi çağırışı”nın aktuallığı isə daha da artacaq.

# Bakı konfransı iqlim savaşını yeni mərhələyə qaldıracaq

**Son illər ərzində iqlim dəyişikliyi qlobal səviyyədə ən çox müzakirə olunan aktual problemlərdən birinə çevrilib. İqtisadi artım, sənayeləşmə və əhalinin sayının çoxalması istixana qazlarının emissiyalarının yüksəlməsinə təsir göstərib və bu, planetdə iqlim şəraitində dəyişikliklərlə nəticələnib. Beynəlxalq ictimaiyyət iqlim dəyişikliyi ilə mübarizədə birgə səylərin və ölkələrin bu sahədə öhdəliklərinin icrasına nəzarət mexanizmlərinin işlənib hazırlanmasının zəruriliyini qəbul edib.**



Ekspertlər bildirirlər ki, bu mübarizədə əsas vasitələrdən biri 2015-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası çərçivəsində qəbul edilən Paris Sazişi olub. Bu saziş qlobal istiləşməni 2°C-dən aşağı saxlamağı və potensial olaraq 1,5°C ilə məhdudlaşdırmağı hədəfləyib. Adıçəkilən sənəd çərçivəsində hər bir iştirakçı ölkə emissiyaların azaldılması və iqlim dəyişikliyinə adaptasiya üzrə səyləri əks etdirən “Milli səviyyədə müəyyənləşdirilən töhfələr” hazırlamağı və həyata keçirməyi öhdəsinə götürüb. Burada həmin məqsədlərə çatmaq üçün iddialı planlar hazırlamaqla yanaşı, həm də onların icrasına ciddi nəzarətin diqqətdə saxlanılması qarşıya mühüm vəzifə kimi qoyulub.

İqlim öhdəliklərinin icrasına nəzarət mexanizmlərinə monitorinq, hesabatlılıq və yoxlama sistemləri, maliyyə və texniki dəstək, eləcə də öhdəliklərin qiymətləndirilməsi, habelə nəzərdən keçirilməsi mexanizmləri kimi müxtəlif yanaşma və vasitələr daxildir. Bu mexanizmlər şəffaflığın, hesabatlılığın gerçəkləşdirilməsində və ölkələr arasında etimad səviyyəsinin artırılmasında mühüm rol oynayır.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının iqlim sahəsində tədbirlərinin monitorinqi sənədində Beynəlxalq İqlim Fəaliyyəti Proqramının əhatə etdiyi və 51 ölkəyə yönələn iqlim dəyişikliyi ilə mübarizə tədbirlərinin icmalı verilib. Bu, siyasətçilər və praktiklərdə iqlim dəyişikliyi ilə mübarizə tədbirlərindəki tendensiyalar haqqında aydın təsəvvür yaratmaq üçün hazırlanıb.

Adı çəkilən təşkilatın son hesabatı da göstərir ki, “Milli səviyyədə müəyyənləşdirilən töhfələr” sənədi çərçivəsində iqlim dəyişmələrinin nəticələrinin azaldılması üzrə öhdəliklər Paris Sazişinin məqsədlərinə nail olmaq üçün lazımi səviyyəyə çatmır.

Paris Sazişinin yüzilliyin sonuna qədər temperaturu 1,5°C-yə qədər məhdudlaşdırmaq hədəfinə nail olmaq üçün 2030-cu ilə qədər istixana qazlarının emissiyalarını qlobal şəkildə 43 faiz azaltmaq (2019-cu illə müqayisədə) lazımdır. Lakin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri 2020-ci il emissiyaları ilə müqayisədə tullantıları 28 faiz, bu təşkilata tərəfdaş ölkələr isə 5 faiz azaltmağı öhdələrinə götürüblər. Materialda qeyd olunur ki, Paris Sazişinin hədəfinə nail olmaq üçün lazımi proqnozlaşdırılan azalmalara nail olmaq məqsədilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı və bu qurumun tərəfdaşı olan ölkələr emissiyaların azaldılması üzrə hədəflərini, ümumilikdə, ən azı daha 30 faiz artırmalıdır.

Yeri gəlmişkən, Paris İqlim Sazişi inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında məsuliyyətin bölüşdürülməsi məsələsinə də xüsusi diqqət yetirir. Sənəd hər bir ölkənin iqlim dəyişikliyinə töhfəsini və onu azaltmaq üçün fərqli imkanlarını nəzərə alaraq ədalətli keçidin gerçəkləşməsini tələb edir. Eyni zamanda, inkişaf etmiş hər bir ölkə maliyyə və texnologiya sahələrində inkişaf etməkdə olan ölkələrə dəstək verməyi üzərinə mühüm öhdəlik kimi götürür.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının riayət etdiyi iqlim qərarlarının artım sürəti 2022-ci ildə ləngiyib. Bu təşkilat ilə tərəfdaş ölkələrin qəbul etdikləri milli iqlim tədbirlərinin artım sürəti 2022-ci ildə yalnız 1 faiz artıb. 2000–2021-ci illər ərzində imzalanan qərarların orta artım sürəti isə 10 faiz təşkil edib.

2022-ci ildə artımın ləngiməsi ölkələrin iqlim siyasətlərinin icrasını təhdid edə bilər. Dövlətlərin, əvvəlki kimi, mövcud siyasətləri sərtləşdirmək və ya hazırda geniş istifadə olunmayan yeni strategiyalar qəbul etmək üçün bir çox variantları (məsələn, tikinti və nəqliyyat sektorlarında karbon qiymətlərinin müəyyənləşdirilməsi, qadağalar və qazıntı yanacağı hasilatı, yaxud yaxud qazıntı yanacağına əsaslanan infrastrukturdan mərhələli imtina) var.

2010–2020-ci illər ərzində 14 ölkə emissiyalarını artırıb. Braziliya, Çin Xalq Respublikası, İndoneziya və Hindistan kimi ölkələrdə emissiyalar yüksəlsə də gözlənilən pik həddə çatmayıb. 2020-ci ildə emissiyaların artımı 2010-cu il səviyyəsi ilə müqayisədə Çində 34 faiz, Hindistanda isə 37 faiz təşkil edib. Ölkələr Paris sazişinin məqsədlərinə çatmaq üçün növbəti 10 il ərzində emissiyalarını əhəmiyyətli dərəcədə azaltmalı olacaqlar.

# Dünya “xalis sıfır”a doğru yön alıb

**ABŞ Prezidentinin beynəlxalq iqlim siyasəti üzrə xüsusi müşaviri Con Podesta azərbaycanlı jurnalistlər üçün keçirdiyi brifinqdə ölkəsinin COP29 iqlim konfransında karbon vergisi ilə bağlı əhəmiyyətli irəliləyişin əldə olunacağına əminliyini bildirib.**



Diplomat COP28-in əsas nəticələrindən biri olan dünyanın XXI əsrin ortalarına qədər “xalis sıfır” emissiyaya çatması üçün bütün ölkələrin iqtisadi səviyyələrinə uyğun istixana qazlarını azaltmaqla əlaqədar razılaşdırılmış öhdəliklər götürmələri barədə qərar verdiklərini vurğulayıb. Amma bununla bağlı müəyyən edilən vaxt çərçivələri dövlətlərdən asılı olaraq dəyişir: “ABŞ, Avropanın böyük hissəsi, Yaponiya və bir çox başqa ölkələr 2050-ci ilə, Çin isə 2060-cı ilə qədər “xalis sıfır” emissiyanı hədəfləyir. Lakin bu məqsədi gerçəkləşdirmək üçün tədbirlər kompleksi şübhəsiz ki, milli şəraitdən asılıdır”.

Paris Sazişinin 6-cı maddəsinin karbon emissiyalarının azaldılması ilə bağlı ticarətin uçotunu aparmağa imkan verdiyini, eləcə də etibarlı özəl sektora karbon bazarlarının yaradılmasını təşviq etdiyini vurğulayan C.Podesta bu istiqamətdə həyata keçirilən layihələr nəticəsində meşələrin mühafizəsi, emissiyaların azaldılması, karbon bazarı rejiminin yaradılması və bərpaolunan enerji mənbələrinə keçidin reallaşdırılması sahəsində uğurlu nəticələr alına bilər.

Beynəlxalq iqlim siyasəti üzrə xüsusi müşavirin sözlərinə görə, ABŞ-nin Paris Sazişindən kənarda olduğu dövrdə də Birləşmiş Ştatlar submilli, qeyri-hökumət təşkilatları, vətəndaşlar səviyyəsində prosesi diqqətdə saxlayıb, bu istiqamətdə layihələrin həyata keçirilməsinə xüsusi önəm verib.

# COP Zirvəsinə hazırlıq təqvim üzrə davam edir

**İqlim konfransına hazırlıq vəziyyəti ilə bağlı keçirilən brifinqdə COP29 Azərbaycan Əməliyyat Şirkətinin İdarə Heyətinin sədri və Əməliyyatlar üzrə baş icraçı Nərmin Carçalova çıxış edərək dünyanın ən nüfuzlu tədbirinin Bakıda keçirilməsinə artıq sayılı günlər qaldığını vurğulayıb. Natiq hazırlıq prosesinin yekun mərhələdə olduğunu və bütün istiqamətlər üzrə əməliyyatların müvafiq təqvimə uyğun icra edildiyini bildirib: “Tədbir məkanı olacaq Bakı Stadionunda tikinti son tamamlanma mərhələsindədir. Noyabra qədər məkanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına təhvil verilməsi planlaşdırılır”.**

N. Carçalova tədbir məkanında müxtəlif məqsədlər üzrə icra edilən ərazi bölgüsü, Mavi və Yaşıl Zonanın fəaliyyəti, qurulan infrastuktur və tamamlanmaqda olan proseslər barədə ətraflı danışıb. Bildirilib ki, Yaşıl Zonada aparıcı qlobal təşkilatların məhsul və xidmətlərinin nümayişi ilə bərabər, müxtəlif təqdimatlar, seminar və brifinqlərin, habelə musiqi və mədəniyyət tədbirlərindən ibarət bir sıra proqramların keçirilməsi planlaşdırılır.

Pavilyonlar və sərgi stendlərindən ibarət olan, ümumi sahəsi 36 min kvadratmetr sahəni əhatə edən Yaşıl Zona tədbir zamanı Tərəflər Konfransının rəsmi iclaslarının keçiriləcəyi Mavi Zonadan bir neçə yüz metr aralıda yerləşir.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

# Azərbaycan televiziya məkanının fəxri olan “Vətənim”

**Artıq 4-cü ildir ki, hər bazar ertəsi Azərbaycan Televiziyasının Mədəniyyət kanalında akademik Rafael Hüseynovun müəllif proqramı olan “Vətənim” verilişi nümayiş etdirilir. Mən ilk dəfə efirə çıxdığı vaxtdan bugünədək həmin verilişin bütün buraxılışlarını ya birbaşa ekrandan, ya da sonra yazılışını seyr etmişəm. Vaxt azlığında və iş çoxluğunda mənim bu verilişə belə maraq göstərməyim təsadüfi deyil.**



**Fərhad BƏDƏLBƏYLİ,**
**Xalq artisti, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru**

“Vətənim” proqramı göstərilməyə başlandığı 2021-ci ildən etibarən geniş tamaşaçı auditoriyası toplamağa müvəffəq olub və bunun əsas səbəbi verilişin yüksək intellektual səviyyəsi, maarifləndirici gücü, Azərbaycan mədəniyyəti və tarixinin iftixar edilməli səhifələri, hamı tərəfindən tanınıb - bilinməsi vacib olan, amma, təəssüf ki, indiyədək kütlələrə ya büsbütün naməlum qalan, ya da haqqında ötəri və səthi təsəvvürdə olduğumuz qiymətli şəxsiyyətlərimiz haqqında həm dərin elmi məzmuna malik, həm də hər kəsin anlayacağı bir dildə və üslubda söhbətlər açmasıdır. Fikir və rəy bölüşdüyüm, yüksək səviyyyəsinə, zövqünə inandığım bir çox ziyalılarımız artıq “Vətənim”in daimi izləyicilərinə çevriliblər, həmin pərəstişkarların sırası getdikcə də sıxlaşmaqdadır. Hətta Musiqi Akademiyasının bir sıra professorları ustad dərsləri kimi həmin verilişin musiqi sənətimizə və böyük musiqiçilərimizə həsr edilən ayrı-ayrı buraxılışlarının tələbələrlə müzakirələrini aparırlar. Əlbəttə ki, verilişin qısa bir zaman ərzində belə populyarlıq qazanması və sevilməsinin ilk səbəbi onun müəllifidir. Rafael Hüseynovu mən yeniyetməlik, ilk gənclik illərindən tanıyıram və yarım əsr əvvəldən başlanan səmimi münasibətlərimiz lap çoxdan yol, məslək, fikir və zövq birliyinə gətirib çıxarmışdır. Mən Rafaellə ilk dəfə 1970-ci illərin başlanğıcında, onun Azərbaycan Dövlət Universiteti şərqşünaslıq fakültəsinin tələbəsi olduğu çağlardan tanışam. Onunla əvvəlinci görüşlərimiz Maestro Niyazinin həmişə qonaq-qaralı olan mənzilində, əmim Əfrasiyab Bədəlbəylinin evində, bir də daha çox bizdə – atam Şəmsi Bədəlbəyli ilə mütəmadi təmasları əsnasında olub. Rafael gənc bir insan idi və mən təəccüblənirdim ki, necə olur atam, əmim və Maestro Niyazi kimi təcrübəli insanlar bu cavanla saatlarla birgə olurlar, söhbətləşirlər və aralarındakı böyük yaş fərqinə baxmayaraq, onu qəbul edirlər. Tanıyanlarsa yaxşı bilir ki, Maestro Niyazi də, Əfrasiyab Bədəlbəyli də, atam Şəmsi Bədəlbəyli də bütün mehribanlıqlarına, bildiklərini paylaşmaqda səxavətli olmalarına, xeyirxahlıqlarına baxmayaraq, heç də hər adama açıq deyildilər və onların daimi həmsöhbətinə çevrilmək, evin adamı olmaq, onların inamını və xoş münasibətini qazanmaq da kifayət qədər çətin idi. Rafaelə onların həssas münasibəti məni heyrətləndirirdi və hətta bir dəfə atamdan soruşdum ki, axı bu cavan oğlanda nə görmüsünüz ki, hamınız onu yaxın qəbul edirsiniz. Atam söylədi ki, bu cavanın çox böyük gələcəyi var, bizlərin ən dəqiq, ən doğru tarixini o yazacaq, gün gələcək, onu bütün Azərbaycan tanıyacaq.

Həmin gələcək artıq gəlib və Rafael Hüseynov bu gün ölkəmizdən kənarlarda da tanınıb etiraf edilən görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor, yalnız Azərbaycan Elmlər Akademiyasının deyil, Oksford Akademiya İttifaqının da həqiqi üzvü, sayı 30-u keçən sanballı monoqrafiyaların, yüzlərlə qiymətli məqalənin müəllifi, 2000-ci ildən bəri Azərbaycan Milli Məclisinin üzvü, beynəlxalq səviyyədə Azərbaycanı ləyaqətlə təmsil edən siyasətçi, ümumi sayı artıq minləri aşan, Azərbaycan radio və televiziyasının xəzinəsini zənginləşdirən verilişlərin müəllifidir. İnanıram ki, Rafael Hüseynovun daim yazılarında, çıxışlarında məhəbbət və ehtiramla yad etdiyi Maestro Niyazi, atam Şəmsi Bədəlbəyli, əmim Əfrasiyab Bədəlbəyli həyatda olsaydılar, bütün bunlarla iftixar edərdilər və seçimlərində, ümidlərində yanılmadıqlarına sevinərdilər.

Bir zamanlar, sovet dövründə Moskvadan Mərkəzi Televiziya ilə SSRİ Xalq artisti, yazıçı, ədəbiyyatşünas, şifahi hekayətçiliyin misilsiz ustası olan İrakli Andronikovun verilişləri göstərilərdi və uzaq illərdə qalan o verilişlərin təəssüratı indiyədək unudulmayıb. Yaxud bizim Azərbaycan Televiziyasında 1960-cı illərdə Xalq artisti, bəstəkar, dirijor, musiqişünas Əfrasiyab Bədəlbəylinin apardığı “Mədəniyyət Universiteti” silsiləsindən verilişlər bəlli saatlarda Azərbaycanın dörd bucağında tamaşaçıları televizorların qarşısına çəkər, heyranlıqla baxıb – dinləməyə cəlb edərdi. Rafael Hüseynovun “Vətənim” silsiləsinə hər dəfə tamaşa edəndə o məşhur şəxsiyyətlərin bənzərsiz aparıcılığı, natiqlik məharəti, nəqletmə ustalığını xatırlayıram və fərəhlənirəm ki, Rafael Hüseynov bu istiqamətdə öz modelini yaratmağa, yeni və uğurlu bir səhifəni açmağa nail olubdur. Rafael Hüseynovun necə mahir qələm sahibi olması onun elmi əsərlərindən və publisistik yazılarından ictimaiyyətimizə yaxşı bəllidir. Lakin o, həm də yazısında olduğu qədər nitqində, şifahi təqdimatlarında güclüdür və bu baxımdan da Azərbaycan efir məkanında meyar sayılası təklərdəndir. Son illərdə biz tez-tez şikayətlənirik ki, Azərbaycan televiziya məkanı böhran yaşayır, peşəkarlıq azalır, verilişlərin və onları aparanların səviyyəsi aşağı düşməkdə davam edir, ucuz mahiyyətli şou proqramlar bir ucdan artmaqdadır, efirə yol tapan dedi-qodular və şitliklər insanları bezdirir, gənc nəslin mənəvi tərbiyəsinə xoş olmayan təsirini göstərir, təbliğə layiq incilərimiz və nəhəng şəxsiyyətlərimiz əvəzinə meydan ikinci, üçüncü və daha aşağı dərəcəlilərə verilir, ana dilimiz təhrif olunur, zövq korlanır. Bu haqda başqaları da yazıblar, mən də müsahibələrimdə narahatlığımı ifadə etmişəm. Lakin, axı həmin arzuolunmaz təmayüllərlə yanaşı, əleyhinə səsimizi qaldırdığımız hallarla bərabər, Azərbaycan efirində Rafael Hüseynovun hazırladığı və hər cəhətdən örnək sayılası “Vətənim” layihəsi də var. Bizi incidən, narazı salan hallardan bəhs etməklə bərabər, bu cür diqqətəlayiq efir hadisələrindən də ürək genişliyi ilə danışmalı və yazmalıyıq ki, həm yaxşılar qiymətini alsın, həm də bizim efirdən nələri istədiyimiz bir daha hər kəsə aydın olsun.

Rafael Hüseynovun müəllifi olduğu proqram “Vətənim” adlanır və hər bir insan üçün də Vətən dildən, milli-mənəvi dəyərlərdən başlanır. Bu verilişin hər buraxılışı, ilk növbədə, rəvan, şirin, səlis Azərbaycan dili ilə növbəti görüş deməkdir. Rafael Hüseynovun nitqi ayrıca söhbət mövzusudur və bu, sadəcə ana dilimizi yaxşı bilərək onu tələb olunan qayda-qanunu ilə danışmaq məsələsi deyil. Rafael Hüseynov istər televiziya, istər radio verilişlərində, istərsə də müxtəlif səhnələrdən və kürsülərdən etdiyi ən müxtəlif çıxışları ilə bunu çoxdan sübut edib ki, o, haqqında söz açdığı istənilən mətləbdən çox maraqlı, cəlbedici bir tərzdə, auditoriyanı əvvəldən sonadək diqqət kəsilərək dinləməyə sövq edən bir tərzdə danışmağı bacarır. Əlbəttə, bunun arxasında dayanan əsas bünövrə ondakı universallıq, dərin bilik, zəngin məlumatlılıq, bəhs edilən hər bir mövzunu panoramda seyr edə bilmək qabiliyyəti sayəsində müqayisələr apararaq ən gözlənilməz qütblər arasında rabitə yarada bilmək səriştəliliyi, improvizə məharətidir. Bütün bunların üstünə kamera qarşısında insanlarla üz-üzəymiş kimi sərbəst və səmimi davranmaq keyfiyyətini də əlavə edəndə belə bir məsul və mühüm tarixi mənası olan televiziya verilişini hazırlayıb təqdim etməyin nə qədər çətin olması hər kəsə aydınlaşar.

Söz yox, Rafael Hüseynov Azərbaycan elmi-mədəni mühitində və efirimizdə ayrıca bir hadisədir və hər aparıcıdan belə olmağı tələb etmək düz olmazdı. Ancaq, hər halda efirə çıxan, ekranda görünən hər bir aparıcı və onları yönəldən televiziyalar bu məsuliyyəti, xalq qarşısında cavabdehliyi də heç zaman unutmamalı, işlərini məhz belə təqdir ediləsi örnəklərə köklənərək qurmalıdırlar.

Rafael Hüseynov mətbuatda vaxtaşırı dərc edilən məqalələrində və son 40 ilə yaxın müddətdə nəşr edilən çoxsaylı kitablarında yer alan esseləri ilə portret ustası olduğunu çoxdan sübuta yetirmişdir. Ancaq “Vətənim” silsiləsi onun yaradıcılığında bu baxımdan yeni bir səhifə hesab edilə bilər. 4 il ərzində “Vətənim”də Azərbaycanın qüdrətli şəxsiyyətlərindən ibarət əlvan surətlər qalereyası yaradılmışdır ki, tariximizin son 1400 ildən artıq bir dövrünü əhatə edir. Xüsusi vurğulanmalı cəhətlərdən biri də budur ki, Azərbaycanın tarixində müstəsna xidmətləri və izləri olan bu şəxsiyyətlərin əksərini müasirlərimiz ya yerli-dibli tanımırlar, yaxud onların haqqında cüzi məlumata malikdirlər. Səbəb həmin şəxsiyyətlərin indiyədək yaxşı tədqiq edilərək insanlarımıza lazımınca təqdim olunmamasıdır. Rafael Hüseynovun hazırladığı verilişlərdən biri 13 əsr əvvəl yaşamış, ərəbcə yazıb-yaratmış, yalnız öz ədəbiyyatımızın deyil, bütün Yaxın və Orta Şərq xalqlarının söz tarixində azadfikirliliyin ilk carçılarından olmuş İsmayıl ibn Yəsar haqqında idi. “Vətənim”in hər buraxılışı kimi, 45 dəqiqə davam edən bu verilişin də necə başlayıb necə qurtarmasını hiss etmirsən. Bir-birindən maraqlı epizodlar, dramatizmlə dolu ömür anları, müfəssəl təsvir edilən tarixi fon və həmin qarışıq zamanın mürəkkəb axarından keçib gedən müdrik və dikbaş şairin məğrur şəxsiyyəti tamaşaçını alıb aparır, baxıb yalnız zövq almırsan, həm biliklərin artır, həm də bu veriliş səni yaxın-uzaq mövzularda bir çox düşüncələrə dəvət edir, tanımadığın, ancaq mütləq tanıyıb bilməli olduğun bir qədim soydaşını bu proqram sayəsində kəşf edirsən. “Vətənim” silsiləsini izlədikcə özünü sanki vətən və millət dərsləri verilən bir sinif otağında hiss edirsən, qürur duymalı olduğun həmvətənlərini bir-bir tanıdıqca, həm də sadəcə tanımayıb aldığın hərtərəfli biliklər sayəsində sevməyə başladıqca azərbaycanlı olmağınla daha artıq qürrələnirsən. “Vətənim”in bələdçiliyi ilə XI əsrdə yaşamış filosof şair Baba Kuhi Bakuvi də, XII əsrdə Şərqdə günəş kimi parlamış Məhsəti və yanındakı daha beş qadın şair də, XIII əsrdə söz möcüzələri doğurmuş Zülfüqar Şirvani də, həmin yüzildə musiqişünaslıq tarixində əsrlərcə masaüstü kitablara çevriləcək qiymətli risalələr qələmə almış Səfiəddin Urməvi də, XVI əsrdə Hindistanda moğol imperiyasına rəhbərlik etmiş qadir sərkərdə və şair, qarabağlımız Məhəmməd Bayram xan da, neçə başqa əski alimimiz, dövlət xadimimiz, memarımız, sərkərdəmiz, rəssamımız, ifaçımız duman içərisindən çıxaraq indimizə gəlir, bizi biz edən o nadir simaları yaxından tanıdıqca yurdumuzun və xalqımızın nə qədər əzəmətli olduğuna bir daha yəqin kəsilirik.




Bu verilişlərə ən müxtəlif təbəqələrdən olan, ən müxtəlif yaş nəsillərinə mənsub insanlar maraqla baxır və hamıya da həmin televiziya hekayətləri anlaşıqlı gəlir, yaddaqalan olur. Çünki təhkiyənin, təqdimatın özü yetərincə sadə və rahat qavranılandır. Televiziya sənətinin ilkin əsas şərtlərindən biri də elə budur. Akademik bir tərzdə, qəliz ibarələr, uzun cümlələr, yorucu mətnlərlə nə qədər lazımlı bir mövzudan söz açsan da, tamaşaçını ekran qarşısında çox saxlaya bilməzsən. Çünki televizorun düyməsi tamaşaçının öz əlindədir, bəyənməyincə bunu qoyub başqa kanala keçəcək. Lakin zahirən belə sadə, anlaşıqlı, tez çatan verilişlərinin hər birinin arxasında Rafael Hüseynovun Azərbaycanda və dünyanın müxtəlif ölkələrindəki əlyazma fondlarında, arxivlərdə, kitabxanalarda illər boyu apardığı axtarışlar dayanır. Bir sıra Şərq və Qərb dillərini yaxşı bilməsi, qədim əlyazmalarla işləmək bacarığı da onun digər yardımçısıdır. Bunlar elə verilişlərdir ki, 45 dəqiqə davam etsə də, hər birinin arxasında müəllifinin onillər ərzində davam etmiş axtarışları durur və hər yeni “Vətənim”ə baxmaq əslində cildlərlə kitabları oxumağa bərabərdir. Bunu da qeyd etmək lazımdır ki, Rafael Hüseynovun zəngin səs və təsvir arxivi var. Şəxsən şahidəm ki, zamanında atamın və Maestro Niyazinin on saatlarla söhbətlərini lentə alıb. Bundan başqa da onlarla yox, yüzlərlə tarixi şəxsiyyətin. İllərcə toplanmış həmin sərvəti Rafael indi həm yazılarında, həm də bu verilişlərdə istifadə edir. “Vətənim”də elə nadir miniatür və rəsmləri, indiyədək başqa yerdə rastlaşmadığımız elə fotoları, elə səs və təsvir xronikalarını görürük ki, onların hər biri verilişə gözəllik, baxımlılıq verməkdən savayı, həm də tarixi əhəmiyyət daşımaqdadır. Məni verilişdəki hər detal maraqlandırır. Ustacasına montajdan tutmuş mətnləri müşayiət edən kadraxası musiqinin seçiminə qədər hər addımda yüksək zövq, ölçünün incəliklə gözlənilməsi hiss edilir və ona görə də “Vətənim”in hər buraxılışı kamil kompozisiya təsiri yaradır.

“Vətənim”in daha bir cəlbediciliyi isə ondan ibarətdir ki, hətta bizə çox yaxşı tanış olan simaları da yeni baxış bucağından təqdim edə, onlar barəsində bugünədək aşkarlanmamış soraqları verə bilir. Dahi Nizaminin adı da, əsərləri də, son mənzili – məqbərəsi də hamımıza bəllidir. Lakin Rafael Hüseynovun Nizami məzarının dünəni ilə bağlı son dərəcə əhəmiyyətli tarixi təfərrüatlarla dolu “Vətənim”i anladır ki, bəzən üzdən adi görünən sadəcə bir məzarın da keçmişində milli tarixin nə qədər sirləri gizlənə bilərmiş. Yaxud “Xəmsə”dən edilən iqtibaslarla Nizaminin öz dilindən qopmuş, öz qələmindən çıxmış misralar, beytlər əsasında onun milli kimliyi haqqında aparıcının verdiyi məlumatları dinlədikcə “Vətənim”ə minnətdar oluruq ki, bəzən ayrı-ayrı elmi mübahisələrə səbəb olan məqamlara şairin öz diliylə necə əsaslandırılmış, məntiqli cavablar verilir.

Xədicə Qayıbova Azərbaycanın ilk pianoçu qadınıdır, alt saksafonçu Pərviz Rüstəmbəyov Azərbaycan cazının beşiyi başında dayananlardan biridir. Sanki onlarla aramızdakı vaxt məsafəsi o qədər də uzun deyildir. Lakin hər ikisi sovet siyasi repressiyalarının qurbanı olmuş bu parlaq sənətkarlar haqqında musiqişünaslıq elmimizin də, geniş ictimaiyyətin də bildikləri lap azdır. Rafael Hüseynovun “Vətənim”də bu unudulmuş sənətkarlarla bağlı hazırladığı buraxılışlar bir növ həmin şəxsiyyətlərin əsl bəraətinə, xalqımıza yeni qayıdışına çevrilir.

“Vətənim”in bir mühüm məziyyəti də odur ki, müəllif hansı mövzudan danışır-danışsın – istər bu, alban sərkərdəsi Cavanşir olsun, istər ana abidəmiz “Kitabi-Dədə Qorqud” dastanları, istər memar Əcəmi olsun, istər XV yüzilin zirvə bəstəkarı, udçalanı, musiqişünası Əbdülqadir Marağayi, istər səyyah Hacı Zeynalabdin Şirvani olsun, istər şəbəkə ustası Əbdülhüseyn Babayev, istər opera müğənnisi, Azərbaycan səhnəsində qadın rollarını ifa etmiş Əhməd Ağdamski olsun, istər “ikinci Sabir” adlandırılmış, Cənubi Azərbaycandan olan şair Mirzə Əli Möcüz və daha kimlər... hər biri haqqında eyni yüksək peşəkarlıqla, həmin sahələrə yetərincə bələdliklə fikir söyləyir. Ona görə də tamaşaçı inanır, həvəslə baxır, öyrənir, yadda saxlayır, ibrət götürür. Mən əminliklə bildirirəm ki, bu verilişlərin hər biri televiziyamızın “qızıl fond”unda qorunmaq haqqına layiqdir və onlara çox illər sonra bəlkə indikindən də daha artıq maraqla baxılacağına inanıram, yeni tamaşaçı nəsillərinin də bu qiymətli sərvətdən bəhrələnəcəyinə ümidvaram.

Azərbaycan Televiziyasının Mədəniyyət kanalının və bütövlükdə Azərbaycan televiziya məkanının ən uğurlu və diqqətəlayiq hadisələrindən olan “Vətənim” verilişinin uzun efir həyatı yaşayacağına şübhəm yoxdur. Çünki akademik Rafael Hüseynovun bir vacib xüsusiyyəti də başladığı və ümummilli mənası olan işləri heç bir çətinlik və sınaqlara baxmayaraq illərcə müvəffəqiyyətlə davam etdirməsidir.

Vaxtilə Azərbaycanın bir nömrəli qəzeti sayılan və yarım milyondan artıq tirajla buraxılan “Kommunist” qəzetində Maestro Niyazinin Azərbaycan radiosunda Rafael Hüseynovun apardığı “Axşam görüşləri” haqqında bu proqramı yüksək dəyərləndirən irihəcmli məqaləsi dərc edilmişdi. Həmin məqalənin çap olunduğu vaxtdan 40 ildən artıq müddət keçir. “Axşam görüşləri” yenə hər bazar günü efirdədir, Rafael Hüseynov o vaxtlar olduğu kimi, bütün başqa bolluca işlərinə və mühüm elmi, pedaqoji, ictimai-siyasi fəaliyyətlərinin ondan nə qədər çox vaxt almasına baxmayaraq, “Axşam görüşləri”ni yenə əvvəlki tələbkarlıq və şövqlə hazırlamaqda davam edir. “Vətənim”in də efir ömrü nə qədər sürəkli olarsa, bundan qazanan xalqımız, mədəniyyətimiz, elmimiz, bu verilişlər silsiləsindən mükəmməl azərbaycançılıq dərsləri alan gənc nəsillərimiz olacaq.

Hələ “Vətənim”in 1 yaşı tamam olanda mən söyləmişdim ki, bu silsilə ən yüksək mükafatlara təqdim edilməyə layiqdir. Lakin indi 4 yaşına çatmış və 200-dək buraxılışının hər biri qiymətli əsər olan “Vətənim”in keçdiyi yolu nəzərdən keçirirkən məmnuniyyətlə təsdiq edirəm ki, akademik Rafael Hüseynov, onun müəllifi olduğu bu veriliş artıq ən yüksək mükafatı qazanıb və həmin təltifin də adı ümumxalq sevgisi və rəğbətidir!

# İmkansız tələbə qızlara dəstək artır

**Dünən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Elm və Təhsil Nazirliyinin və Təhsilin İnkişafı Fondunun birgə əməkdaşlığı ilə “Gənc qızların təhsilinə dəstək” layihəsi çərçivəsində növbəti toplantı keçirilib.**



Məclisdə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova layihənin 4 ildən bəri reallaşdırıldığını xatırladaraq bildirib ki, hər bir xalqın inkişafı üçün sivil amil və mötəbər təməl təhsillə bağlıdır: “Təhsilin dövlətin və cəmiyyətin inkişafında rolunu heç nə ilə müqayisə etmək olmaz. Bu gün uğurlara və ümumi yüksəlişə görə təhsilə borcluyuq. Qızların təhsili isə xüsusilə önəmlidir. Təhsilli analar ailələrdə uşaqları bilik və bacarıqlar qazanmağa hazırlamaqla təhsilin uğuruna önəmli təminat yaradırlar”.

Komitə sədri əlavə edib: “Hər il ictimaiyyətə müraciət edirik ki, hər kəs gənc qızların təhsilinə bacardığı dəstəyi versin. İndiyədək 265 qız “Hənifə Məlikova–Zərdabi təqaüd proqramı”nı qazanıb. Onların 5 nəfəri şəhid xanımıdır. Artıq bu layihə 58 rayonu əhatə edir. Həyata keçirilən proqramlarda iştirak edən qızlardan bir neçəsi artıq işlə təmin edilib. Ümumilikdə, 4 belə proqram həyata keçirilib.”.

Elm və təhsil naziri Emin Əmrullayev 4 il əvvəl bir neçə sahibkar qadının və tələbənin təşəbbüsü ilə həyata keçirilən bu hərəkatın artıq yüzlərlə tələbəni əhatə etməsinin təhsilə önəmli dəstək olduğunu qeyd edib. O bildirib ki, bu təqaüddən faydalanan xanımlar sabah müxtəlif sahələrdə mütəxəssis olacaqlar.

Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov “Gənc qızların təhsilinə dəstək” layihəsində benefisiar sayının 315 nəfərə çatdırılacağını qeyd edib: “Qızlar təkcə təqaüd deyil, eyni zamanda, təcrübə və təlim proqramlarından faydalanmaq imkanı da qazanırlar. “Layihə çərçivəsində “Parla” təqaüd və inkişaf proqramı həyata keçirilib və 1800-ə yaxın müraciət daxil olub. “Zərif mühəndislər” təqaüd proqramına isə 215 qız cəlb edilib. “Maya Hacıyeva adına İKT bacarıqları” və “Hənifə Məlikova – Zərdabi təqaüd proqramı” layihələri də uğurlu təşəbbüs olub. Bu il ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan aztəminatlı ailələrdən olan 131 tələbə qıza təqaüd verilib”.

Sonda “Hənifə Məlikova–Zərdabi təqaüd proqramı” üzrə aylıq təqaüd qazanan, ali məktəblərə qəbul imtahanlarında yüksək bal toplayan qızlar mükafatlandırılıblar.

***XQ***

**Şəhid polkovnik-leytenant haqqında yazı tapşırığı alanda onun doğulduğu Beyləqanla əlaqə saxladıq. Qardaşı ilə söhbətləşdik. O, ailədə Çingiz, Hafiz, Ramiz və Mübariz adlı 4 qardaş olduqlarını, atası Vaqif Qasımovun və anası Şölə Həsənovanın 2012-ci ildə vəfat etdiklərini bildirdi. Qardaşı Hafizin 1992-ci ildə itkin düşdüyünü, Ramizin isə Vətən Müharibəsi Qəhrəmanı kimi tarixə düşdüyünü dedi.**



# Vətən müharibəsinin beyləqanlı qəhrəmanı

## *Ramiz Qasımovun yurd sevgisi və hünəri gənclərə örnəkdir*

Ramizin ömür-gün yoldaşı Günel Qasımovaya zəng edib məqsədimi açıqlayanda "İndi Ramizin yanına gedirəm, Fəxri xiyabana. Qayıdıb sizinlə əlaqə saxlayacağam" – dedi. "Ramizin yanına" kəlmələri məni duyğulandırdı. "Dərdini danışmağa, söhbətləşməyə, ürəyini boşaltmağa gedir", – deyə düşündüm. Allah baiskara lənət etsin. Bu müharibədə ailə həyatı yarıda qırılan neçə-neçə bir üzü qız – bir üzü gəlinlərimiz qaldı. Hamısı bir-birindən gözəl, gənc, fədakar və güclü.

Görüşümüz baş tutdu. Gözünün hər açılması, kipriklərinin sıxılıb-qalxması ilə yanaqları aşağı axan selin qarşısını al, görüm, necə alırsan? Amma dik duruşu məni qürrələndirdi. An sonra duyğularına hakim kəsilib sözə başlaması məni heyrətləndirdi. Söhbəti maraqlı, nitqi rəvan, güclü bir xanımla üz-üzə oturduğumu anladım...

Azərbaycan Hərbi Hava Qüvvələrinin polkovnik-leytenantı, Usta dərəcəli pilot, Vətən Müharibəsi Qəhrəmanı, şəhid Ramiz Vaqif oğlu Qasımov 1975-ci il, fevralın 17-də Beyləqanda doğulmuşdu. 45 illik ömrünün 28 ilini hərb sənətinə bağlamışdı. O, 2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsinin ilk saatlarında "SPAYK" uzunmənzilli raketlərilə silahlanan "Mi-17" hücum vertolyotu ilə cəbhənin Tərtər–Madagiz– Talış istiqamətlərində Ermənistan Ordusunun strateji əhəmiyyətli hədəflərini məhv edən birinci pilotlardan idi.



Ramiz Qasımov Beyləqan şəhər 4 nömrəli tam orta məktəbdən 1992-ci ildə məzun olmuşdu. 90-cı illərin əvvəlində Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başladığı müharibə yeni-yeni alovlanırdı. O, Vətənə daha faydalı xidmət üçün hərbçi olmağa üstünlük verib, 1992-ci ildə Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbinə daxil olub.



Təhsil aldığı 5 il müddətində həm pilot, həm də hərbçi kimi yetişir və 1997-ci ildə təhsilini başa vurub. R.Qasımov 1992-ci ildən başlayaraq, həm də Azərbaycan Hərbi Hava Qüvvələrinin Xəzər rayonu ərazisində yerləşən Qala aviabazasında xidmətdə olub. Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalında olan bütün tip vertolyotlarda uçuşlar edib. Hər növ helikopteri idarə etməkdə özünü sınadığından ali məktəbi başa vuranda həmin illər qədər təcrübə və "dəmir qanadlı" pilot ləqəbini qazanıb.

### Döyüş təcrübəsi vardı

2016-cı ildə Aprel döyüşlərində iştirak edən Ramiz Qasımov artıq oddan-alovdan keçib bərkimiş, döyüş təcrübəsi qazanmışdı. Amma özü etiraf edirdi ki, onun daha ciddi döyüş yolu, hərbi xidməti əsasən, Tovuz döyüşlərindən başlayıb. 2020-ci il iyulun 12-də günorta saatlarından etibarən Ermənistan Silahlı Qüvvələrinin bölmələri Azərbaycan–Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində Dövlət Sərhəd Xidmətinin mövqelərini artilleriya qurğularından atəşə tutmuşdu. Ordumuzun bölmələrinin cavab tədbirləri nəticəsində hücum cəhdinin qarşısı alınaraq mənfur düşmən geri oturdulmuşdu. Döyüşlərin elə ilk saatlarında hərbi qulluqçularımızdan 3 nəfər şəhid olmuş, 4 nəfər isə ağır yaralanmışdı.

Bu yerdə xüsusi olaraq qeyd etməliyik ki, həmin döyüşlərdə Ermənistan ordusunun dayaq məntəqələrinə və canlı qüvvələrinə səmadan zərbələr, məhz Ramiz Qasımovun idarə etdiyi "Mi-17" döyüş vertolyotu tərəfindən endirilmişdi. İyulun 13-də günorta saatlarında da bölmələrimiz tərəfindən cəza tədbirləri davam etmişdi. Həmin tədbirlər nəticəsində qarşı tərəfin atəş mövqeləri, 20 nəfərdən çox şəxsi heyəti, tabor qərargahı və digər hərbi hədəflər darmadağın edilmişdi.

### Suqovuşan – son döyüş

2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən genişmiqyaslı təxribatın qarşısını almaq məqsədilə Azərbaycan Silahlı Qüvvələrinin Komandanlığı tərəfindən cəbhəboyu zonada hücum əməliyyatlarının başlaması barədə qərar verildi. Polkovnik-leytenant Ramiz Qasımovun döyüş yolu İkinci Qarabağ müharibəsində davam etdi. Suqovuşanın azadlığı uğrunda gedən savaş onun son döyüşü oldu.

Müharibənin qızğın çağında hərbi hədəflərin məhv edilməsindən sonra Ramizin idarə etdiyi "Mi-17" hücum vertolyotu geri dönən zaman Tərtər rayonunun Azad Qaraqoyunlu istiqamətində Ermənistan Hərbi Hava Qüvvələrinin Hava Hücumundan Müdafiə Qoşunlarının bölmələri tərəfindən vurulur. Nəticədə vertolyot sürətlə hündürlüyünü itirməyə başlayır. Ramiz Qasımov dərhal bortda olan digər 2 nəfər heyət üzvünə vertolyotdan "atılma" əmrini verir. Özü isə 1500 nəfərin yaşadığı kəndə düşməməsi üçün sürətlə hündürlüyünü itirən helikopteri xüsusi ustalıqla boş sahəyə tərəf istiqamətləndirməyə başlayır. Nəhayət, Ramiz Qasımov vertolyotla yaşayış məntəqəsindən uzağa, boş sahəyə istiqamətlənir. O, son anda vertolyotdan atılsa da, başından ağır zərbə alır. Onu dərhal Bərdə Rayon Xəstəxanasına, sonra isə Silahlı Qüvvələrin Baş Hospitalına gətirirlər. 25 gün koma vəziyyətində qalandan sonra oktyabrın 22-də şəhidlik məqamına ucalır.

Polkovnik-leytenant Ramiz Qasımov II Şəhidlər xiyabanında dəfn olunub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli sərəncamına əsasən Ramiz Qasımov "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb. Dövlət başçısının digər sərəncamlarına əsasən, Ramiz Qasımov ölümündən sonra "Vətən uğrunda", "Ağdamın azad olunmasına görə" və digər medallarla təltif edilib.

### Onun məhv etdiyi qurğular

"Dəmir qanadlı" Ramiz Qasımovun rəhbərliyi altında müharibə zamanı "Mi-17" hücum vertolyotu ilə "Dağlıq Qarabağ" arsenalında olan 3 ədəd "9K33 OSA" Zenit Raket Kompleksi məhv edilmiş və qarşı tərəfə ümumi olaraq 30 milyon 900 min ABŞ dolları məbləğində ziyan dəymişdir. Ramiz Qasımovun rəhbərliyi altında məhv edilən dörd qurğudan üçü motoatıcı diviziyanı və başqa qüvvələri aşağıdan uçan hava hücum silahlarından qoruyan "9K33 OSA" özüyeriyən Zenit Raket Kompleksi olub. Həmin qurğuların Rusiya Federasiyasında istehsal olunduğu və Ermənistan Silahlı Qüvvələrinə satıldığı məlumdur. Ermənistan Silahlı Qüvvələri tərəfindən isə qurğuların bir qismi qanunsuz olaraq Azərbaycanın işğal altında olan ərazilərinə yerləşdirilir və qondarma "Dağlıq Qarabağ" Müdafiə Ordusunun tabeliyinə verilirdi. Ramiz Qasımovun rəhbərliyi altında məhv edilən dördüncü qurğu isə Rusiya istehsalı olan Repellent "P-19" radiolokasiya stansiyasıdır. Həmin qurğu uzaq məsafədən Pilotsuz Uçuş Aparatlarının idarəetməsini ələ alır, onun iş rejimini pozur və məhvinə səbəb olur. Müharibə zamanı ordumuzun arsenalında olan PUA-lardan geniş istifadə olunmaqla həmin qurğuların məhv edilməsi önəmli hədəflərdən biri idi.

**Polkovnik-leytenant Rəşad Nadirov, döyüş yoldaşı:**

– Ramiz Qasımov usta pilot idi. Pilotlar üçün bundan yüksək zirvə yoxdur. Ordu aviasiyasında olan bütün tip vertolyotlarda uçuşları vardı. O, həm təlimatçı, həm də sınaqçı pilot olub. Bütün yeni növ silahların tətbiqinə buraxılışı vardı. Ölkəmizin əldə etdiyi yeni növ silahların tətbiqini gənclərə öyrədirdi. Helikopterin vurulma anında özünün atılma imkanı vardı. Amma təcrübə cəhətdən daha gənc pilotların kabinədən öncə çıxmasına şərait yaratdı. Heyət üzvləri atılandan sonra həmin təhlükəli anda da o, yaşayış məskəninə düşməmək, dinc sakinlərə xətər toxundurmamaq üçün vertolyotu boş sahəyə yönəltmişdi. Amma saniyələr gedir, vertolyot sürətlə enirdi. Ramiz Qasımov yaşayış məskənindən uzaqlaşdığına əmin olduqdan sonra helikopteri tərk etdi. Onun paraşütü açılmışdı, amma elə səmada atəşə tuş gəldi.

Onu da deyim ki, şəhid polkovnik-leytenant Ramiz Qasımov artıq uzun müddət idi təqaüd imkanı əldə etmişdi, ordu sıralarından gedə bilərdi. Amma o, Vətənə xidməti müqəddəs iş hesab edirdi. Deyirdi ki, dövlət bizi oxudub, yetişdirib. Ona görə, biz bu dövlətə canımızı fəda etməliyik. Ordu sıralarından ayrılsaydı, daha yüksək məvacib ala bilərdi, mülki hava yollarında uça bilərdi. O, bir neçə xarici dil bilirdi, xeyli fərqlənmələri vardı. Amma qəlbindəki Vətən sevgisi, Qarabağı azad etmək arzusu onu şəhidlik zirvəsinə ucaltdı.

**Kapitan Coşqun Rüstəmov, döyüş yoldaşı:**

– Polkovnik-leytenantla biz digər ekipaj üzvləri ilə döyüş uçuşuna qalxdıq. Ramiz Qasımov "SPAYK" uzunmənzilli raketlərlə silahlanmış "Mi-17" helikopterində uçuşlar həyata keçirirdi. İlk uçuşunda düşmənin bir çox strateji əhəmiyyətli hədəflərini sıradan çıxardı, həmçinin bir neçə OSA zenit raket kompleksini və P19 radiotexniki vasitəsini məhv etdi. Onun idarə etdiyi hücum vertolyotu əməliyyat zamanı təyin olunan vaxtdan 20 dəqiqə tez havaya qalxmışdı. Düşmənə sarsıdıcı zərbələr endirdikdən sonra atəşə məruz qaldı, helikopteri vuruldu. Son anda helikopteri paraşütlə tərk etməyə nail olsa da, başından ağır zərbə aldı. Helikopterdən vaxtında atılsaydı, bəlkə də sağ qalardı. Amma o özünü yox, ilk növbədə, ekipaj üzvlərini və mülki əhalini düşündü.

**Baş leytenant Türkay Qəni:**

– Bir də gördüm telefonuma zəng gəldi. R. Qasımov idi. Dedim: – Komandir, sənsən? Necəsən? Rəhbərliklə danışmaq istədiyini bildirdi. Telefonu rəhbərliyə verdim. Komandirin tapşırığı ilə xəstəxanaya getdim. Onu həmişə şux, xidmətdə görmüşdüm. Amma reanimasiyada o vəziyyətdə görmək çox ağır idi. Şəhidlər unudulanda ölür. O heç vaxt ölməyəcək. İstər silah sisteminin, istərsə də vertolyotun öyrənilməsində polkovnik-leytenant R.Qasımov bizim üçün bir pedaqoq idi. Onu itirmək bizə ağır gəlir.

Ramiz Günel Qasımova ilə 2005-ci ildə ailə qurmuşdu. Şəhidin Gülanə və Gülay adında qızı, Vaqif adında isə oğlu yadigar qalmışdır. Günelin tibb təhsili olsa da, işləmir, uşaqların təhsil və tərbiyəsi ilə məşğul olur. O, 2002-ci ildə Bakı 1 saylı tibb texnikumunu bitirib.



**Günel Qasımova, həyat yoldaşı:**

– Ramizin fikri-zikri Qarabağ idi. Həmişə deyirdi ki, yetər ki, Ali Baş Komandan əmr versin, işğal altında olan torpaqlarımızı azad edək. Ən böyük arzusu Şuşada üçrəngli bayrağımızı dalğalandırmaq idi. Prezidentin əks-hücum əmri onun böyük sevincinə səbəb olmuşdu. Ailədə mənə, uşaqlara heç vaxt çətinlik yaşatmamışdı. Övladlarına həmişə hörmətlə yanaşırdı.





İşinin çox olmasına baxmayaraq, vaxt tapıb onların dərsləri ilə maraqlanırdı, gəzməyə aparırdı, qayğıkeş ata idi. Evdə olan hər problemi özü həll edirdi. Bu gün mənə çətindir, çiyinlərimdə ağır bir yük var. Amma, bu yükü necə olsa da daşımalıyam! Hər gün onun yolunu gözləyirəm. Hər gün uşaqlarımız barədə onunla söhbət edirəm. Gəlmir, özüm yanına gedirəm. Kaş sağ olaydı, Qələbədən özü danışaydı.

Həmişə deyirdi ki, Vaqif mənim yolumu davam etdirməlidir. Çalışırdı ki, övladları həyatda düzgün mövqe tutsunlar, ali təhsil alıb savadlı olsunlar. Sonuncu dəfə evə 2020-ci il sentyabrın 15-də gəldi. Vaqifi 1-ci sinfə yola saldı və 16-da xidmətə qayıtdı. Bir də onun haqqında vertolyotun vurulduğu xəbəri yayılanda eşitdik. 25 gün gecə-gündüz Allaha yalvarırdım ki, komadan ayılsın. Qolu amputasiya olunmuşdu. Amma problem beyinlə bağlı idi. Ayılmadı... Və mən heç vaxt ağlımdan keçirmədiyim həyatla üz-üzə qaldım. Ramizin bu həyatdan gedişindən sonra mənə çox çətin oldu.

Qəhrəmanımın uşaqları da atalarının yoxluğuna nə alışırlar, nə də bu ölümlə barışırlar. Gülanə Mədəniyyət və sənətkarlıq üzrə peşə məktəbində moda dizaynı ixtisası üzrə təhsil alır. Gülay Xətai rayonu 25 saylı tam orta məktəbin 10-cu, Vaqif isə 5-ci sinifdə oxuyur.

Söhbətimiz zamanı daha bir şəhid ailəsinin ağrısını duydum, həsrət könülün dərdinə məlhəm olmaq istədim. "Ramizin yanına gedirəm–Xiyabana" – deyən xanımın ürəyindən keçən məhrəm hissləri nə tərpətmək, nə də duyğulandırmaq istədim. Beləcə, uşaqlarını böyütmək, təhsil vermək yolunda bir ömrü savaşda keçəcək xanımdan ayrıldım. Qəlbimdə ağrı, ürəyimdə yük ilə... Ayrılıq dərdini yaşayan bilər. Onun dərdi mənə tanışdı. Göz yaşları, köks ötürməsi, fikirlərini dilə gətirib yarımçıq kəsməsi, narahat oturuşu, ürkək və nigaran baxışları insanda yerə-göyə üsyan etmək istəyini qabardır. "Müharibə nə qədər gənc xanımların necə gözəl hisslərini məhv etdi" düşünürsən və yağı düşmənə nifrətin birə-beş artır. Şəhidin ömür-gün yoldaşının son sözləri məni xəyaldan ayırır:

– Mən onun qəhrəmanlığı ilə, Vətəni bu qədər sevib canını bu yolda fəda edib şəhidlik zirvəsinə ucalmağı ilə güc tapıram. Artıq dörd il olur onun bu həyatdan gedişi. İllər keçsə də bu yara, bu dərd heç bir zaman sağalmayacaq və duşmənin bizə vurduğu zərbə heç zaman bağışlanmayacaq. Ramiz qəhrəmanlıq, igidlik rəmzidir. Ramiz cəsurluğun, qorxmazlığın rəmzidir. Ramiz Qasımov vətənpərvərliyi, Ramiz Qasımov şücaəti, savadı, əqidəsi hər zaman gələcək nəsillərə örnək olacaq. Mənim bu həyatda ən böyük mükafatım Ramiz Qasımovun həyat yoldaşı olmağımdır. Mən onunla qürur duyuram! Uşaqlarımızı onun istədiyi kimi böyütməyə, onun adına layiq olmalarına çalışacağam. Qismət belə imiş. Təki, Vətən sağ olsun.

*Zərifə BƏŞİRQIZI*
*XQ*

# Mingəçevir: Nur şəhərinin gur yüksəlişi

## Şəhərin bu günü sabahına açılan geniş qapıdır

**Mən bu şəhər haqqında çox yazmışam. Zəhmət adamları ilə dəfələrlə görüşmüş, park və xiyabanlarını, bəlkə də, şəhər sakinləri qədər gəzmişəm. Mingəçevir ölkənin hər gecəsini, mən isə qələmlə bu şəhərin bir neçə gecəsini "işıqlandırmışam". Tikinti, quruculuq, abadlıq sahələrindəki göstəricilər ildən-ilə dəyişdiyinə, uğurlar artdığına görə həmişə yeni yazılara ehtiyac olub. Mingəçevirlilər yeni nailiyyətlərə imza atmaqdan yorulmadıqları kimi, mən də bu gözəl şəhər haqqında söz açmaqdan usanmamışam. Həmişə də Kürün üstündəki qağayıları xoşbəxt adlandırmışam ki, onlar "Nur şəhəri"nin gözəlliklərini yerə qonanda da görə bilirlər, suyun dalğalarında da, göyün üzündə də...**



### Yeni xiyaban – yeniləşmənin timsalı

Təxminən 3 ayın söhbətidir. Mingəçevirdəki Heydər Əliyev prospektində –20 Yanvar və Mirzə Fətəli Axundov küçələrinin aralığında yerləşən Xiyabanda görülən quruculuq və əsaslı təmir işlərinə baxış keçirilirdi. Tədbirdə biz – mətbuat təmsilçiləri də iştirak edirdik. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov dedi ki, ölkə Prezidenti İlham Əliyevin tapşırığı ilə respublikanın hər yerində olduğu kimi, Mingəçevirdə də reallaşan quruculuq işlərinin sahəsi genişlənir. Şəhər icra hakimiyyətində təsdiq olunmuş cari ilin tədbirlər planına müvafiq olaraq sakinlərin rifah halının yaxşılaşdırılması, mənalı istirahətinin təmin olunması üçün parklarda və istirahət məskənlərində yeni əlavələr edilir, nümunəvi məhəllələr yaradılır, uşaqların və gənclərin sağlamlığı üçün idman və əyləncə qurğuları quraşdırılır.

Mətbuat işçilərinin suallarını cavablandıran şəhər rəhbəri bildirdi ki, Mingəçevirin gözəlləşməsi, sakinlərin rahatlığı üçün küçə və məhəllələrdə yeni layihələrə başlanılıb, nümunəvi məhəllələr yaradılır, yaşıllığın qorunması üçün suvarılma işləri aparılır. Əsas məqsədimiz vətəndaşların mənalı istirahətinin təminatı üçün gözəl şərait yaratmaqdır.

### Burada zamanın səsi duyulur

Azərbaycanın beynəlxalq aləmdəki nüfuzunun gündən-günə artması, İkinci Qarabağ müharibəsindən sonra yaratdığımız yeni reallıqlar, ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı fərman və sərəncamlara uyğun olaraq başlanan regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində Mingəçevirdə ötən illər ərzində genişmiqyaslı işlər həyata keçirilib. Şəhər icra hakimiyyətinin buradakı sosial-iqtisadi inkişafın vəziyyəti və qarşıda duran vəzifələr haqqında hesabatlarında bu, xüsusilə vurğulanır. Qeyd etmək yerinə düşər ki, həmişə olduğu kimi, bu il görülən quruculuq işlərinin sahəsi daha da genişlənib. Şəhər rəhbərliyinin birbaşa nəzarəti ilə aparılan əsaslı təmir və abadlıq işlərinə məsuliyyətlə yanaşılır. Və yerlərdə işlərin gedişatı ilə bağlı monitorinqlər keçirilir.

### Mingəçevirin həmin günlərinin şahidi olanlardan kim yaşayır?

Bakıya gələndə tez-tez keçmiş iş yoldaşımız, qocaman həmkarımız, Əməkdar jurnalist İttifaq Mirzəbəyli ilə paytaxtın müxtəlif muzeylərinə baş çəkirik. Bir dəfə o mənə dedi ki, sən Mingəçevirin 75 illiyi münasibətilə mükəmməl bir qəzet materialı hazırlamışdın. Ancaq həmin gün yada salınmalı bir faktı niyə unutmuşdun, bilmədim. Soruşdum, hansı faktı? Dedi ki, Mikayıl Abdullayevin 1948-ci ildə çəkdiyi "Mingəçevir işıqları" tablosunu.

Həmkarım həmin tablonun fotosunu internetdən tapıb mənə göstərdi, baxdım və böyük rəngkarın təxəyyülünə min rəhmət oxudum. Mən o tablonun çəkilməsindən 11 il sonra dünyaya gəlsəm də, elə bildim ki, həmin tablodakı mənzərənin şahidi olmuşam və necə xatirələr yaşadımsa, bir Allah bilir.

Xatırladım ki, dünya şöhrətli rəssamın Azərbaycan Milli İncəsənət Muzeyində saxlanan bu əsərində Kür çayının sahillərində inşa edilən Mingəçevir Su Elektrik Stansiyası əks olunub. Ən maraqlısı odur ki, çayın hər iki sahilindəki elektrik fənərləri Mingəçevirin ilk işıqlarıdır. Sol tərəfdə Bozdağ görünür. Qabaqda hansısa keçid məntəqəsi, tikintidə iştirak edənləri görməyə gəlmiş insanlar, ekskavatorlar, traktorlar... Sanki Səməd Vurğunun "Muğan" poemasının rəngli təsviridir.

Ən maraqlısı isə odur ki, bu əsər elə çəkildiyi il Moskvada, sonra Buxarest, Sofiya, Belqrad, Tirana, Praqa, Paris, Monreal şəhərlərində və Livan, İraq, Suriya kimi ölkələrdə də nümayiş etdirilib. Yəni dünya ölkələri Mingəçeviri təkcə bu gün deyil, hələ ötən əsrin 40-cı illərindən tanıyırdı.

Mənə 60 illik yubileyimdə Mingəçevir icra hakimiyyətində bir tablo hədiyyə etdilər. Əsərin müəllifinin kim olduğunu bilməsəm də bu qiymətli hədiyyəni böyük məmnuniyyətlə gətirib "Xalq qəzeti"nə hədiyyə etdim. Mingəçevir Su Elektrik Stansiyasının, ilk dəfə qoyulan "Ana dili" abidəsinin işığa bürünmüş tablosu indi redaksiyamızda otaqlardan birini bəzəyir. Redaksiyaya hər gəlişimdə həmin otağa mütləq girirəm, divardan asılmış bu əsərə tamaşa edirəm. Sanki, canımdan yorğunluğum çıxır, əsəblərim sakitləşir. Nə isə...

### 1948-ci ilə açılan pəncərə

Mingəçevirə hər gəlişimdə bu şəhərdəki həmkarlarımızın iş yerinə gedir, "Mingəçevir" qəzetinin yeni nömrəsini vərəqləyirəm. Qəzetin redaktoru ilə mətbuatın bugünkü problemlərindən, qayğılarından danışırıq. Tələbə yoldaşım Mirsədi Daşdəmirov bir dəfə söhbət zamanı bildirdi ki, qəzet əvvəllər "Mingəçevir işıqları" adıyla çıxıb. Bu 1948-ci ildə şəhərin yaradılmasında iştirak edənlərin hazırladığı divar qəzetinin adından götürülüb. 1948-ci ildən "Mingəçevir inşaatçısı", 1954-cü ildən "Mingəçevir işçisi" adı ilə nəşr olunub və 1965-ci ildən "Mingəçevir işıqları"na çevrilib. Uzun illər bu qəzet Əməkdar jurnalist Fidail Abdullayevin rəhbərliyi ilə işıq üzü görüb. Ruhu şad olsun!

Doxsanıncı illərin əvvəlində ölkənin bütün qəzetləri kimi "Mingəçevir işıqları" da çoxsaylı problemlərlə üzləşmiş və fəaliyyəti dayanmışdı. 1999-cu ildən sonra isə "Nur şəhəri"nin qəzeti adına layiq fəaliyyət göstərir. İndi bu qəzetin istənilən materialı ürək açır. Şəhər icra hakimiyyəti başçısının səyyar qəbulları, ictimai-siyasi məzmunlu, mədəni və elmi-kütləvi tədbirlər, idman yarışları, şəhərin rəsmi qonaqları, tikinti-quruculuq işlərinin genişlənməsi, iqtisadi sahədəki uğurlar... Bir sözlə, mingəçevirli həmkarlarımız üçün, sözün həqiqi mənasında, mövzu bolluğu mövcuddur.



### Şəhidlər əzizdir, ata-anaları urvatlı

Bu ilin avqustunda mənə məlumat vermişdilər ki, şəhər icra hakimiyyətinin başçısı sakinlərlə növbəti görüş keçirəcək. Dəqiq vaxtı bilməsəm də icra hakimiyyətinə getdim. Məlum oldu ki, İlham İsmayılov xəstəxanaya, müalicə alan şəhid valideynlərinin yanına gedib.

Öyrəndim ki, hər iki övladı şəhid olmuş Sevinc Əhmədova və Birinci Qarabağ müharibəsi şəhidinin həyat yoldaşı Arzu Xəlilova Mingəçevir Mərkəzi Xəstəxanasında müalicə alırlar. İcra hakimiyyətinin başçısı illərdən bəri formalaşdırdığı ənənəni davam etdirərək, həmin şəhid valideynlərinə baş çəkməyə gedibmiş. Görürsünüzmü, hər zaman olduğu kimi, yenə də bu qəbildən olan insanlara hər zaman qayğı göstərilir, diqqət ayrılır. Xəstəxananın rəhbərliyinin təkcə bu iki xəstənin deyil, ümumiyyətlə, bütün şəhid ailələrinin və qazilərin səhiyyə ilə bağlı istənilən probleminin yüksək səviyyədə həll etdiyini istənilən mingəçevirli təsdiq edə bilər.

### Rəqəmlərsiz keçinmək olmur

Həmişə belə olur. İstənilən yazını qələmə alanda düşünürəm ki, bu dəfə heç bir rəqəmdən istifadə etməyəcəm. Ancaq neyləmək olar, mingəçevirlilərin fəaliyyət dairəsi geniş olduğu kimi, uğurları da çoxdur. Həmin göstəricilərin hamısı isə rəqəmlərlə ifadə olunur. Ona görə də əvvəllər olduğu kimi, bu dəfə də rəqəmlərdən qaça bilmirik.

Məsələn, şəhər icra hakimiyyətinin müvafiq qurumundan aldığımız məlumatda deyilir ki, Azərbaycan İES ərazisindəki yaşayış massivində Mənzil Kommunal Təsərrüfatı Kombinatı işçilərinin bilavasitə iştirakı ilə ötən 5 il ərzində 59 yaşayış binasında əsaslı təmir işləri aparılıb, 232 giriş dəhlizi və binaların fasadları təmir olunub, 5 nümunəvi məhəllə yaradılıb. Ərazidə 15 küçə, 31 dalan və 5 nümunəvi məhəllədə asfaltlanma işləri aparılıb, 25 küçədə dirəklər quraşdırılıb, yeni işıqlanma nöqtələri yaradılıb.

İlin əvvəlində tərtib edilmiş tədbirlər planına uyğun olaraq bu ilin sonunadək yaşayış massivində dövlət proqramının növbəti mərhələsi olaraq kanalizasiya sistemi yenidən quraşdırılmaqla 2 nümunəvi məhəllənin yaradılması işlərinə başlanılıb. Küçələrdə və dalanlarda işıqlanma nöqtələri yaradılmaqla yeni işıq dirəkləri quraşdırılacaq. Ərazidə binaların qarşısında 30 oturacaq, 10 söhbətgah qoyulacaqdır ki, bu da vətəndaşların rifah halının yaxşılaşdırılmasına, səmərəli istirahətinə imkan yaradacaqdır. Kanalizasiya sisteminin çəkildiyi bu binaların ətrafının asfaltlanması, bordürlərin qoyulması işləri də mərhələli şəkildə davam etdirilir.

### Yeni qəhrəmanlar

Yaşadığımız günlər İkinci Qarabağ müharibəsinin qətiyyətlə başlanıb, Zəfərlə qurtarmasını əhatə edən 44 günün dördüncü ildönümünə təsadüf edir. Mingəçevirlilərin bu məzmunda söyləməli olduğu faktlar yetərincədir. Yüzlərlə gənc "Nur şəhəri"nə üzağlığı gətirib. Elə bir əlamətdar gün olmur ki, şəhər rəhbərliyi ictimaiyyət fəalları ilə birlikdə "Şəhidlər xiyabanı"nı ziyarət etməsin. Elə bir şəhid ailəsi yoxdur ki, onun evinə baş çəkilməsin. Elə bir qazi yoxdur ki, şəhərdə kiməsə müraciət etsin və cavabsız qayıtsın.

"Anım günü" ilə bağlı tədbirlər planına əsasən Mənzil Kommunal Təsərrüfatı Kombinatının xidməti ərazisində olan şəhid bulaqları və lövhələri səliqə-səhmana salınaraq, təmizlənib, bayraqları yenisi ilə əvəz olunub, ərazidə ağac və gül kolları əkilib.

Yeri gəlmişkən, Mingəçevirdəki "Şəhidlər xiyabanı"nın ilk "sakini" Vaqif Yaqub oğlu Ağakişiyevdir. Vaqif 1992-ci ildə Xocalı faciəsinin acılarına dözməyərək "Vətən dardadır!" – deyərək döyüşə yollanıbmış. 24 yaşında, nişanlı bir gənc idi. Mingəçevirin könüllülərdən ibarət batalyonuna qoşulmuşdu. Bacısının dediyinə görə, Vaqif cəbhəyə gedəndə Mingəçevirdə hələ "Şəhidlər xiyabanı" yox idi. Həmin yerdə 20 Yanvar şəhidlərinin rəmzi xatirə kompleksi var idi.

"Burada "Şəhidlər xiyabanı"nın həqiqi şəhidləri biz olacayıq. Vətən yolunda ölmək var, dönmək yoxdur" deyən Vaqif hər iki sözünün üstündə durub. Həm geri dönməmək barədə, həm də mingəçevirlilərin and yerinin ilk sakini olduğuna görə.

Söyləyirlər ki, qızğın döyüşlər gedən zaman Vaqif başından yaralanır. Yoldaşları onu döyüşdən çıxarmaq istəyəndə deyir ki, mən cəbhəyə gələndə söz vermişəm ki, öldü var, döndü yoxdu. Geri çəkilmir. Döyüş yoldaşlarına deyir ki, üstümüzə tank gəlir, geri çəkilin. Əlinə qumbaranı alıb tankın qarşısına gedir və... həm zirehli tankı, xeyli erməni əsgərini, həm də özünü partladır. Bu zaman 14 nəfər mühasirədə olan döyüşçü yoldaşları xilas olur.

### Kür sahilində teatr...

Mən bilən teatr həvəskarları da, mədəniyyət işçiləri də "çay kənarında teatr" və ya "bilet satılmayan tamaşa" ifadələrini o qədər də tez-tez eşitmirlər. Amma Mingəçevir sakinləri bu il həmin tamaşanı gördülər. Həmin gün Mingəçevir Dövlət Dram Teatrının 57-ci mövsümünün təntənəli açılışı, şəhər sakinləri və teatrsevərlərin marağına səbəb olan unikal bir sənət bayramına çevrildi. Kür sahilində baş tutan tədbir şəhərin mədəni həyatında əlamətdar bir hadisə olaraq yadda qaldı. Mingəçevir Şəhər İcra Hakimiyyəti, Ağdaş Regional Mədəniyyət İdarəsi, Mingəçevir Dövlət Universiteti, eləcə də şəhərin media nümayəndələrinin iştirakı ilə keçirilən tədbir, teatrın milli-mədəni dəyərlərimizin təbliği istiqamətindəki fəaliyyətinə yeni bir nəfəs verdi.

O tədbirdə iştirak eləmiş bir jurnalist dostumuz danışır ki, səhnədəki obrazlar tədbirin əsas diqqət mərkəzində idi. Hər biri özünəməxsus xarakter və rəngarəngliklə təqdim olunan bu obrazlar teatrsevərlərdə xüsusi təəssürat yaratdı. Klassik qəhrəmanlardan tutmuş, müasir Azərbaycan dramaturgiyasının obrazlarına qədər geniş spektrdə təqdim olunan bu səhnə əsərləri teatrın 57-ci mövsümündə hansı yeniliklər vəd etdiyini göstərirdi. Səhnədəki obrazların bir çoxu dərin fəlsəfi məna daşıyır, milli-mənəvi dəyərləri ifadə edir, tamaşaçını düşünməyə və teatrın gələcək tamaşalarını izləməyə çağırırdı.

Amma digər iştirakçının fikrincə, həmin gün teatr tamaşasının ədəbi-fəlsəfi tərəflərini qiymətləndirənlərə nisbətən xoş istirahət günü keçirənlər daha çox idi. Çünki həmin gün səhnədə yaradılan obrazlar, şeirlər və musiqi nömrələri teatrsevərlərin və şəhər sakinlərininin maraq dairəsinə aid idi.



### Toplanan bal qədər pul mükafatı

Bu il "Nur şəhəri"ndə yaranan yeni bir ənənənin şahidi olduq. Belə ki, Mingəçevir Dövlət Universitetinin həyatında təşkil olunan mərasimdə təhsil ocağının professor-müəllim heyəti, qonaqlar, tələbələr, valideynlər, ictimai şura üzvləri, şəhid ailələrinin üzvləri, qazilər, mətbuat işçiləri iştirak edirdilər. Şəhər icra hakimiyyətinin başçısı İlham İsmayılov çıxış edərək ölkə rəhbəri İlham Əliyevin təhsilə və təhsil işçilərinə göstərdiyi diqqət və qayğıdan danışdı. Vurğuladı ki, uzun illərdən sonra ilk dəfə olaraq dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, qəhrəman əsgər və zabitlərimizin şücaəti ilə azad olunan torpaqlarımızda bu gün 8-ə yaxın orta məktəbdə ilk zəng çalındı, Qarabağ Universiteti fəaliyyətə başladı. Bu torpaqlarda həyat yenidən bərpa olunur. Bu gün biz Mingəçevir Dövlət Universitetinin uğurlarından fərəhlə danışır, şəhərimizə verdiyi töhfələrdən bəhs edirik.

Şəhər rəhbəri qətiyyətlə dedi ki, Mingəçevirin ictimai-siyasi həyatında MDU-nun xüsusi yeri vardır. Ötən illərdə universitetin sahəsinin genişləndirilməsi, təhsilin keyfiyyətinin artırılması məqsədi ilə inşasına başlanan yeni korpusda işlər davam edir. Əminliklə demək olar ki, yeni təhsil korpusları hər cür ləzavimatlarla, texniki vasitələrlə təchiz olunmaqla istifadəyə veriləcək və burada tələbələrin sayı artaraq 10 min nəfərə çatdırılacaqdır. Bu gün regionda öz nüfuzu ilə seçilən Mingəçevir Dövlət Universiteti yeni-yeni uğurlara imza atacaqdır.

Çıxışlardan və təbriklərdən sonra universitetdə 500 və ondan yuxarı bal toplayan tələbələrə topladıqları balın miqdarında birdəfəlik pul mükafatları verildi, xatirə şəkilləri çəkdirildi.

### "Nur şəhəri" – göz bəbəyi

Vətən Müharibəsi Qəhrəmanı Səfər Qurban oğlu Qurbanovun xatirələri əlimə keçmişdi. Oxudum, xoşuma gəldi. Maraqlıdır. Siz də tanış olun:

"Yuxarı komandanlıqdan tapşırıq verildi, xüsusi önəm kəsb edən Mingəçevir şəhərinin havadan müdafiəsi bizə tapşırıldı. Ora bir raket belə düşməli deyildi. Əks halda, mülki əhali arasında çox böyük itkilər ola bilərdi. Düşmənin olduqca hiyləgər və rəzil olması da deməyə əsas verirdi ki, Mingəçeviri, hava hücumundan müdafiəsi bizə tapşırılan İstilik Elektrik Stansiyasını və Su Elektrik Stansiyasının bəndini hədəf alacaqlar. Biz öz döyüş tapşırığımızı, fəaliyyətimizi yerinə yetirmək üçün Mingəçevirdə döyüş mövqeyimizi tutduq. Cəbhədən bir-birinin ardınca sevincli xəbərlər alırdıq. Bilirdik ki, ermənilər qarşımızda çox da tab gətirməyəcəklər, qaçacaqlar. Eyni zamanda, hücumu dayandırmaq üçün həmin günlərdə mülki əhalini hədəf alırdılar, Bərdəni raket atəşinə tutmuşdular.

Oktyabrın 9-da 14:31 radələrində düşmən Mingəçevirə istiqamətlənən "Elbrus" taktiki operativ raket atdı. Bu, olduqca qorxulu, məhvedici bir raketdir. Sonradan Gəncə şəhərinə, dinc əhalini hədəf alan zaman da məhz "Elbrus"dan istifadə etmişdilər. Oktyabrın 9-da Mingəçevirə atdıqları "Elbrus"u izləyib qoruduğumuz şəhərin üzərində, 23 kilometr hündürlükdə "S300" zenit-raket kompleksi ilə havada məhv etdik. Həmin günlərdə sayıqlığımızı bir saniyə belə itirmədik, yuxarı komandanlığın tapşırığının icrası üçün gecə-gündüz bilmədən xidmət apardıq".

### İsmayıl müəllimin dedikləri...

Azərbaycan Yazıçılar Birliyinin Mingəçevir bölməsinin sədri İsmayıl İmanzadəyə hamı ağsaqqal kimi baxır. Əslən Cəbrayıl rayonundandır. Hər dəfə Mingəçevirdə olanda çalışıram ki, ona baş çəkəm, ağsaqqal, böyük məsləhəti alam. Dünyadan vaxtsız köçmüş, unudulmaz Hüseyn Əfəndinin yaxın dostu olub. Həmişə də söhbətimizdə bizim üçün doğma olan o insanı dönə-dönə xatırlamışıq. İsmayıl İmanzadə neçə-neçə kitabın müəllifidir. Poeziyanın təəssübünü çəkən adamdır. Bir dəfə Bakıya gedirdim. Mənə zəng vurdu. "Bu gün Fəxrəddin Əziz adlı bir şairin yubileyini keçirdik, – dedi, – Allah rəhmət eləsin! Bir misrasını deyim, özün qiymət ver.

**Vallah şair olmasaydım,**
**Almazdım şeirin vaxtını**.

Misra məni yaman tutdu. Qəzetimizdə həmin tədbirlə bağlı xəbər də verdik. Gözəl şeirləri olan, bir sözlə şeirin vaxtını almayan İsmayıl müəllimə xüsusi təşəkkür elədim.

Bu dəfə onunla söhbətimizi sahil boyunca, gəzə-gəzə davam etdirdik. Onunla danışanda, sözün həqiqi mənasında, nikbinlik dərsi alırsan. "Bizim ölkəmizin də, xalqımızın da, Mingəçevirimizin də daha xoş günləri hələ qabaqdadır", – deyir. – Biz hələ çox əlamətdar günləri qeyd edəcəyik. Bunu dövlət başçımızın siyasəti, xalqımızın əzmi, iradəsi sübut edir.

Şəhər icra hakimiyyətinin başçısı, az qala, hər həftə bir məhəllənin sakinləri ilə görüşür. Özü də, həmin görüşlərin hamısının xeyiri, səmərəsi olur. Bu gün Mingəçevirin dövlət başçımızın arzuladığı səviyyədə abadlaşdırılması da, insanların rifah halının yaxşılaşdırılması da, turistlərin və şəhərimizin qonaqlarının gündən-günə çoxalması da şəhərə rəhbərlik edən adamın Mingəçevir sevgisinin nəticəsidir.

***

"Mingəçevir sevgisi"– bu ifadə, az qala, Bakıya çatanadək beynimdə təkrarlandı. Sonda əziz müəllimimiz Cahangir Məmmədlinin bir ifadəsini xatırladım: İstənilən məsələdə, işiniz, fəaliyyətiniz, qarşıya qoyduğunuz məqsədə sevginiz yoxdursa, hansısa müsbət nəticə gözləməyə dəyməz.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

**Mingəçevir**

Azərbaycanı xaricdə tanıdanlar

# "Ginnesin rekordlar kitabı"na düşmüş ilk soydaşımız

**Bazar günü dostum Hamlet Mehdiyev sosial şəbəkədə sinif yoldaşları ilə görüşündən şəkillər paylaşaraq, Avropadan gəlmiş dünyaca məşhur qrafika ustası Fəxrəddin Vəliyevin də Sumqayıtda olduğunu bildirmişdi. Dərhal zəng edib, 17 nömrəli məktəbdə məndən bir sinif yuxarıda oxumuş Fəxrəddinin özü ilə əlaqə saxladım və elə həmin gün gənclik şəhərindəki məşhur "Göyərçin" abidəsinin yanında görüşməyi vədələşdik. Ora gedib çatanda gördüm ki, artıq məni gözləyir.**



Doğrusu, məktəbdə oxuduğumuz vaxt Fəxrəddinin qeyri-adi qabiliyyətinin olduğunu bilmirdim. Çox sonra öyrənmişdim ki, onun adı "Ginnesin rekordlar kitabı"na düşüb. Həm də bu fakt Azərbaycan üçün bir ilk olub. O, insanın üzünə bir dəfə baxıb, qayçı ilə kağızda onun siluet obrazını anındaca yaradan, həm də heyrətamiz dərəcədə oxşadan nadir sənətkardır.

Uzun illərdən sonrakı görüşümüzdə həm xatirə yağışına düşdük, həm də çoxdan Avropada yaşayan sənətkarın uğur hekayəsi ilə tanış oldum. Əvvəlcə Sumqayıt üçün qəribsədiyini bildirdi, köhnə dostlarını yada saldı və qarşımızdakı qeyri-adi abidəyə işarə ilə onun müəllifinin mərhum dostu Vaqif Nəzirov olduğunu söylədi. Mən də dedim, bilirəm, Vaqif Nəzirov uzun illər Sumqayıtın baş rəssamı olub. Sonra da əlavə etdim ki, məncə, Azərbaycanın başqa heç bir şəhərində belə bir vəzifə olmayıb. Elə bu fikirlərin mabədi kimi sənət haqqında söhbətimizə davam elədik.

İstedadlı qrafika ustası 2004-cü ildə 5 dəqiqəyə 20 nəfərin siluetini çəkməklə, yəni hərəyə cəmi 15 saniyə vaxt sərf etməklə dünya şöhrəti qazanıb. 1992–1995-ci illərdə Yunanıstanda və Türkiyədə, sonra başqa ölkələrdə fərdi sərgiləri təşkil edilib. Avropanın böyük şəhərlərinin mərkəzi meydanlarında ona öz bacarığını göstərməsi üçün yerlər ayrılıb. 2003-cü ilin dekabrında məşhur "Belqium" muzeyində Belçika kraliçasının rəsmini çəkib. Kraliça soydaşımıza məktub vasitəsilə təşəkkürünü bildirib.

Fəxrəddin Vəliyev azərbaycanlı sənət adamı kimi Belçika, İspaniya və Fransada yaxşı tanınanlardan biri olmaqla bərabər, ölkəmizi və millətimizi xaricdə təbliğ edəbilməsi ilə öyünən soydaşımızdır. Fransız, ingilis, alman dillərini mükəmməl bilir, özü də çox mütaliəli və ünsiyyətcildir deyə, əcnəbilərlə asan dil tapır. Bu barədə danışmağı sevməsə də, diaspor fəaliyyətinin və fərdi qaydada gördüyü xeyriyyəçilik işlərinin bir qismini aşkarlaya bildim. Belçika Krallığındakı Avropa–Azərbaycan mərkəzinin vitse-prezidenti kimi örnək fəaliyyətləri ilə də tanınıb. Hazırda Fransada, O-de Frans bölgəsinin mərkəzi olan Lill şəhərində, Belçika sərhədinin 10-15 kilometrliyində yaşayır, orada da qeyri-adi sənət qabiliyyətini nümayiş etdirə bilib. Üstəlik, bir Azərbaycan türkü kimi hörmət-izzət qazanıb.

Onunla qəhvə içə-içə 1 saatdan çox söhbət elədik. Sənətdən, millətlərarası münasibətlərdən danışdıq. Fransa haqqında danışanda dedi ki, dövlətin, hökumətin siyasətini bir kənara qoyaraq, xalqın yüksək mədəniyyətə sahib olduğunu xüsusi vurğulamaq istərdim. Camaat sadədir, həssasdır.

– Qonşuluğumuzda bir tənha qarı yaşayırdı, – deyə davam elədi. – Evdəkilərə tapşırmışdım ki, ona qarşı diqqətli olsunlar, qayğı göstərsinlər. Təsəvvür edin, qarı dünyasını dəyişəndən sonra müvafiq qurumlar mənə zəng edərək bildirdilər ki, o, vəsiyyətnaməsində evini sizə bağışladığını yazıb, birlikdə qapısını açmaq, mənzilə baxıb təhvil-təslim etmək lazımdır. Mənim buna ehtiyacım yox idi, amma xahişə əməl edib ora getdim. Ev geniş idi, hər şeyi vardı. Mərhum qadının 1300-dən çox nadir kitabı olduğunu gördüm və dedim ki, evi istəmirəm, ancaq bu kitabları götürürəm. Beləcə, ailə kitabxanamı xeyli zənginləşdirdim...

Orta məktəb yoldaşlarımız haqqında da danışdıq. Əksəriyyəti ilə görüşdüyünü bildirdi. Dedi ki, məktəbi bitirməyimizdən yarım əsr ötsə də, əlaqələrimiz üzülməyib. Sinif yoldaşlarından bir qrupu onun Vətənə gəlişi münasibətilə ötən gün bir yerə toplaşaraq, xatirələrə dalıb, şənləniblər. Belə görüşlər həmişə yaddaqalan olur.

**Sinif yoldaşı Əbülfəz Bünyadov da Fəxrəddin bəylə hər görüşün ona unudulmaz təsir bağışladığını söylədi:**

– Mən hüquqşünasam, – dedi, – amma onunla hər söhbətdən sonra incəsənətlə bağlı bilgilərimin xeyli artdığını hiss edirəm. Fəxrəddinin sənət yanğısına heyranam. Həmişə deyir ki, Azərbaycanda çoxlu istedadlar var, son dərəcə gözəl əsərlər yaradırlar. Amma onların xaricdə tanıdılması, populyarlaşdırılması işi zəifdir. Mədəniyyət qurumları, diaspor təşkilatları gərək bu amilə diqqəti artırsınlar. Bildiyim qədərincə, Fəxrəddin özü imkanları daxilində bu fəaliyyətlə də cani-dildən məşğul olur. Əziz dostuma uğurlar diləyirəm!

**Fəxrəddin Vəliyevin bacısı oğlu, 2 saylı Sumqayıt regional "ASAN xidmət" Mərkəzində çalışan Vətən müharibəsi qazisi, mayor Nəsir Zeyni onun haqqında iftixarla danışdı:**

– Fəxrəddin dayım bir neçə gündür ki, doğma Vətəndədir. 75 illik yubileyinə görə zövqlə bəzədilmiş, küçələri əlvan işıq effektləri ilə göz oxşayan şəhərimizi həvəslə gəzir, köhnə dostları ilə görüşür. Onun Sumqayıta ötən səfərindən 15 il keçir, öncəki səfəri də ondan 15 il əvvələ təsadüf edib. Amma daim ürəyi Azərbaycanla, Sumqayıtla bir vurub, bizimlə sıx əlaqə saxlayıb. Qayçı və kağızla bir neçə saniyəyə çəkdiyi siluetləri ilə məşhurlaşan və "Ginnesin Rekordlar Kitabı"na düşmüş ilk azərbaycanlı olan dayımla, sözün əsl mənasında, qürur duyuram.

**Kiyevdə yaşayan tanınmış soydaşımız – vokalçı, Ukraynanın Xalq artisti Qurbanəli Abbasovla telefon söhbətimiz də Fəxrəddin bəyin xarakter cizgilərini xeyli dolğunlaşdırdı:**

– Rusiya–Ukrayna müharibəsi başlananda ilk raket bizim evə düşmüşdü. Başımıza gələnlərdən xəbər tutan Fəxrəddin bəy və Fransadakı digər soydaşlarımız bizimlə əlaqə saxladılar, ailə üzvlərimizi Ukraynadan çıxarmağı məsləhət gördülər. Fəxrəddin bəy şəxsən hər cür kömək etməyə söz verdi. Onda qızımgil xaricdə idilər, geri qayıtmaq istəyirdilər, amma bu, mümkün olmadı. Mən gedib onları Fransaya apardım. Fəxrəddin bəy bizi öz əzizləri kimi qarşıladı və hər vasitə ilə yardımçı oldu: sığınacaq, əyin-baş və sair.

Bax, tale bizi Fəxrəddin bəylə belə görüşdürdü, onun şəxsində özümə gözəl bir dost tapdım. O, həm də heyrətamiz bir sənətin sahibidir. Qayçı ilə işləyən əllərinin, barmaqlarının sanki gözü var, anındaca olduqca oxşar siluetlər kəsib düzəldir. Xalqımızın belə oğulları ilə fəxr edirik. Var olsun!

***Əli NƏCƏFXANLI***
***XQ***

Rəşad Məcid – 60

# Ağcabədidə yubiley məclisi



**"525-ci qəzet"in baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, Azərbaycan Mətbuat Şurasının sədri, Əməkdar mədəniyyət işçisi, yazıçı, publisist Rəşad Məcidin 60 illik yubileyi onun doğulduğu Ağcabədi rayonunda ədəbi-bədii gecə ilə qeyd olunub.**

Yaqub Məmmədov adına Ağcabədi Mədəniyyət Mərkəzində təşkil edilən tədbirdən öncə Rəşad Məcidin yaradıcılığına həsr olunmuş sərgiyə baxış keçirilib. Azərbaycan Milli Kitabxanasının sərgilədiyi guşədə ünlü yazarın Azərbaycanda və xarici ölkələrdə nəşr olunmuş kitabları, o cümlədən redaktoru olduğu və haqqında yazılan kitablar nümayiş etdirilib.

Sonra mərkəzin konfrans zalında Rəşad Məcidin ömür yolundan bəhs edən videoçarx göstərilib. Gecənin aparıcısı yazıçı-publisist, Milli Məclisin deputatı Aqil Abbas açılış nitqi ilə çıxış edərək yubilyarı səhnəyə dəvət edib.

Gecədə Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov, Azərbaycan Milli Kitabxanasının direktoru, professor Kərim Tahirov, Qabaqcıl maarif xadimi Ədalət Hüseynov, "Aran" qəzetinin redaktoru, AYB-nin üzvü Məhsəti Musa şairin yaradıcılığından, uğurlu fəaliyyətindən söz açıb, ona xoş arzularını bildiriblər.

Rəşad Məcidin 1982-ci ildə Ağcabədidə çıxan "Sürət" (hazırkı "Aran") qəzetində çap olunmuş ilk şeirini məktəbli Nəimi Ağayev səsləndirib. Şairlə Şuşada tanış olmuş daha bir məktəbli – Məcid Məmmədov onun "Cıdır düzü" şeirini söyləyib və sazda "Ruhani" havasını ifa edib. Məclisdə Rəşad Məcidin sözlərinə bəstələnmiş mahnılar təqdim edilib.

Yubilyara Ağcabədi Rayon İcra Hakimiyyətinin fəxri fərmanı və hədiyyəsi yubilyara təqdim olunub.

Sonda çıxış edən Rəşad Məcid doğma Ağcabədidə həmyerliləri ilə yubiley görüşündən məmnunluğunu ifadə edib və məclisin təşkilatçılarına minnətdarlığını bildirib.

***XQ***

# Qocaman "Leyli və Məcnun" Gənc Tamaşaçılar Teatrında

**Anadan olmasının 530 illiyi ölkəmizdə dövlət səviyyəsində qeyd olunan böyük Azərbaycan şairi Məhəmməd Füzulinin yaradıcılığı hər zaman aktualdır. Onun əsərləri teatrların repertuarında da daimi yer alır.**



Azərbaycan Dövlət Milli Gənc Tamaşaçılar Teatrı bu mövsümü məhz dahi Füzulinin eyniadlı poeması əsasında dramatik janrda hazırlanan "Leyli və Məcnun" tamaşası ilə açıb. Bu günlərdə isə tamaşa bir daha göstərilib və böyük maraqla qarşılanıb. Səhnə əsərinin quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımovdur. Tamaşada rolları Əməkdar artistlər Mehriban Abdullayeva, Nofəl Vəliyev, Elnur Hüseynov, Qəmər Məmmədova, Rasim Cəfər, aktyorlar Bəhram Əliheydər, Səbinə Məmmədzadə, Nuriyyə Əliyeva və başqaları ifa ediblər.

Tamaşa klassik geyimləri, musiqi dramaturgiyası və gözəl dekorasiyası, eyni zamanda, maraqlı, dinamik və plastik aktyor oyunları ilə diqqəti cəlb edib.

***XQ***

# Tələbələr ekoloji fəlakəti durdurmağa çalışırlar



**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının və "Eight Group" şirkətinin birgə təşkilatçılığı, eləcə də Azərbaycan Rəssamlar İttifaqının dəstəyi ilə tələbə rəssamların dünən COP29-a həsr olunmuş sərgisi açılıb. Bakının "QGallery" sərgi salonunda keçirilən "Yaşıl Dünya Naminə Həmrəylik" sərgisində müasir insanın düşdüyü ekoloji vəziyyətlə bağlı gerçəkliyi əks etdirən sənət əsərləri nümayiş etdirilir.**

Sərginin konsepsiyasının əsasını ekoloji şüurun, şüurlu istehlakın və təbiətə qayğının sadəcə dəb tendensiyası olmadığını ifadə edən çağırış təşkil edir. Bu gün bu, daha çox həyati zərurətdir və ümumi gələcəyimizə töhfədir. Tələbə rəssamların əsərləri "QGallery"də oktyabrın 17-dək nümayiş etdiriləcək.

Sərginin açılışından sonra akademiyanın beynəlxalq əlaqələr üzrə prorektoru, Xalq rəssamı Səlhab Məmmədov XQ-yə açıqlamasında bildirdi ki, əvvəlcə ADRA-nın rəngkarlıq ixtisasının müxtəlif kurslarında təhsil alan tələbələrin 120-dək rəsminin təqdim edildiyi müsabiqə keçirilib: "Akademiyanın rektoru və müəllimlərinin, "Eight Group"un nümayəndələrinin daxil olduğu münsiflər heyəti həmin işlərin arasından 33 əsəri seçib. Həmin rəsmlər 21 müəllifə aiddir. Qalib gələn rəsm əsərlərinə mükafatlar təqdim ediləcək. Müsabiqənin 3 finalçısına pul mükafatı veriləcək. Əlavə olaraq, 7 iştirakçıya həvəsləndirici mükafatın verilməsi nəzərdə tutulub.

Akademiyanın rektoru Natiq Əliyev başda olmaqla, düşündük ki, COP29-a bizim də töhfəmiz olsun. Tələbələr sevinirlər ki, onların əl işləri sərgilənir. Bugünkü açılışda yüzlərlə ziyarətçinin iştirakı gözlənilir".

ADRA-nın rəngkarlıq kafedrasının baş müəllimi Ramil Məmmədov isə dedi ki, məqsədimiz incəsənət vasitəsilə tamaşaçının diqqətini təbiətə müdaxilənin nəticələrinə, ekologiyanın insan mədəniyyətinin səviyyəsindən asılılığına, ətraf mühitdə baş verən dəyişikliklərə yönəltməkdir: "Yaşıl Dünya Naminə Həmrəylik" sərgisində təqdim olunan əsərlər arasında insanın və Yer kürəsində həyatın həm təbii fəlakətlər, həm də öz əməlləri qarşısında acizliyini nümayiş etdirən, müəyyən bir reallıq ab-havasına qərq edən akademik şəkildə işlənmiş mənzərələr var".

**Rizvan FİKRƏTOĞLU**
**XQ**

# Zamana çat salan "Səhra savaşı"

**Vaqif Sultanlının "Səhra savaşı" adlı romanı yenidən nəşr edilib. Növbəti dəfə "Kritika" nəşriyyatının yayınladığı, şərti-metaforik üslubda qələmə alınmış romanda təsvir olunan hadisələr zamanın çatlaması ilə gələcəkdən imtina edərək keçmişə üz tutan qəhrəmanın taleyi fonunda cərəyan edir.**




"Səhra savaşı" XXI yüzildə qloballaşan dünyaya hakim olan özgələşmə, yaddaşsızlaşma, biganələşmə, gərəksizləşmə kimi mənəvi-əxlaqi çöküş və humanitar böhranla müşayiət olunan bəşəri problemlərə sərt etiraz ruhu ilə seçilir. İnsanlığın keçib gəldiyi yolun ənənəvi axarda deyil, tərs müstəvidə canlandırılması müəllifə insan və dünya haqqında fəlsəfi düşüncələrini əks etdirməyə imkan verir.

Süjet hörüyü fəlsəfi-mifoloji düşüncədən qaynaqlanan romanın baş qəhrəmanı olan Qocanın timsalında yer üzündə dərinləşməkdə olan ziddiyyətlərin, qarşıdurmaların, çarəsizliyin, çıxılmazlığın gerçək mahiyyətini aşkarlamağa yönəlik sorunlara aydınlıq gətirilməsinə çalışılır.

Qeyd edək ki, ilk dəfə 2015-ci ildə Azərbaycan oxucularına təqdim olunan roman daha sonra Türkiyə, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Rusiya, Ukrayna, İran və başqa ölkələrdə yayınlanıb, haqqında müxtəlif səpkili araşdırmalar aparılıb.

***XQ***

GÜNÜN SUALI

# Ölkəmizdə manual terapiyaya maraq niyə zəifdir?

## *Bu sahədə kadr hazırlanmır, müalicədən geniş istifadə edilmir*

**Haqqında söz açdığımız müalicə üsulu – manual terapiya Azərbaycanda bir peşə kimi, demək olar ki, qəbul olunmur. Bu sahədə fəaliyyət göstərən həkimlər də azdır. Xarici ölkələrdə geniş tətbiq edilən manual terapiyaya ölkəmizdə laqeyd münasibətin səbəbini öyrənmək və bu müalicə üsulu ilə daha yaxından tanış olmaq məqsədilə manual terapevt Arzu Həsənovla görüşdük. Qeyd edək ki, Arzu Həsənov 1980–1984-cü illərdə Azərbaycan Tibb Universitetində, 1984–1986-cı illərdə Saratov dövlət Tibb İnstitutunun hərbi tibb fakültəsində təhsil alıb. Almaniyada anesteziologiya və reanimasiya üzrə internatura keçib (1986–1987), Moskvada manual terapiya və massaj, eyni zamanda, Buteyko metodu kurslarında (1991) ixtisaslaşıb.**



Almaniyada, Rusiyada və ölkəmizin bir çox özəl klinikalarında manual terapiya üzrə fəaliyyət göstərib. 2018-ci ilin iyun ayından manual terapevt və Buteyko metodu üzrə mütəxəssis olaraq "HAYAT Clinic" tibb mərkəzində çalışır. Həkimdən "XQ" üçün aldığımız müsahibədə manual terapiya ilə bağlı məlumatlar öyrənməyə çalışdıq.

***– Doktor, manual terapiya nədir, müalicə üsulu kimi nə vaxtdan tibb sahəsinə daxil olub?***

– Öncə onu qeyd edək ki, manual terapiya çox qədim tibb sahəsidir. Bu terapiyanın, təqribən, 7 min 500 ilə yaxın yaşı var, Çin təbabətindən gələn müalicə üsuludur. Təəssüf ki, təbabəti öyrəndikdən sonra da bu sahə ilə maraqlanan həkimlər çox deyil. Yenə təəssüflər olsun ki, onurğa sütunu haqqında bilgilər də yetərincə deyil. Yoqların 2 min 500 yaşı olan qəribə bir fikri var: "Orqanizmdə problemin, yəni xəstəliyin çoxdursa, amma səbəbini tapa bilmirsənsə, o səbəbi onurğa sütununda axtar". Dərinə getsək, bütün sinir sistemi onurğa sütunundan çıxdığına görə, daxili orqanların hamısı ilə teması var. Demək, onurğa orqanizmin bütün xəstəlikləri ilə əlaqədədir. Təcrübələr göstərir ki, bəzi xəstəliklər var ki, uzunmüddətli müalicədən sonra yenə sağalmır. Belə olanda mütləq onurğa sütunu yoxlanmalıdır.



***– Manual terapevtlər hansı xəstəlikləri, necə sağaldırlar?***

– Manual terapevtlər onurğa sütununu fizioloji bərpa edirlər. Onurğa sütununun bərpası ilə məşğul olduğumuzdan təbii ki, bütün xəstəliklərin müalicəsinə təsir etmiş oluruq. İş orasındadır ki, xəstələnən şəxs heç vaxt əvvəlcə manual terapevtə müraciət etmir. Pasientlər xəstəlikləri ilə bağlı müəyyən müalicələr aldıqdan, nəticə görmədikdən sonra belə manual terapiya həkimlərin yadına düşmür. Müayinə zamanı biz onların xroniki xəstəliklərini onurğa sütununun rentgeni vasitəsilə müəyyən edirik və bu onları təəccübləndirir. Xəstələr nevropatoloqlara, travmatoloqlara, hətta, sınıqçılara müraciət edirlər. Manual terapevtlər isə bu tibb sahəsini elmi şəkildə tətbiq etməyə çalışırlar. Onurğa sütununda problem olduğu zaman da sınıqçılara müraciət edən pasientlər var. Lakin onurğa sütununun problemlərini bilmədən, anatomiyanı öyrənmədən ona müdaxilə etmək çox böyük fəsadlara gətirib çıxarar. Sınıqçılara hər zaman müraciət etmək olmaz. Onlar kiçik problemləri – oynaqlardakı çıxığı həll edə bilərlər, amma onurğa sütununun problemlərini bilməyən sınıqçılardan qaçmaq lazımdır. Hansısa fəqərə yerindən çıxıbsa ona kömək etmək olar. Amma burada başqa problemlər də – yırtıq, fəqərənin sürüşməsi, onurğa sütununun çökməsi ola bilər, bağ aralarında problem yarana bilər, onurğa beyninə qan sıza bilər və s.

***– Hansı ağrılarda manual terapevtlərə müraciət etmək lazımdır?***

– Bizə əsasən, onurğa sütunu əyrilikləri, fəqərə sürüşməsi, fəqərələrarası disklərin protruziyası və yırtığı, oma sümüyünün fleksiyası (əyrilikləri) və s. problemlərlə müraciət edirlər. Bütün xəstəliklərin müalicəsində onurğa sütunu xəstəliklərinin müalicəsindən istifadə etmək mümkündür. Bizim müalicə üsullarını xəstələrin özləri icazə vermədiyindən televiziyalarda göstərə bilmirik. Yəni müalicə üsullarını vətəndaşlara çatdırıb maarifləndirə bilmirik. Amma əminliklə deyə bilərəm ki, fəqərə problemlərini 100 faizə qədər fizioloji bərpa etmək mümkündür.

***– Oma sümüyünün fleksiyası dediniz. Bu, hansı xəstəlikdir, necə təyin edilir və müalicəsi necə aparılır?***

– Oma sümüyünün fleksiyası taz sümuklərində oma sümüyünün yerdəyişməsinə deyilir. Fleksiyanın diaqnostikası rentgenlə çəkilmiş düz proyeksiyada aparılır. Öncə qalçanın ən hündür yerləri xəttlə birləşdirilir, sonra isə oma sümüyünün ən hündür yerlərini birləşdirirlər. Normal halda xətlər bir-birinə paralel olmalıdır. 1–2 millimetr fərq qəbul edilə bilər. Amma paralellik arasındakı fərq 3 millimetrdən yuxarı, 4-5-8 millimetr olanda, bu ölçü artıq omada əyrilik olduğunu sübut edir.

Taz iki qalça və 1 oma sümüyündən ibarətdir. Bir-biri ilə qığırdaqlar və bağlar-əzələlər vasitəsilə birləşirlər. Fleksiya adətən qadınlarda doğuş vaxtı prosesi tezləşdirmək məqsədilə omaya edilən təzyiq nəticəsində meydana gəlir. Buna oma çıxığı da deyilir. Digər səbəb yıxılmaqdır. Oma sümüyü yerini dəyişdiyindən bud-çanaq oynağının vəziyyəti də dəyişir. Bu, müxtəlif xəstəliklərin yaranmasına səbəb olur. Ayaqların qısalması baş verir. Böyrək problemləri, qadın xəstəlikləri, oturaq sinirin problemləri meydana şıxa bilər. Gələcəkdə skaliozların əmələ gəlməsinə yol aça bilər. Nevropatoloqlar bu xəstəliyi müxtəlif dərman preparatları ilə müalicə etməyə çalışırlar.

***– Manual terapiyanın tətbiqində yaş həddi varmı?***

– Manual terapiyanın yaşa olan münasibəti insanın yaşadığı illərdən çox, onurğanın vəziyyətindən asılıdır. Biz, təxminən, 6 ayından başlayaraq 90 yaşına qədər şəxslərdə onurğa sütunu ilə bağlı xəstəlikləri müalicə edirik. İşimiz xəstənin onurğa sütununun vəziyyətindən asılıdır. Fəqərələrarası qığırdağın 75 faizi sudan ibarətdir. İnsan yaşlandıqca qığırdaq elastikliyini itirir və ona vəziyyəti saxlamaq üçün kömək lazım olur. Həmçinin əzələlərin, sümüyün vəziyyəti də dəyişir. Yaş artdıqca sümükdə kalsiumun azalması ilə osteoporoz deyilən bir vəziyyət yaranır. Həmin xəstələrə təmrinlər veririk ki, onurğa sütununu hərəkətləndirib qığırdaqları müəyyən qaydaya salsınlar. Onlara tövsiyə edirik ki, bol su içilsin, yataq yerləri möhkəm olsun, çoxlu gəzintidə olsunlar və s. Bütün bunlarla yanaşı manual traksiyalar aparırıq.

***– Müalicənin müddəti nə qədər olur?***

– Müddət hər kəsdə eyni deyil. Bunları zamanla, 15 gündən 3 aya qədər nəzarətdə saxlayırıq. 70 yaşında xəstənin təbii ki, 30 il müddətində topladığı problemlər 3 günə həll edilməz.

Manual terapiya dedikdə manipulyasiyalar nəzərdə tutulur. Bu üsul, ilk növbədə, onurğa sütununun fizioloji düzənini bərpa edir. Buna görə də xəstəni, ilk növbədə, manual terapevtik prosedur üçün hazırlayır və sonra müalicəyə başlayırıq.

***– Onurğadakı dəyişikliyi, yəqin ki, MRT müayinəsi daha aydın göstərir və bu, dəqiq müalicəyə kömək edir?***

– MRT onurğanın daxilindəki dəyişikliyi göstərir. Rentgen müayinəsi isə onurğa sütununun düzənini göstərir. MRT-dən sonra rentgen çəkilməyəndə oma sümüyünün fleksiyası gizli qalır, xəstələr uzun müddət əziyyət çəkməli olurlar. Oma sümüyündən 5 sinir çıxır və bunlar gələcəkdə protruziyaya, skalyoza və digər onurğa sütunu və daxili xəstəliklərə səbəb olur. Fleksiya müəyyənləşdiriləndən sonra manual terapiya vasitəsilə uşaqlarda 1-2 dəfə, yaşlılarda isə fərqli seanslarla ağrıları aradan qaldırmaq mümkündür. Bunu yalnız manual terapevtlər bilir və müalicə edirlər.

***– Ölkəmizdə manual terapiya ilə məşğul olanlar barmaqla sayılacaq qədərdir.***

– Elədir. Manual terapiyanın Azərbaycanda öyrənilməsi labüddür. 1985-ci ildən bəri köhnə SSRİ məkanında, MDB dövlətlərinin əksəriyyətində tibb təhsili verən müəssisələrdə manual terapiyanın kafedraları var, dövlət səviyyəsində elm kimi öyrənilir. Azərbaycanda isə, tibb sahəsində oxuyan gələcək həkimlər bu sahədən xəbərsizdir. Hətta bəzi klinik həkimlərin də bu sahədən anlayışları yoxdur. Onurğada problem yarananda xəstədən yalnız Maqnit Rezonans Tomoqrafiya tələb olunur. Maqnit rezonansla rentgen arasında fərq var. Onurğa sütunu xəstəliyinin 100 faizli diaqnostikasından danışırıqsa, bu müayinələrin hər ikisinin olunması vacibdir. Həkimlər bəzən fəqərələrarası disklərdə yırtıq olduğu zaman onurğa sütununun fiziologiyasını bərpa etmədən müəyyən dərmanlarla müalicəsini etməyə çalışırlar. Bu isə cox hallarda nəticəsiz qalır.

Manual terapiya tibbin elə sahəsidir ki, gözdən başlamış bütün orqanların vəziyyəti haqqında mesaj verir, gələcəkdə baş verə biləcək çox ciddi problemlərin qarşısını ala bilir. Həkim özü bu barədə bilmirsə, xəstəni düzgün müalicəyə necə yönləndirə bilər? Bu çox vacibdir ki, pasient düzgün müalicəyə cəlb olunsun, aylarla, bəzən illərlə müalicələrdə sürünüb xəstəliyini xronikiləşdirməsin. Məsələn döş qəfəsində yaranan dəyişiklik sinir sistemini sıxır, tənəffüs dəyişir, ürək döyüntüsü dəyişir, damar sıxıntısı dəyişir və təzyiq qalxır. 200 illik yaşı olan təbabəti ənənəvi tibb adlandırırıq, keçmişi olan, 7500 il yaşa malik təbabəti isə qeyri-ənənəvi tibb adlandırırıq. Bu sahə nəinki öyrənilməli, hətta hər poliklinikada tətbiq olunmalıdır. Gələn xəstə onurğasından başlanıb yoxlanmalı, müalicəsinə oradan başlanmalıdır. Tibb universitetlərində bu sahə mütləq öyrədilməlidir. Hər bir həkimin onurğa sütunu haqqında ətraflı bilgisi olmalıdır.

Həkimlə söhbətdən sonra "Xalq qəzeti" olaraq bizə də manual terapiyanın nəinki sıravi insanlar, hətta, bir çox həkimlər tərəfindən də qəbul edilmədiyini öyrəndik. Axı hər orqanın öz xəstəliyi var və həkimlər o xəstəliklərə uyğun müalicə üsulu tətbiq edirlər. Manual terapevtlər isə bütün xəstəliklərin onurğa sütunu ilə bağlı olduğunu iddia edir və bunu əsaslandırırlar. Bəs nəyə görə ölkəmizdə terapiyanın bu üsulu öyrədilmir? Nəinki öyrədilmir, heç öyrənilmir də. Digər ölkələrdə bu sahədə ixtisaslaşmış həkimlərimizin təcrübəsindən dövlətin tibb müəssisələrində istifadə edilmir. Onlar yalnız özəl klinikalarda müalicə aparırlar. Amma manual terapiya haqqında anlayışı olanlar arayıb axtarır, həmin həkimlərə müraciət edir və nəticədən razı qalırlar.

Fikrimizcə, səhiyyənin hazırkı inkişafı, tibb müəssisələrində müasir avadanlıqların tətbiqi, müalicə və əməliyyatlar üçün xarici ölkələrə üz tutanların sayının azalması onu deməyə imkan verir ki, həkimlərimizə hər cür xəstəliyin müalicəsini etibar etmək olar. Əminik ki, manual terapiyanın öyrədilməsi və tətbiqi gedişi ağrılı proseslərlə davam edən xəstəliklərin daha tez müalicə olunmasına təkan verər. Səlahiyyətli orqanların bununla bağlı addım atmalarının vaxtı çatmayıbmı? Heç olmasa, kurslar təşkil edib təcrübəli manual terapevtlərin biliklərindən yararlanmaq, çox vacib bir müalicə-bərpa üsulunu gənc mütəxəssislərə öyrətmək mümkündür. Bunun yalnız xalqın sağlamlığına faydalı olacağına, və xroniki hala keçən xəstəliklərin müalicəsindəki dərman asılılığına son qoyacağına inanırıq.

**– Müsahibə üçün çox sağ olun.**

***Söhbəti yazdı:***
***Zərifə HÜSEYNOVA***
***XQ***

BEYNƏLXALQ HƏYAT

**Ukraynada hərbi böhran davam edir. Kiyevə Rusiyaya qarşı dirəniş göstərmək üçün Qərbdən kifayət qədər maddi və mənəvi dəstək vəd olunur. Münaqişənin davam etməsini inadla dəstəkləyən ABŞ-da yeni prezident seçkiləri Ukraynanın taleyinə necə təsir göstərəcək?**

# ABŞ-də seçkilər və Ukrayna böhranı



İndi beynəlxalq aləmdə sanki bir pauza ab-havası hökm sürməkdədir. Dünya ölkələrinin, xüsusən Qərb dövlətlərinin liderləri sanki əllərini-qollarını sallayıb ABŞ prezidenti seçkilərinin nəticələrini gözləmək istəyirlər. Hamı fikirləşir ki, birdən olmadı belə, oldu elə, prezident Co Baydenin xəttini davam etdirməli olan hazırkı vitse-prezident Kamala Harris seçilə bilmədi, Ağ ev keçdi Donald Trampın əlinə. Onda necə olacaq? Ona görə də hazırda Ukraynaya vəd olunmuş 50 milyard dolların ayrılması məsələsi barədə hələ ki, sükut edilir. Yəqin ki, seçkinin nəticələrini gözləməyə dəyər. Özü də, həmin 50 milyard pulun Rusiyanın dondurulmuş aktivləri hesabına ödənilməsi nəzərdə tutulduğundan vəziyyət bir az da qəlizləşir. Tramp Rusiya ilə münasibətləri nizamlamağa çalışacaqsa, Rusiya aktivlərinə sahiblik etmək istəyənlərin aqibəti necə olacaq?

Bu yandan da, Rusiya əlləri hər şeydən üzüləndən sonra özünü və xalqını qorumaq üçün nüvə silahına əl atacağını gizlətmir. Əlbəttə, dünyada da başa düşməyə başlayıblar ki, bu boyda zarafat olmaz. Suda boğulan saman çöpündən yapışır. Moskva, doğrudan-doğruya, nüvə silahına əl ata bilər. Üstəlik, o, buna Qərb tərəfindən məcbur edildiyini bildirir. Artıq Bayden də Rusiyanın nüvə hədələrinin zarafat olmadığını anlayıb və dünən bəyan edib ki, dünyada nüvə arsenalının azaldılması ətrafında Moskva, Pekin və Pxenyanla danışıqlara hazırdır. Bayden deyib: "ABŞ nüvə təhlükəsini azaltmaq üçün ilkin şərt olmadan Rusiya, Çin və Şimali Koreya ilə danışıqlara hazırdır. Nüvə arsenallarının azaldılmasında irəliləyişə mane olmaq nə bizim ölkələrimiz, nə də dünya üçün faydalıdır". Onun fikrincə, nüvə təhlükəsinin mövcudluğu bütün dünyanın uzun illərdən bəri kollektiv şəkildə üzərində işlədiyi norma və razılaşmaları pozur.

Təbii ki, Suriyanın, Liviyanın, müəyyən dərəcədə Misirin, onlardan əvvəl Əfqanıstan və İraqın, son vaxtlar isə Qəzzanın və Livanın viran qoyulmasından sonra Ukraynanın tam xarabalığa çevrilməsinin qarşısını almağın vacibliyini başa düşməyin özü də müsbət haldır, bəlkə də ziyanın yarısından qayıtmaqdır. Odur ki, yaxşı-yaxşı nəfəs dərməyə dəyər.

Deyəsən, elə dostumuz, Macarıstanın baş naziri Viktor Orban da elə bunu təklif edir. O, yenə də Qərbdə hamıdan qabağa düşərək, Ukraynanın qalan ərazilərinin də yerlə-yeksan edilməsinə və bu məqsədlə Kiyevə həmin 50 milyard dolların ötürülməsinə tələsməmək barədə danışıb. O, qalib gələcəyi təqdirdə bu əsnada Trampa kömək etməyə hazır olduğunu bildirib.

Artıq Rusiyada da başa düşürlər ki, ABŞ Prezidenti Co Bayden nə üçün Ukraynaya yardımla bağlı iclasda iştirak etməmək qərarına gəlib və bu, Avropa ölkələrinin Kiyevə müstəqil şəkildə yardım göstərmək istəməməsinə səbəb olacaq. Belə çıxır ki, hamı ABŞ prezidenti seçkisinin sonuna qədər nəfəs dərmək niyyətindədir.

Ukraynanın ərazisində isə müharibə bütün gücü ilə davam etməkdədir. Son 24 saat ərzində Qərb qoşun qrupunun motoatıcı bölmələri Ukrayna Silahlı Qüvvələrinin 39 dayaq məntəqəsini ələ keçirərək cəbhə xəttində vəziyyətini yaxşılaşdırıb. Bunu oktyabrın 14-də qrupun mətbuat mərkəzinin rəhbəri İvan Biqma TASS-a müsahibəsində deyib: "Artilleriyanın, ağır atəş sistemlərinin və aviasiyanın dəstəyi ilə Petropavlovsk, Kupinsk, Berestovoy, Chervona Dibrova və Qriqorovka rayonlarında Ukrayna Silahlı Qüvvələrinin 119-cu ərazi müdafiə briqadasının və 14, 30, 44 və 53-cü mexanikləşdirilmiş briqadalarının canlı qüvvə və texnikası darmadağın edilib".

Dünən "The Wall Street Journal" yazıb ki, Ukraynada müharibənin üçüncü ili başa çatmaqda olduğu bir vaxtda Rusiya yorulmadan hücum əməliyyatlarını davam etdirir. Qərb liderləri isə münaqişənin dayandırılması üçün yollar axtarırlar. Eyni zamanda, Ukrayna Qərbin məhdud sayda və ləng şəkildə göndərdiyi silahlar fonunda çox sərt bir qışı qarşılamağa hazırlaşır. Rusiyanın raket və PUA-larının Ukraynanın energetika infrastrukturuna aramsız zərbələri qış aylarında ölkəyə işıq verilməsi ilə bağlı vəziyyəti daha da çətinləşdirir. Rus qoşunlarının bu yaxınlarda Uqledarı tutması və Pokrovsk istiqamətində irəliləməsi ukraynalı hərbçiləri bərk narahat edib.

"Bild" isə Ukrayna Silahlı Qüvvələrinin yaxın aylarda Kursku tərk edə biləcəyini qeyd edib. Çünki rus qoşunları bu istiqamətdə də hücumlarını genişləndirib və artıq bir sıra məntəqələri ələ keçirərək 13 kilometr irəliləyib. Dünən Rusiya hərbi qüvvələri Ukraynanın əlində olan Suca şəhərinə hücum edib, şəhərə gedən şosseni nəzarətə götürüblər.

ABŞ-də seçkilər isə lap yaxındadır...

***Paşa ƏMİRCANOV***
***XQ***

# ABŞ BƏƏ və Səudiyyə Ərəbistanına 2,2 milyard dollarlıq silah satacaq



**ABŞ Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanına 2,2 milyard dollar dəyərində silah satacaq. Bu barədə "Reuters" məlumat yayıb.**

Xəbərdə deyilir ki, Co Bayden administrasiyası Səudiyyə Ərəbistanı və BƏƏ-yə milyardlarla dollarlıq silah satışına icazə verib. Beləliklə, Vaşinqton növbəti dəfə Səudiyyə Ərəbistanı və BƏƏ-yə milyardlarla dollarlıq silah satışını təsdiqləyərək, Yaxın Şərqdə gərginliyin artdığı bir vaxtda ABŞ-nin İrana və onun vəkillərinə qarşı mübarizəsində kritik əhəmiyyət kəsb edən iki müttəfiqə yeni dəstək nümayiş etdirib.

Dövlət Departamenti Konqresə göndərdiyi məktubda Səudiyyə Ərəbistanına dəyəri 1 milyard dollardan çox olan "Hellfire" və "Sidewinder" raketlərinin, habelə artilleriya, tank və pulemyot sursatlarının satışına icazə verdiyini bildirib.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 226 (30630) 15 oktyabr 2024-cü il, çərşənbə axşamı

## İdman xəbərləri

### "Böyük dəbilqə"də 4 medal

**Azərbaycanın cüdo komandası Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə təşkil olunan "Böyük dəbilqə" turnirini 1-i qızıl olmaqla 4 medalla başa vurub.**



Komandamızın üzvlərindən Zelim Tçkayev (81 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. Uşangi Kokauri (+100 kq) gümüş medala sahib olub. Acelya Toprak (57 kq) və Murad Fətiyev (90 kq) isə bürünc medala layiq görülüblər. Bu nəticə ilə komandamız medal sıralamasında 5-ci olub.

### Dünya cüdo çempionatı Bakıda keçiriləcək

**2026-cı ildə cüdo üzrə dünya çempionatı Azərbaycanda keçiriləcək.**



Azərbaycan Cüdo Federasiyasının (ACF) mətbuat xidmətindən verilən məlumata görə, Beynəlxalq Cüdo Federasiyası və ACF arasında müvafiq razılıq əldə edilib. Los Anceles-2028 Yay Olimpiya Oyunları üçün lisenziya yarışlarına Bakıda keçiriləcək mundialla start veriləcək.

Qeyd edək ki, 2018-ci ildə cüdo üzrə dünya çempionatı Azərbaycanda təşkil edilib.

### "Azərreyl" Avropa kubokunun qalibi olub

**"Azərreyl" klubunun kişilərdən ibarət komandası Fransanın Monpelye şəhərində keçirilən çimərlik voleybolu üzrə klublararası Avropa Kubokunda uğurla çıxış edərək qalib adını qazanıb.**



Bakı təmsilçisi həlledici matçda İspaniyanın "CVP Poniente Benidorm Alicante" komandası ilə mübarizə aparıb. İki görüşün birində "Azərreyl" (2:1), digərində İspaniya təmsilçisi (2:1) üstün olub. Qalibi müəyyənləşdirmək üçün keçirilən qızıl setdə 15:12 hesablı qələbə qazanan təmsilçimiz Avropa Kubokunda çempion adına yiyələnib.

Qeyd edək ki, "Azərreyl"in qadınlardan ibarət komandası da Fransanın Monpelye şəhərində keçirilən çimərlik voleybolu üzrə klublararası Avropa Kubokunun qalibi adını qazanıb.

*Leyla QURBANOVA*
*XQ*

## Futbol tariximizdən

**Azərbaycan futbolunun pərəstişkarları 1968-ci ilə təsadüf etmiş 30-cu SSRİ çempionatının Bakıda startı ərəfəsində özlərini xoşbəxt hesab edə bilərdilər. Həmin çempionat onların doğma respublikası üçün xüsusilə əlamətdar idi. Bu yarışların bütün tarixi ərzində Azərbaycan ilk dəfə güclülər dəstəsində iki komanda ilə təmsil olunurdu. Onda hələ Kirovabad adlanan Gəncənin "Dinamo" kollektivi əvvəlki mövsümdə 1-ci dəstə komandalarının yarışının qalibi olub, "yüksək cəmiyyətdə" böyük qardaşı "Neftçi"yə yol yoldaşı olmaq hüququ qazanmışdı.**

# 56 il əvvəl aprelin ilk günü

Təqvimin hökmü ilə yubiley çempionatında hər iki komandamız elə ilk turda bir-birinə rəqib olmuşdu. Aprelin 1-də Bakıda keçirilmiş görüşü Respublika stadionunun tribunalarından 37 min azarkeş izləmişdi. Tamaşaçılar kiyevli Ümumittifaq dərəcəli hakim İqor Kaçarın idarə etdiyi oyunda güclülər dəstəsi debütantının meydan sahiblərinə ciddi müqavimətinin şahidi olmuşdular. Gərgin mübarizənin taleyini 54-cü dəqiqədə Anatoli Banişevskinin vurduğu yeganə qol həll etmişdir—1:0. Beləliklə, "Neftçi" çempionata qələbə, dinamoçular isə məğlubiyyətlə başlamışdılar.



Əvəzində, avqustun 22-də keçirilmiş ikinci dövrə matçında hadisələr başqa məcrada inkişaf etmiş, kirovabadlılar birinci dövrədəki məğlubiyyətin əvəzini artıqlaması ilə çıxmışdılar. Hesabı 25-ci dəqiqədə "Neftçi"nin yarımmüdafiəçisi Ələkbər Rəhmanov (çoxlarımız onu Əli kimi tanıyırdıq, amma əsl adı Ələkbər idi) açsa da, "Dinamo" buna 3 qolla cavab vermişdi. Toplardan ikisini Nadir Eynullayev vurmuş, daha bir hücumda isə Ruslan Abdullayev fərqlənmişdi. Nəticədə, suxumili hakim Anatoli Milçenkonun final işarəsi "Dinamo"nun 3:1 hesabı ilə qalib gəldiyini bildirmişdi.

Çempionatın finişində "Neftçi" yekun cədvəlində 38 xalla 20 komanda arasında 9-cu olmuş, 19 xalla kifayətlənən "Dinamo" isə sonuncu yerdə qalmışdır. Lakin bunu belə mötəbər yarış üçün kifayət qədər təcrübəsi olmayan "Dinamo"ya ciddi irad tutmaq olmazdı. Müzəffər Qasımov, Zahid Hüseynov, Yusif Məhərrəmov, Nadir Eynullayev, Ruslan Abdullayev, Nizami Salahov və onların komanda yoldaşları həmin il SSRİ çempionatının güclülər dəstəsində oynamaqla futbolumuz üçün yaddaqalan bir iş görmüşdülər.

Otuzuncu çempionatın medallarının müvafiq surətdə Kiyevin "Dinamo" (57 xal), Moskvanın "Spartak" (52) və "Torpedo" (50) komandalarına təqdim olunduğunu da qeyd edək.

İndi 56 il əvvəl keçirilmiş SSRİ çempionatı futbol ictimaiyyətimizin xatirəsində tarixi bir hadisə kimi yaşayır. Hər iki kollektivimiz hələ yarım əsrdən də çox əvvəl özləri haqqında xoş təəssürat yaratmışdı.

Təəssüf ki, bizim günlərdə onların işləri yaxşı getmir. "Neftçi" də , "Dinamo"nun davamçısı Gəncənin "Kəpəz" kollektivi də çətin günlər yaşayır. Ötən əsrin sonlarında, indiki əsrin əvvəllərində müstəqil Azərbaycanın milli çempionatlarında turnir cədvəllərinin zirvəsində görməyə adət etdiyimiz bu komandalar hazırda Premyer Liqada sonuncu pillələrdə qonşuluq edirlər. Qibtəedilməz qonşuluqdur.

Vaxt var idi, Gəncə əsl futbol istedadları şəhəri kimi tanınırdı. Bu şəhər Azərbaycan idmanına neçə-neçə mahir usta vermişdir. Həmin futbolçuların bir çoxu müxtəlif illərdə "Neftçi"yə dəvət olunmuş və flaqmanın heyətində inamlı oyunları ilə etimadı layiqincə doğrultmuşdur. Bu gün, heç olmasa, onların bir neçəsinin adını çəkməyi özümüzə borc bilək: Müzəffər Qasımov, Sergey Kramarenko, Yaşar Babayev, Maşallah Əhmədov, Mübariz Zeynalov, Ruslan Abdullayev, Mehman Allahverdiyev, Vəli Qasımov, Yunis Hüseynov, Asif Əliyev, Vidadi Rzayev, Mahmud Qurbanov, Arzu Mirzəyev…

Kaş "Neftçi" də, "Kəpəz" də o illərdəki kimi yenə pərəstişkarlarının ümidini doğrultmaq, onları ürəkdən sevindirmək üçün tezliklə özlərində güc tapıb, yaranmış vəziyyətdən çıxmağı bacaraydılar. Vəziyyət mürəkkəb olsa da, ümidsiz deyil…

Bu gün oxuculara təqdim etdiyimiz foto isə 1968-ci il aprelin 1-də keçirilmiş həmin tarixi görüşdə lentə alınmışdır. Budur, oyunda yeganə qolun müəllifi Anatoli Banişevski "Dinamo"nun iki müdafiəçisi ilə mübarizədən qalib ayrılıb, komandasının növbəti hücumunu davam etdirir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Maraq dünyası

### İlin ən yaxşı şəhəri

**Avstraliyanın Sidney şəhəri 2024-cü ildə dünyanın ən yaxşı şəhəri seçilib.**

Bu barədə Nyu-Yorkda nəşr olunan "Traveller" nəşri məlumat verib. Qeyd olunub ki, İspaniyanın Valensiya şəhəri 2-ci, Sinqapur isə 3-cü yeri tutub. İlk onluğa, Honq-Konq, Stokholm, Tokio, Vyana, Berlin, Milan və Budapeşt daxildir.

Xatırladaq ki, əsrarəngiz görünüşü və gözəlliyi ilə turistləri özünə cəlb edən Sidneyin əsası 1788-ci ildə Port-Cekson körfəzinin sahilində, avropalıların qitədə ilk məskunlaşması dövründə qoyulub. 236 il ərzində kiçik sürgün düşərgəsindən iri meqapolisə çevrilən şəhər çox sayda muzeyləri, göz oxşayan parkları ilə cəlbedicidir.

*Fidan SALMANOVA*
*XQ*



## Hava



### Abşeronda yağmursuz hava, bölgələrdə yağış və duman

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 15-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**

Lakin gecə və axşam yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəz olunacaq. Gecə 12-16°, gündüz 17-20° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 765 mm civə sütunu, nisbi rütubət gecə və gündüz 60-70 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gündüz əksər rayonlarda yağıntıda fasilə olacaq. Arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-15°, gündüz 16-21°, dağlarda gecə 3-7°, gündüz 10-15° isti olacaq.

*Q. QASIMOV*
*XQ*

### İqtisadiyyat üzrə Nobel mükafatçıları

**İqtisadiyyat üzrə 2024-cü ilin Nobel mükafatı laureatları ABŞ iqtisadçıları Daron Əcəmoğlu, Saymon Conson və Ceyms Robinsondur. Qaliblər oktyabrın 14-də Stokholmda İsveç Kral Elmlər Akademiyasının Nobel Komissiyası tərəfindən elan edilib.**

İqtisadiyyat üzrə Nobel mükafatı alimlərə "institutların formalaşması və onların rifaha təsirləri ilə bağlı araşdırmalarına görə" verilib.




Mükafat sahibləri öz tədqiqarlarında göstəriblər ki, ölkələrdə müxtəlif rifah səviyyələrinin səbəblərindən biri də müstəmləkəçilik zamanı yaradılan sosial institutlardır. Müstəmləkəçilik dövründə yoxsul olan ölkələr çox vaxt inklüziv institutları (cəmiyyətin geniş təbəqələrinin mülkiyyət hüquqlarını qoruyan və bütün vətəndaşların mənfəət üçün iqtisadi münasibətlərdə iştirakına imkan verən qurumlar) qəbul ediblər.

Digər ölkələr əhalinin böyük hissəsini gəlir bölgüsündən kənarlaşdıran hasilat iqtisadi institutları yaradıblar. Nəticədə, inklüziv institutların tətbiqi hər kəsə uzunmüddətli fayda gətirib, lakin hasilat institutları hakimiyyətdə olan insanlara qısamüddətli fayda verib. Komitənin press-relizində deyilir ki, bu, bir vaxtlar zəngin olan bəzi keçmiş müstəmləkələrin niyə indi kasıb, digərlərinin isə zənginləşdiyini izah edir.

*XQ*

***✓ 2020-ci ildə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsi tərəfindən Xalmuradov Rüstəm Çarıyeviçin adına verilmiş hərbi qulluqçunun AD seriyalı, 0048883 nömrəli şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2370
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00